European Training Foundation

Working together
Learning for life

# İNSAN KAPİTALININ İNKİŞAFINA YÖNƏLİK SİYASƏTLƏR



## AZƏRBAYCAN

AVROPA TƏHSİL FONDUNUN (ETF)

**TURİN PROSESİ** QİYMƏTLƏNDİRMƏSİ

THE EU AGENCY SUPPORTING COUNTRIES TO DEVELOP THROUGH LEARNING

## Məsuliyyətdən imtina haqqında qeyd

Bu hesabat Avropa Təhsil Fondunun (ETF) əməkdaşları Abdelaziz Jaouani, Margareta Nikolovska, Mihaylo Milovanoviç və Susanne Nielsen tərəfindən “2018-2020-ci il üzrə Turin Prosesi” çərçivəsində hazırlanmışdır.

Hesabatın məzmununa görə yalnız Avropa Təhsil Fondu (ETF) məsuliyyət daşıyır və Aİ təsisatlarının mövqeyi ilə üst-üstə düşməyə bilər.

© Avropa Təhsil Fondu, 2020

Mənbə göstərilməklə, buradakı məlumatların surətinin çoxaldılmasına icazə verilir.

Azərbaycan dilinə tərcümə "Konsis" MMC tərəfindən həyata keçirilib. Mətndə əks olunan məlumatların dəqiqliyi ilə bağlı hər hansı şübhə yaranarsa, aşağıdakı linkdə ETF hesabatının ingilis dilində olan orijinal versiyasına nəzər sala bilərsiniz: https://www.etf.europa.eu/en/publications-and-resources/publications/policies-human-capital-development-azerbaijan-etf-torino.

# PREAMBULA

Avropa Təhsil Fondu (ETF) tərəfindən aparılmış hazırkı qiymətləndirmə ölkənin insan kapitalının inkişafı ilə bağlı məsələlərin və peşə təhsili siyasətinin həyat boyu öyrənmə baxımından kənar və perspektiv təhlilini ehtiva edir. Qiymətləndirmə çərçivəsində insan kapitalının inkişafına və istifadəsinə mane olan təhsil və təlim siyasəti və təcrübə ilə bağlı çətinliklər müəyyənləşdirilmişdir. Həmin çətinlikləri nəzərə alaraq, onların həlli yolları barədə tövsiyələr verilir.

Bu qiymətləndirmələr Avropa Təhsil Fondu (ETF) tərəfindən insan kapitalının inkişafı və inklüziv iqtisadi artımla əlaqədar geniş kontekstdə peşə təhsili və təlimi sistemlərinə dair periodik təhlillər aparmaq məqsədilə 2010-cu ildə irəli sürülmüş təşəbbüsün əsas nəticələrindən biridir. Həyat boyu öyrənmə nöqteyi-nəzərindən peşə təhsili və təlimi (PTT) siyasətinin yüksək keyfiyyətli qiymətləndirilməsini təmin edərkən, proses dörd əsas prinsipə əsaslanır: məsuliyyət, iştirak, hərtərəfli və faktlara əsaslanan təhlillər.

Bu kontekstdə, "insan kapitalı" dedikdə insanların iqtisadi, sosial və fərdi inkişafını təmin edən bilik, bacarıq, istedad və qabiliyyətlər nəzərdə tutulur. Hazırkı qiymətləndirmələrin məqsədi insan kapitalının inkişafına xidmət edən milli təhsil və təlim siyasətlərinin planlaşdırılması və monitorinqi, habelə həmin siyasətlərin Avropa İttifaqı və digər donorlar tərəfindən dəstəklənməsi məqsədilə proqramlaşdırma və siyasət dialoqu üçün etibarlı məlumat mənbəyi təmin etməkdir.

Avropa Təhsil Fondunun (ETF) qiymətləndirmələri ölkələrin yüksək məsuliyyətliliyi və müxtəlif subyektlərin iştirakı əsasında standart hesabat şablonu (milli hesabatlılıq sistemi (NRF)) vasitəsilə ölkələrdən toplanmış faktlara əsaslanır. Avropa Təhsil Fondunun (ETF) apardığı hazırkı qiymətləndirmənin nəticələri və verilən tövsiyələr milli orqanlara və benefisiarlara təqdim olunmuş və onlarla müzakirə edilmişdir.

Qiymətləndirmə hesabatı Azərbaycanın strateji planlarının və milli siyasət prioritetlərinin qısa təsviri ilə başlayır (Fəsil 1). Daha sonra Avropa Təhsil Fondunun (ETF) mövqeyinə görə bu sahədə xüsusi diqqət tələb edən problemlərin dərin müzakirəsinə (Fəsil 3) keçməzdən əvvəl ölkədə insan kapitalının inkişafı və istifadəsi ilə əlaqəli məsələlərin icmalı təqdim olunur (Fəsil 2). 4-cü fəsildə aparılan təhlillərin ümumi nəticələri təqdim olunur.

Əlavələrdə isə əlavə məlumatlar verilir: hesabatdakı tövsiyələrin xülasəsi (Əlavə 1), Azərbaycanın təhsil və təlim sisteminin icmalı (Əlavə 2). Ölkənin özü tərəfindən tərtib edilmiş "Turin Prosesinə" dair Milli Hesabatla bu linkdə tanış ola bilərsiniz: https://openspace.Avropa Təhsil Fondu (ETF).europa.eu/trp/turin-process-2018-2020-azerbaijan-national-report.

# MÜNDƏRİCAT


QISA İCMAL 6

Ümumi vəziyyət 6

İnsan kapitalı ilə bağlı nəticələr 7

Tədbirlərin görülməsi ilə bağlı tövsiyələr 8

1. GIRIŞ 12

1.1 Bu qiymətləndirmə haqqında 12

1.2 Ölkə haqqında qısa məlumat 13

1.3 Strateji məzmun 14

2. İNSAN KAPİTALI: İNKIŞAF VƏ PROBLEMLƏR 16

2.1 İnsan kapitalının inkişaf göstəriciləri 16

2.2 İnsan kapitalı demokratik problemlər kontekstində 17

2.3 Dəyişən əmək bazarı kontekstində insan kapitalı 21

2.4 İnsan kapitalı və təhsil və təlim 24

3. AKTUAL MƏSƏLƏLƏRİN VƏ SİYASƏT TƏDBIRLƏRININ QIYMƏTLƏNDIRILMƏSI 29

3.1 PTT-yə marağın az olması səbəbindən ixtisas çatışmazlığı probleminin həlli 29

3.2 Gənclər arasında işsizlik səbəbindən insan kapitalı itkisinin qarşısının alınması 39

3.3 Böyüklər üçün insan kapitalını inkişaf etdirmək imkanlarını artırmaq 44

4. NƏTİCƏLƏR 50

ƏLAVƏ 1. TÖVSIYƏLƏRİN QISA İCMALI 53

ƏLAVƏ 2. AZƏRBAYCANIN TƏHSİL VƏ TƏLİM SİSTEMİ 55

AKRONİMLƏR 57

İSTİNADLAR 59

# QISA İCMAL

Avropa Təhsil Fondunun (ETF) “Turin Prosesinin” hazırkı qiymətləndirməsi ölkənin insan kapitalının inkişafı məsələlərini və peşə təhsili və təlimi (PTT) siyasətinin həyat boyu öyrənmə baxımından kənar və perspektiv təhlilini ehtiva edir. Qiymətləndirmə standart anketdən (milli hesabatlılıq sistemi) və müvafiq olduqda əlavə məlumat mənbələrindən istifadə edilməklə 2018-ci ildə tərtib edilmiş Azərbaycanın “Turin Prosesi” üzrə milli hesabatında yer almış faktlara əsaslanır.

Əsas diqqət ölkədə insan kapitalının inkişafına və istifadəsinə mane olan və təhsil və təlim, o cümlədən peşə təhsili və təlimi yolu ilə aradan qaldırıla biləcək çətinliklərə yönəldilmişdir. Bu qiymətləndirmənin məqsədləri baxımından, insan kapitalı insanların iqtisadi, sosial və şəxsi faydalar əldə etmək üçün mənimsədikləri və istifadə etdikləri bilik, istedad, qabiliyyət və bacarıqların məcmusu kimi başa düşülür.

İnsan kapitalının inkişafı baxımından Azərbaycanın prioritetləri 2016-cı ilin dekabr ayında qəbul edilmiş müxtəlif strateji yol xəritələrində, o cümlədən “2016–2025-ci illərdə Peşə Təhsili və Təlimi (PTT) üzrə Strateji Yol Xəritəsi”ndə müəyyən edilmişdir. Ölkə həmçinin Avropa İttifaqının (Aİ) “2014-ci il üzrə Azərbaycan üçün Təhsil və Təlim sahəsində İllik Fəaliyyət Proqramı (AAP)” adlı dəstək proqramını da həyata keçirir. Aİ-nin “2018-ci il üzrə Azərbaycanda məşğulluq naminə təhsilə dair yeni İllik Fəaliyyət Proqramına (AAP)” hazırlıq işləri, o cümlədən növbəti çoxillik Şərq Tərəfdaşlığı (EaP) proqramına hazırlıqlar davam etdirilir.

Bu səbəbdən, hazırkı qiymətləndirmə yuxarıda göstərilən proqramlara töhfə kimi nəzərdə tutulmuşdur. Bu hesabat Avropa Təhsil Fondu (ETF) tərəfindən aparılan qiymətləndirmənin ilkin layihəsini müzakirə etmək məqsədilə 28-29 noyabr 2019-cu il tarixlərində maraqlı tərəflərin Bakıda təşkil olunmuş seminarının yekunlarına həsr olunmuşdur. İştirakçılar Avropa Təhsil Fondunun (ETF) əldə etdiyi nəticələri müvafiq hesab etmiş və verilən tövsiyələri daha da təkmilləşdirmişlər. Onların töhfə verdikləri fikirlər bu yekun hesabatda öz əksini tapmışdır.

## Ümumi vəziyyət

Aİ-nin Azərbaycanla əlaqələri 1999-cu ildən etibarən qüvvəyə minmiş olan Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsaslanır. Aİ-nin Azərbaycanla əməkdaşlığı xüsusilə də iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlı artım və sosial inkişaf, səmərəli idarəetmə və qanunun aliliyi sahələrində ölkənin islahat proqramını və əlaqələrin yaxşılaşdırılması, mobillik və ölkələr arasında əlaqələr vasitəsilə Aİ ilə münasibətləri dəstəkləmək məqsədi daşıyır. Aİ-nin Azərbaycana yardımının prioritet istiqamətlərindən biri işçi qüvvəsinin bacarıqları ilə işəgötürənlərin ehtiyacları arasında daha yaxşı uyğunluq təmin etmək məqsədilə peşə təhsili sahəsinə xüsusi diqqət yetirməklə ölkədə bacarıqların artırılmasına dəstək verməkdir.

Ölkə təbii ehtiyatlar, xüsusilə də neft-qazla zəngindir. Bununla belə, hökumət insan kapitalının inkişafını ölkənin neft-qaz gəlirlərindən asılılığının azaldılması və kənar təzyiqlərə dayanıqlığının artırılması baxımından ilkin zəruri şərt kimi qəbul edir.

Hökumətin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft və qaz gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunda sürətli artıma nail olmaq, rəqabət qabiliyyətini və ixrac imkanlarını artırmaqdır.

Hazırkı qiymətləndirmə çərçivəsində Azərbaycanda insan kapitalının inkişafı və istifadəsi ilə bağlı indiyədək həyata keçirilmiş islahatların gedişatı və dayanıqlığına kölgə sala biləcək bir sıra çoxsaylı sistem problemləri araşdırılmışdır.

## İnsan kapitalı ilə bağlı nəticələr

İnsan kapitalının inkişafı ilə bağlı problemlərlə əlaqədar üç əsas məsələ müəyyən edilmişdir.

**1. PTT-yə marağın az olması səbəbindən ixtisaslı kadr çatışmazlığı**

İxtisas uyğunsuzluğu müəssisələrin get-gedə daha çox narahatlıqlara səbəb olur. Müəssisələr qeyri-adekvat təhsilli işçi qüvvəsini onların fəaliyyətlərinin yerinə yetirilməsinə maneə kimi xarakterizə edirlər. Qlobal Rəqabətlilik İndeksinə əsasən, ölkə “iqtisadi aktivlik göstərən əhali üçün rəqəmsal bacarıqlar” və “ixtisaslı işçilər tapmağın asanlığı” sahələrində xüsusilə zəif nəticə göstərməklə 141 ölkə arasında 58-ci yeri tutur.

Dövlət Statistika Komitəsi (DSK) tərəfindən 2016-cı ildə aparılmış araşdırmaya əsasən, ixtisas uyğunsuzluğu işə qəbul edilmiş gənclərin 44%-dən çoxunu (15-29 yaş arasında) təsir göstərir və onların 37%-i öz ixtisaslarına uyğun olmayan işlərdə çalışırlar. Bununla birlikdə, keyfiyyətli yeni ixtisas alma və ixtisasartırma, habelə praktik təcrübə qazanmaq üçün iş yerlərində təcrübə keçmək imkanları nisbətən məhduddur.

Orta peşə təhsili və təlimində iştirak səviyyəsi Şərq Tərəfdaşlığı (EaP) regionunda ən aşağı səviyyələrdən birini tutmaqla, 2018-ci ildə 14,5% təşkil etmişdir (Ukraynada 30%, Moldova və Belarusda 40%). Peşə təhsili müəssisələrinə qəbul olunanların sayının aşağı olmasından da göründüyü kimi, peşə təhsili və təliminin əhatə dairəsi, infrastrukturun olmaması və müvafiq müəllim kadrlarının çatışmazlığı, eləcə də, peşə təhsili və təliminə marağın az olması səbəbindən məhduddur. Əməkdaşlıq üçün funksional və institusional platformalar mövcud deyil. Bundan əlavə, işəgötürənlərin peşə təhsili və təliminə marağını artırmaq üçün stimullaşdırıcı maliyyə mexanizmləri yoxdur.

**2. Gənclərin işsiz olmasından qaynaqlanan insan kapitalı itkiləri**

Dünya Bankının 2019-cu ildə açıqladığı insan kapitalı indeksinə görə, Azərbaycan 157 ölkə arasında 69-cu yerdədir.

Ölkə əhalisi gəncdir. 2018-ci ildə ümumi əhalinin 20,7%-ni 0-14 yaş arasında şəxslər təşkil etmişdir. Əhalinin ümumi strukturunda gənclərin payının yüksək olması əmək qabiliyyətli əhali arasında gənclərin payının artmasında öz əksini tapmışdır və bu tendensiya bir neçə il davam edəcəkdir. 2017-2025-ci illəri əhatə edən dövrdə, hər il 125200 nəfər əmək bazarına daxil olacaq ki, bu da hər il yaradılan iş yerlərinin sayından təxminən 2,5 dəfə çoxdur.

Əmək bazarının müsbət xüsusiyyətləri nisbətən yüksək iqtisadi aktivlik səviyyəsi, işsizlik səviyyəsinin aşağı və məşğulluq səviyyəsinin yüksək olmasıdır. 2018-ci ildə aktivlik səviyyəsi kişilər və qadınlar arasındakı fərqlərlə (müvafiq olaraq 78,2% və 63.8%) 70.5% təşkil etmişdir. 2018-ci ildə məşğulluq səviyyəsi isə 67,0% (kişilərdə 75,0%, qadınlarda 60,1%) təşkil etmişdir. 2018-ci ildə ümumi işsizlik səviyyəsi aşağı olmaqla 4.9% təşkil etmişdir. Bu göstərici kişilərə nisbətən qadınlar arasında daha yüksəkdir (5.8%) (Avropa Təhsil Fondunun (ETF) məlumat toplusu, Dövlət Statistika Komitəsindən (DSK) əldə edilmiş məlumatlar, 2018).

Ölkənin əmək bazarının mənfi xüsusiyyətlərinə ümumi işsiz əhali arasında gənclərin işsizlik səviyyəsinin nisbətən yüksək olması (12,7%), qeyri-stabil məşğulluq (55,2%), xüsusilə kənd təsərrüfatı

və tikinti sahələrində özünüməşğulluq faizinin yüksək olması (68.3%), əmək məhsuldarlığına nisbətən əmək haqqının daha yüksək artımı daxildir (Avropa Təhsil Fondu (ETF), 2019a).

Gənclər arasında işsizlik səviyyəsi son illər davamlı olaraq aşağı düşsə də, yenə də ümumi işsizlik səviyyəsindən yüksəkdir və 2018-ci ildə 12,7% təşkil etmişdir. Gənclər arasında işsizlik qadınlar arasında kişilərə nisbətən daha yüksəkdir (2018-ci ildə müvafiq olaraq 14,7% və 11,0%) və gənc qadınlar kişilərə nisbətən qeyri-stabil və az maaşlı işlərdən daha çox zərər çəkirlər. Təhsil, məşğulluq və ya təlim sahələrinə cəlb olunmamış insanların səviyyəsi də yüksəkdir və 2017-ci ildə 23,0% təşkil etmişdir.

Karyera məsləhəti və peşəkar yönləndirmə xidmətlərinin az olması uzun müddət iş axtarışına səbəb olur. Gənclərin yeni Məşğulluq Proqramı bu problemləri həll etmək imkanına malikdir.

3. Böyüklər üçün insan kapitalının inkişafı imkanlarının məhdud olması

Təhsilə çəkilən dövlət xərcləri 2018-ci ildə ümumi daxili məhsulun 2,5%-ni təşkil etmişdir. Ümumilikdə bu göstərici Şərqi Avropa ölkələrindəki 4,5% orta göstəricidən və daha yüksək orta gəlirli ölkələr üçün orta göstəricidən aşağıdır. Bununla belə, 2019-cu il üzrə büdcə ayırmalarında bu göstərici üzrə təxminən 13% artım olmuşdur ki, bu da hökumətin ölkənin insan kapitalını inkişaf etdirməkdə israrlı olduğunu təsdiqləyir. Ümumiyyətlə, PTT xərclərinin ümumi təhsil xərclərindəki payı çox azdır və son beş ildə 2,1%-dən 1,4%-ə enmişdir.

Böyüklərin təhsil və təlimdə iştirakı məhduddur və bir sıra maneələr mövcuddur. Peşə standartları ümumiyyətlə dövlət təhsil standartlarının işlənib hazırlanması üçün yeni başlanğıc nöqtə kimi qəbul edilsə də, hazırda onlardan bütün sistem çərçivəsində istifadə olunmur.

Azərbaycanın yetkin əhalisinin təhsil almaq səviyyəsi orta həddədir. 2018-ci ildə böyüklərin əksəriyyətinin (25-64 yaş arasında) orta təhsili (76,4%), 16,6%-nin ali təhsilli, 7,1%-nin ibtidai və ya daha aşağı təhsil səviyyəsi olmuşdur.

Hazırda Azərbaycanda yetkin şəxslərin təhsil, ixtisasartırma və karyera imkanları məhduddur. Problemlərə, xüsusilə böyük şəhər mərkəzlərindən kənarda yetkin şəxslər üçün adekvat tədris müəssisələrinin və təkliflərinin olmaması daxildir.

## Tədbirlərin görülməsi ilə bağlı tövsiyələr

Avropa Təhsil Fondunun (ETF) qiymətləndirməsində müəyyən edilmiş üç əsas məsələyə diqqət yetirməklə insan kapitalının inkişafı üçün strateji mexanizmlərin yaxşılaşdırılması ilə bağlı konkret tövsiyələr verilmişdir.

### Peşə təhsili və təlimində (PTT) iştirakın az olması səbəbindən ixtisaslı kadr çatışmazlığı probleminin həlli

#### Tövsiyə 1 - İnsan kapitalının inkişafına yönəlik bütün investisiyalarda PTT-ni prioritetləşdirməklə onun cəlbediciliyini artırmaq

Avropa Təhsil Fondu (ETF) resursları şaxələndirməklə, xərc smetası yanaşması tətbiq etməklə və vəsaitlərin bölgüsünü, idarə edilməsini və monitorinqini yaxşılaşdırmaqla PTT maliyyələşdirmə sistemini yenidən təhlil etməyi tövsiyə edir.

Buraya vəsaitləri şəffaf şəkildə idarə edəcək və PTT müəssisələri arasında bölüşdürəcək Peşə Təhsilinin İnkişafı Fondunun təsis edilməsi də daxildir. Planlaşdırmada strategiyalarla faktiki

nailiyyətlər arasındakı mövcud boşluğu aradan qaldırmaq, daha çox açıqlığı və şəffaflığı və mövcud siyasətin daha etibarlı olmasını təmin etmək məqsədilə həm dövlət, həm də özəl sektorla bağlı olan müxtəlif maliyyə mənbələri (PTT üzrə ayrı-ayrı təchizatçıların və donorların ianələri də daxil olmaqla) nəzərə alınmalıdır.

### Tövsiyə 2 - Özəl sektorun iştirakını artırmaqla PTT-nin insan kapitalının inkişafı baxımından uyğunluğunu artırmaq

Avropa Təhsil Fondu (ETF) faktiki sosial-iqtisadi tələbatları səmərəli şəkildə təmin etmək və gənclər və şirkətlər üçün cəlbediciliyi artırmaq məqsədilə ixtisas artımını təmin edən çox səviyyəli və çoxtərəfli idarəetmə ekosisteminə şərait yaratmaqla bu məsələnin həllinə hərtərəfli və uyğun yanaşmanı tövsiyə edir.

Milli qurumlar işəgötürənlərin PTT siyasəti siklinə cəlb edilməsi üçün stimul və spesifik 0siyasət mexanizmləri yaratmalıdırlar. Bu, siyasətin planlaşdırılmasından həyata keçirilməsinə və monitorinqinə, o cümlədən əmək bazarının real tələbatlarına uyğun peşə standartlarının və tədris planlarının işlənib hazırlanmasına, PTT sisteminin idarə olunmasında fəal iştirakadək geniş əhatəli olmalıdır.

### Tövsiyə 3 – PTT sistemində çalışan peşəkar işçilər üçün şərtləri yaxşılaşdırmaqla ixtisasvermənin keyfiyyətini artırmaq

Avropa Təhsil Fondu (ETF) PTT müəllimləri və ustalar[1] üçün peşə standartlarının təkmilləşdirilməsini və tənzimlənməsini və PTT mütəxəssisləri üçün karyera və peşəkar inkişaf planları həyata keçirməyi tövsiyə edir. Azərbaycan şirkət və müəssisələrin rəsmi müəllimlik ixtisası olmayan mütəxəssislərinin dərs keçməsinə imkan vermək barədə düşünə bilərdi. Bundan əlavə, müəllimlik peşəsinin nüfuzunu artırmaq, o cümlədən vəzifəyə yüksəlmə və karyera inkişafı sisteminin yaradılması istiqamətində tədbirlər görmək tövsiyə olunur. Müəllim heyəti və şirkətlər arasında mütəxəssis biliklərinin və ən qabaqcıl təcrübələrin paylaşılması daha çox stimullaşdırılmalıdır.

### Tövsiyə 4 - Daha məqsədyönlü ixtisas siyasətinin formalaşdırılması üçün faktlara əsaslanan siyasət prinsipləri hazırlamaq

Daha etibarlı planlaşdırma üçün məlumat əldə etməyə imkan verən və təhsilin əmək bazarına uyğun olub-olmadığını göstərən məzunlarla aparılan araşdırmalar və işəgötürənlərlə sorğular kimi analitik vasitələrdən müntəzəm şəkildə istifadə etmək tövsiyə olunur.

Daha məqsədyönlü siyasət aparılmasına keçid üçün məlumatların toplanması və təhlili ilə əlaqədar potensialın artırılması tələb olunur.

## Gənclər arasında işsizlik səbəbindən insan kapitalı itkilərinin qarşısını almaq

### Tövsiyə 5 - Daha çox gənclərin tələbatları nəzərə alınmaqla əmək bazarında iştirakı dəstəkləyən xidmətlər və təlim imkanları yaratmaq

Avropa Təhsil Fondu (ETF) gənclərə istifadəçilər üçün daha rahat və cəlbedici xidmətlər və təhsil təklifləri təmin edən və beləliklə gənclərə diqqəti ölkənin əsas əmək bazarı siyasətinin tərkib hissəsinə çevirən gənclərin məşğulluq siyasətini daha çox əlaqələndirməyi və düzəliş etməyi tövsiyə edir.

Xüsusilə, Avropa Təhsil Fondu (ETF) gənclərə dəstək tədbirlərini müxtəlif qrupların, xüsusən də əlilliyi olan gənclərin xüsusi ehtiyaclarına uyğunlaşdıraraq yaxşılaşdırmağı tövsiyə edir. Bundan əlavə, dövlət

[1] PTT müəssisələrində tədris və təlim müəllimlər və ustalar tərəfindən aparılır. PTT sistemində ustaların üç kateqoriyası mövcuddur - Baş usta, istehsalat təlim ustası və texnoloq.

məşğulluq xidmətinin əməkdaşlarının peşəkar inkişafına investisiya qoymaq, onları hədəf qrupla əlaqə yaratmaq və tələbat və gözləntiləri şaxələndirmək işinə hazırlamaq tövsiyə olunur.

### Tövsiyə 6 - Orta təhsildə, xüsusilə də PTT sahəsində erkən karyera oriyentasiyasının keyfiyyətini və aktuallığını artırmaq

Avropa Təhsil Fondu (ETF) ümumtəhsil və peşə təhsili və təlimi (PTT) müəssisələrində erkən karyera oriyentasiyası və məsləhət xidmətlərinin keyfiyyətini və səmərəliliyini artırmağı, o cümlədən karyera oriyentasiyasını kurikulumlara daxil etməyi, tələbələrin ümumi müvəffəqiyyət göstəriciləri ilə əlaqələndirməyi və orta məktəblərdə karyera planlaşdırması ilə bağlı istiqamət verməyi tövsiyə edir. İşəgötürənlər və qeyri-hökumət təşkilatları (Peşə Təhsili üzrə Dövlət Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə yanaşı) peşələrin yaradılması və PTT-nin təbliği və karyera oriyentasiyasında iştirak etməlidirlər.

## Böyüklər üçün insan kapitalının inkişafı imkanlarını artırmaq

### Tövsiyə 7 - Yetkinlərin təhsil imkanlarının artırılmasını və yetkinlərin təhsildə iştirakına dair faktların toplanmasını prioritetləşdirmək

Avropa Təhsil Fondu (ETF) həyat boyu təhsil baxımından yetkinlərin təhsil imkanlarının genişləndirilməsini və məşğulluq imkanlarını yaxşılaşdırmaq, boşluqları aradan qaldırmaq və daha çox bərabərliyi təmin etmək məqsədilə iştirakla bağlı faktların toplanmasını prioritetləşdirməyi tövsiyə edir. Bu təkmilləşdirmə təhsilin məzmun və metodlarını, həmçinin onların əmək bazarının tələblərinə uyğunluğunu əhatə etməlidir.

Buraya dövlət təhsil müəssisələrinin yetkinlərin təhsili işinə cəlb edilməsinin intensivləşdirilməsi və özəl təhsil müəssisələrinin cəlb olunmasının daha yaxşı əlaqələndirilməsi aid edilə bilər. İnteraktiv və iştirak əsaslı metodların hazırlanması, xüsusən gənclərin təhsilə və ixtisaslara marağının artması baxımından məqsədəuyğun olardı.

# 1. GIRIŞ

## 1.1 Bu qiymətləndirmə haqqında

Azərbaycan hökumətinin əsas məqsədi iqtisadi şaxələndirməni sürətləndirmək, neft və qaz gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunda sürətli artımı təmin etmək, rəqabətliliyi və ixrac imkanlarını artırmaqdır. Azərbaycan hökuməti tərəfindən 2016-cı ilin dekabr ayında qəbul edilmiş Peşə Təhsili və Təlimi (VET) üzrə Strateji Yol Xəritəsində (2016–2025) peşə PTT-nin inkişafına dair qısa, orta və uzun müddətli baxış müəyyənləşdirilmişdir. Sistemi inkişaf etdirmək üçün kompleks mexanizmlərdə PTT-nin bir sıra aspektləri üzrə köklü dəyişikliklər həyata keçirmək (məsələn, PTT üçün yeni müsbət imic yaratmaq); dövlət-özəl tərəfdaşlığın yaxşılaşdırılmasına əsaslanmaqla PTT müəssisələri üçün idarəetmə strukturu yaratmaq; dövlət PTT müəssisələrinin səmərəli və optimallaşdırılmış şəbəkəsini yaratmaq; özəl sektor üçün PTT sisteminin cəlbediciliyini artırmaq; və PTT profillərində yüksək səviyyəli texnologiya ilə təchiz ediləcək 10 PTT məktəbi təsis etmək və qeydiyyatdan keçirmək məqsəd kimi qarşıya qoyulmuşdur.

Avropa İttifaqının (Aİ) Azərbaycana yardımının prioritet istiqamətlərdən biri ölkəyə işçi qüvvəsinin ixtisas göstəriciləri ilə işəgötürənlərin tələbatları arasında daha yaxşı uzlaşmaya kömək etmək məqsədilə xüsusilə PTT-yə diqqət yetirməklə ixtisasartırma imkanlarını dəstəkləməkdir. Azərbaycanda Aİ-nin insan kapitalının inkişafına xidmət edən mühüm proqramlarının icrası davam etməkdədir.

Aİ-nin 2014-cü il üzrə İllik Fəaliyyət Proqramı (AAP) özünün 19 milyon Avro ümumi büdcəsi ilə sektora töhfə veri. Proqramın məqsədləri ali təhsil və PTT sahələrinə diqqət yetirməklə təhsil sisteminin keyfiyyətini və aktuallığını, PTT-in bütün səviyyələrinin cəlbediciliyini və əmək bazarı ilə uyğunluğunu artırmaq və təhsil sistemində vətəndaş cəmiyyətinin iştirakını, idarəetmə və inklüzivliyi yaxşılaşdırmaqla əlaqədardır. Aİ-nin 2016-cı il üzrə İllik Fəaliyyət Proqramı (AAP) çərçivəsində isə işçi qüvvəsinin planlaşdırılması və ixtisaslarla bağlı proqnozlara dəstək məqsədilə 1,2 milyon avro vəsait ayrılacaq və həmin dəstək 2020-ci ilin əvvəlindən etibarən təmin edilməyə başlayacaqdır. Aİ-nin 2018-ci il üzrə İllik Fəaliyyət Proqramı (AAP) çərçivəsində Aİ-nin ümumi büdcəsi 14 milyon avro olan “Məşğulluq naminə Təhsil” proqramı hazırlanma mərhələsindədir.

Ölkənin İllik Fəaliyyət Proqramı (AAP) çərçivəsində “Məşğulluq naminə Təhsil” proqramının icrasına hazırlaşması Avropa Təhsil Fondunun (ETF) hazırkı qiymətləndirməsində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri kimi nəzərdən keçirilir. Azərbaycan çoxillik “Şərq Tərəfdaşlığı” (EaP) proqramında da iştirak edir. Birgə siyasət təşəbbüsü olaraq 2009-cu ildə elan edilmiş “Şərq Tərəfdaşlığı” (EaP) Aİ, üzv ölkələr və Aİ-nin altı şərq qonşusu: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukrayna arasında əlaqələri dərinləşdirmək və gücləndirmək məqsədi daşıyır. 2020-ci ilin may ayında bütün altı “Şərq Tərəfdaşlığı” (EaP) ölkəsi və Aİ sözü gedən təşəbbüsün üçüncü mərhələsinin icrasına başlayacaq və 2020-ci il üzrə 20 sənəd yenidən təhlil edilməklə yeni iddialı iş planı razılaşdırılacaqdır. Bu baxımdan Aİ ilə altı “Şərq Tərəfdaşlığı” (EaP) ölkəsi arasında əməkdaşlıq daha güclü iqtisadiyyat, daha səmərəli idarəetmə, daha sıx əlaqələr və daha möhkəm cəmiyyətlərə yönəldiləcəkdir.

Qiymətləndirmə prosesi standart anket sorğusuna verilmiş cavablarına əsaslanan geniş kabinet araşdırması mərhələsindən, Milli Hesabatlılıq Sistemindən (bundan sonra, Turin Prosesi üzrə Milli Hesabat) və sonradan Avropa Təhsil Fondunun (ETF) Azərbaycan üzrə məsul tematik qruplarla məsləhətləşmələr əsasında yekunlaşdırılmaqla hazırkı hesabatda müzakirə edilən ümumi mövzuları əhatə edən tematik sənədin hazırlanmasından ibarət olmuşdur. Avropa Təhsil Fondunun (ETF)

qiymətləndirməsinin ilkin variantı milli maraqlı tərəflərə və beynəlxalq tərəfdaşlara göndərilmiş və nəticələrin və tövsiyələrin təsdiqi məqsədilə məsləhətləşmə iclasında müzakirə edilmişdir.

Avropa Təhsil Fondunun (ETF) digər qiymətləndirmələri kimi, bu sənəd də hərtərəfli deyil. Milli hesabat insan kapitalının inkişafı və istifadəsi ilə bağlı geniş məsələləri əhatə edir, lakin əsas diqqət Avropa Təhsil Fondunun (ETF) prioritet məsələ kimi həll etməyi tövsiyə etdiyi problemlərə yönəldilmişdir.

## 1.2 Ölkə haqqında qısa məlumat

Azərbaycan Cənubi Qafqazda yerləşir. Ölkə bələdiyyələrə bölünmüş 63 rayon və 78 şəhərdən, habelə özünün ali məclisi, nazirlər kabineti və məhkəmə sistemi olan muxtar respublikadan ibarətdir. Ölkə ərazisi onuncusu Naxçıvan Muxtar Respublikası olmaqla doqquz iqtisadi regiona bölünmüşdür (qeyri-inzibati bölgü). 1994-cü ildən bəri ölkənin ümumi ərazisinin 20%-i Ermənistanın işğalı altındadır.

Ölkə zəngin təbii ehtiyatlara, xüsusilə də neft və qaz ehtiyatlarına malikdir. 2000-ci ildən sonra energetika sahəsində həyata keçirilmiş irimiqyaslı islahatları sürətli inkişaf üçün əlverişli imkanlar yaratmış və Dünya Bankının təsnifatına[2] görə Azərbaycanın orta səviyyədən yüksək gəlirli ölkəyə çevrilməsinə imkan vermişdir. Xüsusilə, 2005-ci ilin mayında Bakı-Tiflis-Ceyhan boru kəməri istismara verildikdən sonra ölkədə iqtisadi artım və yoxsulluğun azaldılması istiqamətində sürətli inkişaf qeydə alınmışdır ki, bu da əsasən enerji ixracatı sayəsində olmuşdur (bax. Cədvəl 1.1). Bununla belə, 2014-cü ildə neft qiymətlərinin aşağı düşməsi bank böhranı ilə birlikdə iqtisadi geriləməyə səbəb olmuş, yüksək inflyasiya tempinə, maliyyə sektorunun zəifləməsinə və 2015-ci ildə milli valyutanın iki dəfə devalvasiyasına səbəb olmuşdur. İqtisadiyyat 2017-ci ildə sabitləşmiş və ümum daxili məhsul (ÜDM) 2018-ci ildə 1,4%, 2019-cu ilin ilk yarısında isə 2,4% artmışdır (BVF, 2019). Hal-hazırda karbohidrogen sektoru ÜDM-nin 41%-ni, ixracın 92%-ni və fiskal gəlirlərinin 65%-ni təşkil edir (BVF, 2019).

**CƏDVƏL 1.1: AZƏRBAYCANLA BAĞLI RƏQƏMLƏR**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **ÜDM-in artım tempi (%, illik)** | 1.1 | -3.1 | -0.3 | 1.4 | 2.4* |
| **Yoxsulluq (əhalinin %-i)** | 4.9 | 5.9 | 5.4 | 5.1 | - |
| **“Ease of Doing Business” (tutduğu yer)** | - | 63 | 65 | 57 | 25 |
| **İnsan potensialının inkişaf indeksi (tutduğu yer)** | - | 78 | 78 | 80 | 87 |

Qeydlər: 2019-cu ilin ÜDM-in artım göstəriciləri ilin birinci yarısına aiddir; “Ease of Doing Business” reytinqi 190, İnsan potensialının inkişaf indeksi 189 ölkə üçün hesablanır.

Mənbələr: ÜDM və yoxsulluq səviyyəsi: Azərbaycanın illik statistik məcmuəsi, 2019. “Ease of Doing Business”: Dünya Bankının müxtəlif hesabatları (2016–2019). İnsan potensialının inkişaf indeksi: Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) müxtəlif hesabatları (2016-2019).

Ölkə üzrə son qiymətləndirmələrdə iqtisadi inklüzivliyin və tükənən karbohidrogen ehtiyatlarını gələcək nəsillərlə paylaşmağın vacibliyini vurğulanmışdır (BVF, 2019; AİB, 2019). Müvafiq siyasət təkliflərinə aşağıdakılar daxildir: (i) qeyri-neft sektoru vasitəsilə inklüziv, şaxələndirilmiş və özəl sektor sayəsində artımın təşviqi; (ii) dövlət maliyyə idarəçiliyinə və dövlət sektoruna və korporativ sektora dəstək

[2] Dünya Bankının Ölkə və Kredit Qruplarına dair məlumatları: https://datahelpdesk.worldbank.org/knowledgebase/articles/906519-world-bank-country-and-lending-groups giriş tarixi: 4 fevral 2020-ci il.

verməklə dövlət sektorunun səmərəliliyini artırmaq; və (iii) şaxələndirilmiş və daha rəqabətli iqtisadiyyat üçün infrastruktur və insan kapitalı investisiyalarını prioritetləşdirmək (AİB, 2019).

Azərbaycan artıma mane olan əngəlləri aradan qaldırmaq üçün biznes mühitində islahatlar aparır. Hökumətin səyləri Dünya Bankının “Doing Business 2019” hesabatının 2019-cu il buraxılışında (Təhsil və İslahatlar) qeyd olunmuşdur. Həmin hesabatda Azərbaycan qlobal miqyasda ən çox islahat həyata keçirən ilk 10 ölkənin siyahısında yer almış, 2018-ci ildə qərarlaşdığı 57-ci yerdən 25-ci yerə yüksəlmişdir (Dünya Bankı, 2018c). Bununla belə, 2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatında (The Global Competitiveness Report) Azərbaycan iqtisadiyyatı ümumi makroiqtisadi şərtlərin pisləşməsi səbəbindən (Dünya İqtisadi Forumu (WEF), 2017) 37-ci sıradan 69-cu sıraya enmişdir (137 iqtisadiyyat arasında).

2010-cu ildən etibarən Azərbaycan Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən insan potensialının inkişaf səviyyəsinin yüksək olduğu ölkələr sırasına daxil edilmişdir. İnsan potensialının inkişafı İndeksinə görə, 2019-cu ildə Azərbaycan 2007/2008-ci illərdə tutduğu 98-ci yerdən 87-ci yerə (189 ölkə arasında) yüksəlmişdir. Dünya Bankının bu yaxınlarda açıqladığı İnsan kapitalı İndeksinə[3] görə, Azərbaycan 157 ölkə arasında 69-cu yeri tutur və 2019-cu il üzrə Qlobal Rəqabətlilik İndeksinə görə, “ixtisaslar” göstəricisi (48-ci) üzrə qeyri-qənaətbəxş, xüsusilə də “fəal əhali üçün rəqəmsal texnologiyalarla işləmək bacarıqları” üzrə (19-cu) və “ixtisaslı kadrlar tapmağın asanlığı” üzrə (29-cu) 141 ölkə arasında 58-ci yerdədir (Schwab və Dünya İqtisadi Forumu (WEF), 2019).

## 1.3 Strateji məzmun

“Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında (2012) ölkənin biliklərə əsaslanan iqtisadiyyata çevrilmək, ölkənin rəqabət qabiliyyətini artırmaq və iqtisadi strukturu şaxələndirmək istiqamətində səy göstərdiyi vurğulanmışdır. Şaxələndirmə çağırışına cavab olaraq, hökumət qeyri-neft sektorunun rəqabətliliyini artırmaq məqsədilə iddialı islahat gündəliyinə start vermişdir. 2016-cı ildə Prezident 2016-2025-ci illər üzrə hədəflərin müəyyənləşdirildiyi milli iqtisadiyyat və əsas iqtisadi sektorlar üzrə 12 strateji yol xəritəsini təsdiq etmişdir. Həmin yol xəritələri kənd təsərrüfatı, sənaye, İKT (informasiya və kommunikasiya texnologiyaları) və turizm kimi bəzi aparıcı sahələri, eləcə də kiçik və orta sahibkarlığın (KOM) inkişafı, logistika və ticarət şəbəkələri, təhsil sisteminin modernləşdirilməsi kimi sahələrarası məsələləri əhatə edir. 2016-2020-ci illər üzrə müvafiq tədbirlər planları da qəbul edilmişdir. Bundan əlavə, 2018-ci ilin oktyabr ayında Azərbaycan Prezidenti BMT-nin Gənclər üçün Layiqli İş Təminatına dair Qlobal Təşəbbüsü ilə tam şəkildə uzlaşan 2017–2030-cu illər üzrə yeni Məşğulluq Strategiyasını təsdiq etmişdir.

Hökumət insan kapitalının inkişafının ölkənin neft və qaz gəlirlərindən asılılığının azaldılması və kənar təsirlərə davamlılığının gücləndirilməsinin zəruri şərti kimi vacibliyini qəbul edir. Hökumət milli təhsil sisteminin islahatı prosesinə sadiqdir və təhsili dövlət siyasətinin əsas prioritet sahələrindən biri elan etmişdir. Mühüm və daha uzunmüddətli məqsəd ölkənin təhsil siyasətlərini dəyişən demoqrafik göstəricilərlə, 21-ci əsrdə rəqabət aparmaq üçün tələb olunan ixtisaslarla və maliyyə qaynaqlarının səmərəli və məqsədəuyğun şəkildə bölüşdürülməsi ilə uzlaşdırmaqdan ibarətdir.

---

[3] İnsan kapitalı indeksi səhiyyə və təhsilin gələcək kadrların məhsuldarlığına verdiyi töhfənin kəmiyyətini müəyyənləşdirir. Ölkələr insan kapitalı indeksindən insan kapitalındakı boşluqlar səbəbindən nə qədər gəlirdən məhrum olduqlarını və əgər təxirəsalınmaz tədbirlər görülərsə həmin itkiləri nə qədər daha sürətlə mənfəətə çevirə biləcəklərini qiymətləndirmək məqsədilə istifadə edə bilərlər. İnsan Kapitalı Layihəsi haqqında daha ətraflı məlumat üçün, bax: https://www.worldbank.org/en/publication/human-capital.

Telekommunikasiya və İnformasiya Texnologiyalarının İnkişafına dair Strateji Yol Xəritəsində rəqəmsal texnologiyalarla bağlı ixtisasların informasiya iqtisadiyyatı üçün əhəmiyyəti qeyd olunmuşdur. Qeyd olunan yol xəritəsində məktəbləri "elektron məktəblərə" çevirmək (məsələn, elektron kitablar, elektron seminarlar, sərbəst şəkildə əldə oluna bilən tədris materialları, distant təhsil və internet vasitəsilə imtahanlar), müəllimlərin rəqəmsal texnologiyaların sürətli təkamülü ilə ayaqlaşması üçün davamlı İKT kursları təşkil etmək, məzunların və müəllimlərin İKT bacarıqlarının qiymətləndirilməsini yaxşılaşdırmaq nəzərdə tutulur.

Təhsilin İnkişafı üzrə Milli Strategiyada (2013) səriştəyə əsaslanan təhsil, dövlət-özəl tərəfdaşlığa əsaslanan idarəetmə mexanizmləri, həyat boyu təhsil (LLL), müasir təhsil infrastrukturu və dayanıqlı maliyyələşdirmə mexanizmləri ilə bağlı uzunmüddətli konsepsiya müəyyənləşdirilmişdir. Azərbaycanda Təhsilin İnkişafına dair Dövlət Strategiyasının həyata keçirilməsi üçün tədbirlər planında təhsil sahəsində digər konkret tədbirlər müəyyən edilmişdir. Hökumətin 2018-ci il üzrə islahat gündəliyində institusional mexanizmlərin yaxşılaşdırılması, təhsil sisteminin modernləşdirilməsi və sosial xidmətlərin təkmilləşdirilməsi əsas məsələlər kimi vurğulanmışdır.

Əmək bazarında getdikcə daha çox şaxələnən və ixtisaslı işçi qüvvəsinə tələbatı ödəməli olan təhsil və spesifik PTT sisteminə xüsusi diqqət yetirilir. Yeni istehsal sahələrinin yaradılmasının yeni ixtisaslara və müasir əmək bazarının tələblərinə cavab verən ixtisaslı işçi qüvvəsinə tələbatı artıracağı gözlənilir. Beləliklə, PTT sektoru digər sektorların tam potensialının reallaşmasında mühüm rol oynadığından, həmin sektorlar üçün müəyyən edilmiş prioritetlərlə əlaqəlidir. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, iqtisadiyyatın dinamik inkişafı, həyatın hər sahəsində yeni texnika və texnologiyaların geniş tətbiqi və yeni istehsal metodlarının yaranması orta ixtisaslı işçi qüvvəsinə tələbatı artırır.

Yuxarıda qeyd edilənlərlə əlaqədar olaraq, Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri Strategiyasına[4] qoşulmuşdur. Dünyamızın dəyişdirilməsi: Dayanıqlı İnkişaf sahəsində 2030-ci ilədək Gündəliyə[5][6] daxil edilmiş 17 məqsəd və 169 hədəfi həyata keçirmək üçün milli icra və hesabatlılıq mexanizmi formalaşdırılmışdır.

Nəhayət, Aİ-nin Azərbaycanla əlaqələri 1999-cu ildən etibarən qüvvəyə minmiş Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsaslanır. 2017-ci ilin fevral ayında Aİ və Azərbaycan siyasi dialoqa və qarşılıqlı faydalı əməkdaşlığa yeni təkan vermək məqsədilə yeni çərçivə sazişi üzrə danışıqlara başlamışlar. Danışıqlar hələ yekunlaşmamışdır.

Aİ-nin Azərbaycanla əməkdaşlığı ölkənin islahat proqramını, xüsusən iqtisadi şaxələndirmə, dayanıqlı artım və sosial inkişaf, qabaqcıl idarəetmə və qanunun aliliyi sahələrində və əlaqələrin, mobilliyin və xalqlar insanlarla təmasların yaxşılaşdırılması baxımından ölkənin islahat gündəliyinə dəstək vermək məqsədi daşıyır. Bu kontekstdə işçi qüvvəsinin ixtisas göstəriciləri ilə işəgötürənlərin tələbatları arasında daha yaxşı uzlaşmaya nail olmağa kömək edən PTT sektoruna xüsusi diqqət yetirməklə

---

[4] Daha ətraflı məlumat üçün, bax: Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədlərinə dair Milli İnformasiya Portalı: http://sdg.azstat.org:8484/en/about.

[5] Bax: Azərbaycan Respublikası Prezidentinin 1066 saylı Fərmanı: www.e-qanun.az/framework/33838 (Azərbaycan dilində).

[6] Bax: "Dünyamızın dəyişdirilməsi: Dayanıqlı İnkişaf sahəsində 2030-ci ilədək Gündəliyin" icrası ilə bağlı Azərbaycan Respublikasının "İKİNCİ KÖNÜLLÜ MİLLİ İCMALI" https://sustainabledevelopment.un.org/content/documents/23411AZERBAIJAN_VNR_Report.pdf, giriş tarixi: 4 mart 2020-ci il.

ixtisas göstəricilərinin yaxşılaşdırılmasına dəstək Aİ-nin Azərbaycana yardımının prioritet istiqamətlərindən biridir.

# 2. İNSAN KAPİTALI: İNKIŞAF VƏ PROBLEMLƏR

Azərbaycanın milli inkişaf strategiyası ölkənin neft və qaz gəlirlərindən asılılığını azaltmaq və şaxələndirilmiş insan kapitalı, fiziki infrastruktur və daha güclü institutlara sərmayə qoymaqla kənar təsirlərə davamlılığını gücləndirmək məqsədi daşıyır. Qeyri-neft sektorunu inkişaf etdirməklə iqtisadiyyatın şaxələndirilməsi prioritet hədəf kimi qarşıya qoyulmuşdur. Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı ölkə iqtisadiyyatının balanslaşdırılmış inkişafını təmin etməklə rəqabətyönümlü istehsal infrastrukturu ilə bağlı müasir tələblərə cavab verən sənaye parkları və məhəllələri yaratmaq məqsədi daşıyır. İnnovativ idarəetmə və müasir texnologiyaların tətbiqi, yeni istehsal sahələrinin yaradılması və işsizliyin azaldılması əsas prioritetlərdəndir. Bu kontekstdə insan kapitalı çiçəklənən, innovativ və inklüziv cəmiyyətin formalaşdırılmasında əsas amilə çevrilir.

Bu fəsildə Azərbaycanda insan kapitalının inkişafı və istifadəsi ilə bağlı çətinliklərin qısa icmalı verilmişdir.

## 2.1 İnsan kapitalının inkişaf göstəriciləri

Cədvəl 2.1-dəki göstəricilər Azərbaycanın insan kapitalının əsas xüsusiyyətlərini əks etdirir. Göstəricilər davamlı və həyat boyu inkişaf potensialını nümayiş etdirməklə qənaətbəxş insan kapitalı səviyyəsini göstərir.

### CƏDVƏL 2.1: AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAF GÖSTƏRİCİLƏRİ

| | İl | Göstərici |
|---|---|---|
| **(1) Əhalinin strukturu (%)** | | |
| **0–24** | 2015 | 39.7 |
| **25–64** | | 54.6 |
| **65+** | | 5.7 |
| **0–24** | 2025 | 35.3 |
| **25–64** | | 55.7 |
| **65+** | | 9.0 |
| **(2) Məktəb təhsilinin orta davametmə müddəti** | 2017 | 10.7 |
| **(3) Məktəb təhsilinin gözlənilən davametmə müddəti** | 2017 | 12.7 |
| **(4) Məktəb təhsilinin mənimsəmə səviyyəsi ilə uzlaşdırılması** | 2017 | 8.7 |
| **(5) Yetkinlərin savadlılığı** | 2015 | 99.8 |
| **(6) Qlobal İnnovasiya İndeksi reytinqi (x/126)** | 2018 | 82.0 |
| **(7) Qlobal Rəqabətlilik İndeksi reytinqi (x/137)** | 2017–18 | 35.0 |
| **(8) Rəqəmsal Hazırlıq İndeksi reytinqi (x/118)** | 2019 | 12.77 |

Mənbələr: (1) BMT-nin Əhali Bölməsi, Dünyanın Demoqrafik perspektivləri - 2017-ci il nəşri; (2) UNESCO-nun Statistika İnstitutunun (UIS) məlumat bazası; (3) və (4) Dünya Bankı (2018), İnsan kapitalı indeksi; (5) UNESCO-nun Statistika İnstitutunun (UIS) məlumat bazası; (6) Dünya İqtisadi Forumu (WEF), Qlobal İnnovasiya İndeksi, 2018; (7) Dünya İqtisadi Forumu (WEF), Qlobal Rəqabətlilik İndeksi 4.0, 2018; (8) "Cisco" şirkəti, Ölkə üzrə Rəqəmsal Hazırlıq reytinqi, 2018.

Göstərici 1 Azərbaycan əhalisinin gənc olduğunu göstərir.

2 ilə 4 arasındakı göstəricilər orta hesabla gözlənilən və ya planlaşdırılan illərin sayından aşağı olduğu məlum olan məktəb illərini ifadə edir. Göstərici 5 Azərbaycanda yetkinlərin savadlılığının demək olar ki, universal olmağa davam etdiyini göstərir.

6 ilə 8 arasındakı göstəricilər ölkənin innovasiya, rəqabətlilik və rəqəmsal hazırlıq üzrə qlobal reytinqini ifadə edir. Onlar insan kapitalının hazırkı istifadəsini ifadə etməklə insan kapitalı ilə əlaqəlidirlər.

## 2.2 İnsan kapitalı demokratik problemlər kontekstində

### Əmək qabiliyyətli əhali arasında gənclərin payının yüksək olması

2019-cu ilin əvvəlində Azərbaycan əhalisinin sayı 9,898,000 nəfər təşkil etmişdir. 2006-cı ildən 2018-ci ilədək olan dövrdə əhalinin orta illik artım tempi təxminən 1,3% təşkil etmişdir ki, bu da Avropada ən yüksək göstəricilərdən biridir.

**CƏDVƏL 2.2: AZƏRBAYCANIN ƏHALİSİ, 2010-CU ILDƏN 2018-CI İLƏDƏK**

| ƏHALİ | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 8997586 | 9111078 | 9235085 | 9356483 | 9477119 | 9593038 | 9705643 | 9809981 | 9898085 |
| Kişi | 4455503 | 4517055 | 4583484 | 4648793 | 4713548 | 4775857 | 4835641 | 4891210 | 4938027 |
| Qadın | 4542083 | 4594023 | 4651601 | 4707690 | 4763571 | 4817181 | 4870002 | 4918771 | 4960058 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (alınan məlumatlar)

Hazırda Azərbaycan Avropanın gənc yaş strukturuna malik olan ölkələrindən biridir. 0-14 yaş arası əhalinin payı 2010-cu ildə 28,7% təşkil etdiyi halda, 2018-ci ildə 20.7%-ə düşmüş, 15-64 yaş qrupu isə qeyd olunan dövrdə 65,8%-dən 70,9%-ə yüksəlmişdir. 14-29 yaş arası gənclər ölkə əhalisinin 25,5%-ni təşkil edir. 2003-cü illə müqayisədə, 2018-ci ildə 65 yaşdan yuxarı insanların payı 6,0%-dən 6,6%-ə yüksəlmişdir.

**ŞƏKİL 2.1: GƏNC ƏHALİNİN NİSBİ PAYI (%)**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (alınan məlumatlar)

2018-ci ildə ümumi əhalinin 20,7%-i 0-14 yaş qrupuna mənsub olmuşdur. Gənc insanların payının yüksək olması onların əmək qabiliyyətli əhali qrupundakı payının artmasında özünü büruzə verir və bu tendensiya bir neçə il davam edəcəkdir. Gənc əhalinin nisbi payı bütün əmək qabiliyyətli əhalinin payına nisbətən əmək bazarına yeni daxil olanların potensial qrupunun ölçüsünü müəyyənləşdirməyə imkan verir. Bu, həm də gənclərin müvafiq ixtisaslara yiyələnməsi üçün təhsil və təlim sistemi ilə əlaqədar ölkənin qarşısında duran problemlərin miqyasını göstərir. 2017-2025-ci illər arasında hər il 125200 nəfərin əmək bazarına daxil olacağı gözlənilir ki, bu da bir ildə yaradılan iş yerlərinin sayından demək olar ki, 2,5 dəfə çoxdur (Salmanova, 2017).

## Rəqabətli əmək bazarında kənd-şəhər miqrasiyası və ixtisas problemləri

Əhalinin 52,9%-i şəhər yerlərində, 47,1%-i isə kənd yerlərində yaşayır. 2000-2017 illər arasında şəhər əhalisi 26,58%, kənd əhalisi isə 17,46% artmışdır ki, bu da urbanizasiyanın sürətləndiyini göstərir. Lakin bu proses eyni formalı proses deyil. Abşeron və Bakı əsasən şəhərləşmiş ərazilərdir, digər iqtisadi rayonlar isə əsasən kənd əraziləridir. Kənd miqrantlarının xeyli hissəsi Bakı, Sumqayıt və Gəncə kimi böyük şəhərlərdə məskunlaşmışlar. Hazırda şəhər əhalisinin demək olar ki, yarısı Bakıda yaşayır ki, bu da əhalinin sıxlığının həddən artıq yüksək olması, ətraf mühitin deqradasiyaya uğraması, basırıq, tıxaclar, işsizlik, çirklənmə və su təchizatı və kanalizasiya sistemləri ilə bağlı çətinliklər kimi mənfi fəsadlar törədir. Bakı Şəhəri Statistika İdarəsinin məlumatına görə, Bakı şəhərində 2,249,500 nəfər əhali yaşayır ki, bu da ölkədə ən yüksək əhali sıxlığı göstəricisidir: hər kvadrat kilometrə 1,051 nəfər (Ələkbərov, 2017).

Digər inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, Azərbaycanda da kənd-şəhər miqrasiyası paytaxt Bakı şəhərinin və şəhərətrafı ərazilərdə (Abşeronun paytaxta yaxın kənd və qəsəbələrində) əhalinin sıxlığının həddən artıq yüksəlməsinə səbəb olmuşdur. Tənəzzülə uğramış iqtisadiyyat və yaşayış səviyyəsinin aşağı olması kənd sakinlərini Bakıya (neft sənayesinin mərkəzinə) və ya Abşerona (yaşayış xərclərini nisbətən daha az olması, lakin Bakı ilə coğrafi yaxınlığı olması səbəbindən) axın etməyə vadar edir. Əhalinin sıxlığının həddən artıq yüksək olması icmaların və sakinlərin çoxunun dolanışıq səviyyəsinə təsir göstərir. Son illərdə yalnız Bakı və Abşeronda müsbət xalis miqrasiya, digər bölgələrdə (əsasən kənd ərazilərində) mənfi miqrasiya tendensiyası qeydə alınmaqdadır. İnsanlar ən çox Lənkəran və Aran bölgələrindən miqrasiya etmişlər. Həmin bölgələrdə kənd sakinlərinin payı

müvafiq olaraq 75% və 60% təşkil edir. Bu iki bölgədə ölkə üzrə orta göstəricilərə nisbətən doğum nisbəti daha yüksəkdir ki, bu da işçi qüvvəsində əlavə profisit yaradır (Sadıqov, 2013).

Bakıda məskunlaşdıqdan sonra kənd miqrantları elədə çox şey təklif edə bilmədikləri (təhsil səviyyələrinin aşağı olması və ixtisaslarının olmaması səbəbindən) yüksək rəqabətli əmək bazarı ilə qarşılaşırlar. Paytaxtın əmək bazarında daha aşağı ixtisaslı iş yerlərinə rəqabətin artması şəraitində kənd miqrantları adətən pərakəndə satıcı, fəhlə taksi sürücüsü, ofisiant və qabyuyan kimi aşağı ixtisaslı işlərdə yarımştat, mövsümi, qısamüddətli işlər tapırlar (Sadıqov, 2013).

1990-cı illərdə ölkə iqtisadiyyatının bazarlaşması və daha çox minlərlə kənd miqrantı və qaçqın axınının səbəb olduğu dəyişən şəhər demoqrafiyası şəhərin sosial coğrafiyasını alt-üst etdi və şəhərin həm mərkəzi, həm də kənar rayonlarının xarakterini yenidən formalaşdırdı. Bakının 11 inzibati rayonu ölkə ərazisinin yalnız 4%-ni əhatə edir. Halbuki hazırda iqtisadi fəal əhalinin 30,6%-i bu ərazidə məskunlaşıb və ölkənin ÜDM-nin 76,8%-i məhz həmin ərzinin payına düşür (bunun da 75,6%-i “Bakının özündə” cəmlənmişdir). 2017-ci ildə, milli gəlirin 85-90%-i “Böyük Bakı” ərazisinin payına düşürdü (DSK, 2018; Vəliyev və Wallwork, 2019).

## PTT müəssisələri və məcburi köçkünlər

1980-ci illərin sonunda keçmiş Sovet İttifaqının dağılması ərəfəsində 250 mindən çox etnik azərbaycanlı Ermənistandan deportasiya edildi. Azərbaycan 1990-cı illərin əvvəllərində siyasi və iqtisadi böhran səbəbindən miqrasiya problemləri ilə üzləşdi. Ərazisinin 20%-nin Ermənistan tərəfindən işğal edilməsi və bunun nəticəsində bir milyon qaçqın və məcburi köçkünün yaranması iqtisadiyyata böyük təsir göstərdi. Hal-hazırda, Azərbaycanda Dağlıq Qarabağ məsələsində Ermənistanla 30 illik münaqişə səbəbindən çox sayda məcburi köçkün vardır. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən verilən rəsmi statistik məlumatlara görə məcburi köçkünlərin sayı 789,000, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) məlumatına görə isə 2016-cı ildə məcburi köçkünlərin sayı təxminən 613,000 nəfər olmuşdur. Daha 68,000 nəfər 2009-cu ildən bəri təbii fəlakətlər səbəbindən məcburi köçkünə çevrilmişdir. Digər ölkələrdən gələn qaçqın axını artsa da, regiondakı digər ölkələrə nisbətən aşağı olaraq qalmaqdadır.

Peşə təhsili əsasən bəzi qaçqın və məcburi köçkünlərin peşə təhsili müəssisələrinin yataqxana və qurğularında məskunlaşması ilə əlaqədar təsirə məruz qalmışdır. Azərbaycan ərazisində 31 PTT müəssisəsində 7000-ə yaxın insan məskunlaşmışdır (Kazımov və Avropa Təhsil Fondu (ETF), Turin Prosesinə dair Milli Hesabat).

## İnsan kapitalının miqrasiyası

Sovet İttifaqının süqutundan sonra, yeni sosial və iqtisadi sistemlərə keçid dövründə Azərbaycan vətəndaşlarının kütləvi mühacirəti baş vermiş və bu da əmək bazarında gərginliyə səbəb olmuşdur. Son on ildə daha çox sosial-iqtisadi inkişaf və yaşayış səviyyəsinin yaxşılaşması nəticəsində kütləvi miqrasiyanı intensivliyi azalmış, lakin beyin axını (yəni ali təhsilli və ya ixtisaslı insanların başqa ölkələrə miqrasiyası) əmək bazarına təsir göstərmiş və növbəti illərdə daha böyük çətinliklərə rəvac vermişdir. Ümumiyyətlə, Avropa Azərbaycandan gələn miqrantlar üçün getdikcə daha çox cəlbedici təyinat yerinə çevrilməkdədir - hazırda Aİ-də ən azı 42000 azərbaycanlı yaşayır, baxmayaraq ki, Rusiya Federasiyası həm əsas təyinat, həm də mənşə ölkəsi olaraq qalır (miqrantların və geri dönən miqrantların). Hazırkı hesabat üçün toplanmış məlumatlara əsasən, Azərbaycandan ümumi xalis emiqrasiya saldosu hələ də mənfidir.

2018-ci ildə 44 mindən çox əcnəbi Azərbaycan ərazisinə köçmüşdür. Onlardan 26000-dən çoxu kişilər, 18000 nəfəri isə qadınlar olmuşdur. Ölkədə yaşayan əcnəbilərin böyük əksəriyyətini 19-35 yaş arasında (43%) və 36-60 (37%) arasında olan şəxs təşkil edir (Kazımov və Avropa Təhsil Fondu (ETF)). Azərbaycana qısa müddətə gələn miqrantların sayı artmaqdadır: 2016-cı ildə 48500, 2015-ci ildə isə 54000 müvəqqəti yaşayış icazəsi əsasən Türkiyə, Rusiya Federasiyası və Gürcüstan vətəndaşlarına verilmişdir. Daimi yaşayış icazələri yalnız ölkə ərazisində ən azı iki il yaşadıqdan sonra verilə bilər. Bu icazələrin 3200-dən çoxu 2016-cı ildə verilmişdir (Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (ICMPD), 2018).

2018-ci ildə Azərbaycanın İnsan İnkişafı İndeksi 0,75 olmuşdur ki, bu da 1999-cu ildəki 0,63 göstəricisinin yüksəlməsi və orta hesabla illik 0,92% artması deməkdir.

## 2.3 Dəyişən əmək bazarı kontekstində insan kapitalı

### İşsizlik səviyyəsi "Şərq Tərəfdaşlığı" (EaP) ölkələri arasında ən aşağı yerlərdən birini tutur.

Azərbaycanın əmək bazarı bir sıra müsbət xüsusiyyətə malik olsa da, bir sıra problemlərlə də üzləşir. Müsbət xüsusiyyətlər iqtisadi fəallıq səviyyəsinin nisbətən yüksək olması, işsizlik səviyyəsinin aşağı olması və yüksək çeviklikdir. Aktivlik səviyyəsi kişilər və qadınlar arasında fərqli olmaqla (müvafiq olaraq 78,2% və 63,8%) 2018-ci ildə 70,5%-ə çatmış (2013-cü ildə 68,4%), və "Şərq Tərəfdaşlığı" (EAP) ölkələri arasında ən yüksək göstəricilərdən biridir. Məşğulluq səviyyəsi 2018-ci ildə 67,0% təşkil etməklə qadınlara (60,1%) nisbətən kişilərdə (75,0%) xeyli yüksək olmuşdur. Ümumi işsizlik səviyyəsi 2018-ci ildə 4,9% təşkil etməklə aşağı olmuş, 2017-ci ildə qeydə alınmış 5,0%-dən bir qədər aşağı düşmüşdür. Bu göstərici qadınlar (5,8%) arasında kişilərdən (4,1%) daha yüksəkdir.

**ŞƏKİL 2.2: AKTİVLİK SƏVİYYƏSİ (2018) (%)**




Son bazaryönümlü islahatlar və iqtisadiyyatdakı struktur dəyişiklikləri nəticəsində özəl sektorda işləyənlərin payı artmışdır. Məşğulluq strukturunun mühüm xüsusiyyətlərindən biri 2000-ci ildən bəri nəzərə çarpan dərəcədə artaraq 2018-ci ildə 68.3%-ə çatmış yüksək özünüməşğulluq səviyyəsidir. Özünüməşğulluq bütün sahələrdə, xüsusilə kənd təsərrüfatı və tikinti sektorlarında artmışdır. Bundan əlavə, əsasən kənd təsərrüfatında, eyni zamanda nəqliyyat, istehsal, ticarət və tikinti kimi digər sahələrdə də qeyri-formal məşğulluq nisbəti yüksəkdir. Qeyri-sabit məşğulluq səviyyəsi də yüksəkdir. 2018-ci ildə bu göstərici 55,2% təşkil etmişdir və Şərq Tərəfdaşlığı (EaP) ölkələrində ən yüksək göstəricilərdən biridir.

### Gənclər arasında işsizlik səviyyəsi ümumi işsizlikdən qat-qat yüksəkdir

Azərbaycanda gənclərin əmək bazarındakı fəaliyyətinə yaxından nəzər saldıqda mühüm nəticələr əldə etmək olar. Son on ildə hökumətin gənclərin əmək bazarında fəal iştirakını dəstəkləmək üçün siyasət prinsipləri həyata keçirməsinə, gənclər arasında işsizliklə bağlı nəzərə çarpan irəliləyişlərin müşahidə olunmasına baxmayaraq, gənclər arasında işsizlik səviyyəsi ümumi işsizliyə nisbətən hələ də yüksək olaraq qalır. Misal üçün, gənclər arasında işsizlik səviyyəsi 2013-cü ildəki 13,7%-dən 2018-ci ildə 12,7%-ə enmişdir. Bununla belə, gənclərin 12,7%-nin işsiz olması 2018-ci ildəki 4,9% ümumi işsizlik səviyyəsindən demək olar ki, 2,6 dəfə çoxdur. Gənclər arasında işsizlik qadınlar arasında kişilərə

nisbətən daha yüksəkdir (2018-ci ildə müvafiq olaraq 14,7% və 11%) və gənc qadınlar kişilərə nisbətən qeyri-formal və az ödənişli işlərdən daha çox zərər çəkirlər. Ümumi işsizliklə müqayisədə gənclər arasında yüksək işsizlik səviyyəsi məhdud iş imkanları, iş təcrübəsinin olmaması və nisbətən yüksək minimum əmək haqqı tələbi (yəni işçinin qəbul etməyə hazır olduğu ən aşağı əmək haqqı) ilə izah edilə bilər. Təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan (NEETs) gənclərin də faizi yüksəkdir və 2017-ci ildə 23%-ə çatmışdır.

**ŞƏKİL 2.3: 15-24 YAŞLI GƏNCLƏRİN AKTİVLİK GÖSTƏRİCİLƏRİ (%)**




İqtisadi cəhətdən aktiv gənclərin təqribən 91%-nin orta və ya ali təhsili olsa da, onların çoxu fərqli ixtisas səviyyəsi və profili tələb edən işlərdə çalışırlar. Gənclərin dörddə birindən çoxu istehsalatda, təxminən 20%-i İKT sahəsində, həmçinin kənd təsərrüfatı və nəqliyyat sahələrində çalışırlar. Gənclərin əmək fəaliyyətinə başlaması ilə bağlı çətinliklər hələ də mövcuddur. Əmək fəaliyyətinə başlamağın orta müddəti barədə məlumatlar olmasa da, məzunlar iş tapmaq üçün mübarizə aparırlar. 2016-cı ildə keçirilmiş sorğuya əsasən, işləyən gənclərin üçdə birindən çoxu işlərini vasitəçilər, 30%-i isə elan edilmiş vakansiyalar vasitəsilə tapdılar; işləyən gənclərin yalnız 8,4%-i Dövlət Məşğulluq Xidməti vasitəsilə iş tapırlar. 15-24 yaşlı işsiz şəxslərin sayını eyni yaş qrupundakı ümumi əhali sayına bölməklə hesablanan gənclərin işsizlik səviyyəsi 2018-ci ildə 5,6% təşkil etmiş və 2010-cu ildən etibarən artmaqdadır. Bu da işsiz olan gənclər və onların bacarıqlarının qeyri-kafi istifadəsi ilə bağlı ümumi ehtimalın göstəricisidir.

## İxtisas uyğunsuzluğu gənclərə və böyüklərə təsir göstərir

İxtisas və bacarıqların uyğunsuzluğu bir çox gəncə təsir göstərir və keyfiyyətli təkmilləşdirmə və ixtisasartırma imkanları, habelə praktik təcrübə qazanmaq üçün təcrübə keçmək imkanları nisbətən azdır. İxtisas uyğunsuzluğu, Dövlət Statistika Komitəsi (DSK) tərəfindən aparılan araşdırmaya əsasən, işlə təmin olunan gənclərin 44%-dən çoxuna (15-29 yaş) təsir göstərir. Belə ki, qeyd olunan yaş qrupuna daxil olan gənclərin 37%-i öz ixtisasına uyğun olmayan işlərdə, 7%-i qismən uyğun işlərdə çalışırlar. Keçirilmiş sorğu nəticəsində bunun səbəbləri müəyyən edilmişdir: gənclərin 30%-i özünüməşğulluq sahəsində çalışırlar və kiçik müəssisələri vardır; 19% onların ixtisasları ilə bağlı məhdud tələblərin olduğunu qeyd edirlər; 25%-dən çoxu isə cəlbedici iş şəraitinin olmamasını və aşağı əmək haqqı ilə işlədiklərini bildirirlər. Digər bir araşdırma (Dünya Bankının "STEP" Sorğusu, 2013)

çərçivəsində işəgötürənlərin ixtisas uyğunsuzluğu məsələsi ilə bağlı mövqeyi təhlil edilmiş və işəgötürənlərin təhsil sistemi ilə əlaqəli problemlər səbəbindən lazımi ixtisas bacarıqları olan işçilər tapa bilmədikləri qənaətinə gəlinmişdir. İşəgötürənlər gənclərin texniki bacarıqlarının zəifliyi, eyni zamanda savadlılıq, problem həll etmə, ünsiyyət və komanda işi də daxil olmaqla koqnitiv bacarıqları və sosial-davranış bacarıqları ilə bağlı narazılıq bildirmişlər.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində 2016-cı illə əlaqədar dərc olunmuş məlumata əsasən, kiçik müəssisələrin və fərdi sahibkarların ÜDM-ə töhfəsi məhduddur. Qeydiyyata alınan bütün hüquqi şəxslərin 12%-ni KOM-lar təşkil etsə də, onların ÜDM-dəki payı 4%, məşğulluğa verdikləri töhfə 6,3%, malların istehsalı və xidmətlərin təchizatına verdikləri töhfə 9,6%-dir.

İşəgötürənlər tələb olunan bacarıqlara malik işçilər tapmağın çətin olduğunu bildirirlər. Çatışmazlıq daha qabaqcıl ixtisas göstəriciləri tələb edən müasir, innovativ firmaların nümunəsində daha aydın görünür. İşəgötürənlər təkcə texniki, işlə bağlı spesifik bacarıqlara deyil, həm də koqnitiv bacarıqlarını (savadlılıq, riyazi savad və problem həll etmə) və adekvat sosial-davranış, kommunikasiya bacarıqlara (ünsiyyət, komanda işi, liderlik və müstəqil işləmək bacarığı kimi) da dəyər verirlər (Bayramlı və digərləri, 2019). Tələbələr arasında bu bacarıqların inkişaf etdirilməsi Azərbaycanın təhsil sistemi qarşısında duran başlıca problemlərdən biridir və ixtisas boşluğunu aradan qaldırmaq baxımından vacibdir. Əmək bazarı iştirakçılarına (təhsil və təlim müəssisələri, tələbələr, iş axtaranlar, işəgötürənlər və dövlət məşğulluq xidmətləri) məlumatlılıq əsasında seçim etməkdə kömək edən əmək bazarı məlumatları sistemi mövcud deyil. Bundan əlavə, təhsil sistemini əmək bazarı ilə daha çox uzlaşdırmaq üçün təhsil müəssisələri ilə işəgötürənlər arasında sistemli tərəfdaşlığın gücləndirilməsi tələb olunur.

İxtisas uyğunsuzluğu getdikcə daha aktual problemə çevrilir; müəssisələr qeyri-qənaətbəxş təhsil keyfiyyətlərinə malik işçi qüvvəsinin onların fəaliyyətlərinə maneə olduğunu bildirirlər. Azərbaycanın 2019-cu il üzrə Biznes Mühiti Sorğusu[7] ardıcıl dördüncü ildir ki, ixtisaslı işçilərin çatışmazlığının Azərbaycanda fəaliyyət göstərən Aİ müəssisələri üçün getdikcə daha çox ciddi problemlər yaratdığını bildirirlər. İxtisaslı işçilərin mövcudluğunu qənaətbəxş hesab edən respondentlərin sayı 2018-ci ildəki 31%-dən azalaraq 2019-cu ildə 21% təşkil etmişdir. Bir çox Aİ müəssisələri akademik təhsilin və peşə təhsili keyfiyyətindən narazıdır; 45% peşə təhsilini qeyri-qənaətbəxş hesab edir. Ən çox ifadə olunan narahatlıqlar praktiki və müasir metodların olmaması və təhsil sistemində rəqəmsallaşmanın aşağı səviyyədə olması ilə bağlıdır (Bayramlı və digərləri, 2019).

[7] İllik Biznes İqlimi Sorğusu Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirlərini əks etdirir. Sorğu Alman-Azərbaycan Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Aİ-nin Azərbaycandakı nümayəndəliyinin maliyyə və texniki dəstəyi ilə həyata keçirilir. 2019-cu ildə etibarlı və statistik cəhətdən əhəmiyyətli nümunə üçün verilmiş 130 cavab seçilmişdir. Respondentlər 16 sektoru təmsil etmişlər. Aİ-nin 10 sektoru təmsil edən müəssisələrinin iyirmi əməkdaşı ilə fərdi müsahibələr təşkil edilmişdir.

## 2.4 İnsan kapitalı və təhsil və təlim

### Təhsil səviyyəsinin yaxşılaşdırılması

Son illər Azərbaycan bir sıra təhsil göstəriciləri üzrə dayanıqlı irəliləyişlərə nail olmaqdadır. Ölkədə savadlılıq səviyyəsi yüksəkdir: 2016-cı ildə savadlılıq səviyyəsi böyüklər arasında 99,79%, gənclər arasında isə 99,94% təşkil etmiş və demək olar ki, bütün vətəndaşlar ibtidai təhsil almış (2016-cı ildə xalis təhsil göstəricisi 94,93% təşkil etmişdir) və ibtidai təhsildən orta təhsilə keçid göstəricisi 99,42% olmaqla orta məktəb təhsili üzrə yüksək göstərici qeydə alınmışdır;

**CƏDVƏL 2.3: 15 YAŞDAN YUXARI AKTİV ƏHALİNİN TƏHSİL SƏVİYYƏSİ (%)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| İbtidai | 7.4 | 7.0 | 7.4 | 7.5 | 7.5 | 7.7 | 7.1 |
| Orta | 76.3 | 76.7 | 76.4 | 76.2 | 76.2 | 75.9 | 76.4 |
| Yüksək | 16.3 | 16.2 | 16.3 | 16.3 | 16.3 | 16.4 | 16.6 |
| PTT | 15.8 | 15.8 | 16.0 | 16.2 | 16.2 | 16.3 | 16.6 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (alınan məlumatlar)

2018/2019-cu tədris ilində ölkədə tələbələrin ümumi sayı artaraq 1,97 milyona çatmışdır. Onların əksəriyyəti (1,52 milyon) ümumi təhsil sistemində təhsil almışlar. 171154 tələbə peşə təhsili,51806 tələbə isə orta ixtisas təhsili sahələrində təhsil almışlar. Sözü gedən tədris ilində ali təhsil alan tələbələrin sayı 184211 nəfər təşkil etmiş ki, bu da 2010-cu ildən sonra 38000 nəfər artım deməkdir[8]. Ölkədə Beynəlxalq Standart Təhsil Təsnifatının (ISCED) 3-cü Səviyyəsi üzrə ali peşə təhsili alan tələbələrin payı nisbətən aşağıdır. Bu göstərici 2013-cü ildə 15,8% təşkil etdiyi halda, 2017-ci ildə 14,2%-ə düşmüş, lakin 2018-ci ildə cüzi artmaqla 14.5%-ə yüksəlmişdir[9]. Ali təhsil sahəsində ümumi qəbul göstəricisi də nisbətən aşağıdır (2017-ci ildə 27,2%)[10] (xüsusilə yüksək orta gəlirli ölkələrin 33,4% orta göstəriciləri ilə müqayisədə). Lakin, bu göstərici get-gedə artmaqdadır.

### PTT proqramlarında iştirak səviyyəsi olduqca aşağıdır.

**CƏDVƏL 2.4: BEYNƏLXALQ STANDART TƏHSİL TƏSNİFATININ (ISCED) 3-CÜ SƏVİYYƏSİ ÜZRƏ QƏBUL OLAN TƏLƏBƏLƏRİN SAYI 3 (MİN NƏFƏR)**

| PTT | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 21.9 | 23.9 | 24.8 | 24.3 | 20.9 | 19.4 | 19.7 | 19.8 | 19.2 |
| Kişi | 15.6 | 17.0 | 17.7 | 17.6 | 15.2 | 14.1 | 14.3 | 15.1 | 14.6 |
| Qadın | 6.3 | 6.9 | 7.1 | 6.7 | 5.7 | 5.3 | 5.4 | 4.7 | 4.6 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (alınan məlumatlar)

1990-cı illərin əvvəllərindən etibarın işçilərin hər hansı ixtisaslaşma olmadan əmək bazarına daxil olmasına dair mənfi tendensiya müşahidə olunmaqdadır. Azərbaycanda 4,6 milyon işçidən yalnız 32%-nin rəsmi ixtisasının olduğu güman edilir. Rəsmi statistikaya görə, hər il ümumtəhsil müəssisələrinin məzunlarının 60%-dən çoxu hər hansı ixtisasa yiyələnmədən əmək bazarına daxil olurlar (Avropa Təhsil Fondu (ETF), 2017). Son beş il ərzində orta təhsilli tələbələrin yalnız 14%-i peşə

[8] https://www.stat.gov.az/source/education/?lang=en
[9] https://www.stat.gov.az/source/education/?lang=en
[10] http://uis.unesco.org/country/AZ

təhsili müəssisələrinə qəbul olunmuş və onların arasında qızların payı xüsusilə aşağı olmuşdur (təxminən 8%), baxmayaraq ki, onların ümumi payı 2018-ci ildə 14.5%-dək yüksəlmişdir. Bu tendensiyaların nəticəsi olaraq, gənc işçi qüvvəsi ya orta ümumtəhsil müəssisələrinin məzunlarından, ya da ali təhsilli şəxslərdən ibarətdir. Təhsil səviyyəsinə görə işçi qüvvəsinin strukturu göstərir ki, 2018-ci ildə aktiv əhalinin 76,4%-i orta təhsilli, 16,6%-i ali təhsilli, 6,6%-i isə ibtidai və daha aşağı təhsilli şəxslər olmuşlar. Beş illik dövrdə baş verən tendensiyaların təhlili orta təhsilli işçi qüvvəsinin payının bir qədər aşağı düşdüyünü, ali təhsilli işçi qüvvəsinin payının bir qədər artdığını, aşağı təhsil səviyyəli şəxslərin payının isə sabit qaldığını göstərir. Azərbaycanda işçi qüvvəsinin 76,4%-i orta təhsillidir ki, bu da Şərq Tərəfdaşlığı (EaP) ölkələrində ən yüksək göstəricidir.

**ŞƏKİL 2.4: IŞÇI QÜVVƏSININ (15 YAŞDAN YUXARI) TƏHSIL SƏVIYYƏSI (%)(2018)**




Qeydlər: AM = Ermənistan; AZ = Azərbaycan; BY = Belarus; GE = Gürcüstan; MD = Moldova; UA = Ukrayna

## Erkən uşaqlıqdan ali təhsil dövrünədək və sonrakı dövrlərdə insan kapitalı

Erkən uşaqlıqda inkişaf çoxtərəfli prosesdir və fərdi insan kapitalına əhəmiyyətli təsir göstərir. Təhsil nəticələrinin yaxşılaşdırılmasına sistemli yanaşma (SABER) proqramı çərçivəsində əldə olunan (2018a) nəticələr Azərbaycanda təhsil sektorunda sub-milli səviyyədə əhəmiyyətli fərqlərin mövcud olduğunu, kənd yerlərində şagirdlərin məktəbəqədər təhsilə cəlb olunmaq ehtimalının şəhər yerlərindəki şagirdlərə nisbətən üç dəfə az olduğunu göstərir. 3-6 yaşlı uşaqların yalnız 20%-i məktəbəqədər təhsil müəssisələrində təhsil alır ki, bu da Azərbaycanı Avropa və Orta Asiya regionunda məktəbəqədər təhsil üzrə ən aşağı göstəricilərə malik ölkələrdən birinə çevirir (Dünya Bankı, 2018a). Orta təhsili yarımçıq buraxmaq (əsas təhsildən sonra - 9-cu sinif) Azərbaycanın bölgələrində, xüsusən də kəndlərdə ciddi problemlərdən biridir. Ailələri qızları məktəbdən çıxaraq ailə qurmaq üçün təsir göstərirlər, bu da qızların təhsili buraxılmasının əsas səbəbidir. Bu mənfi tendensiyaları aradan qaldırmaq üçün hökumət bu göstəriciləri yaxşılaşdırmaq istiqamətində fəal tədbirlər həyata keçirir. Məktəbəqədər təhsildə əsas diqqət dövlət tərəfindən maliyyələşən məktəbəqədər hazırlıq qruplarının yaradılmasına yönəldilmişdir. Təhsil Nazirliyindən verilən məlumata görə, 5 yaşlı uşaqların təhsildə cəlb olunma səviyyəsi 2013-cü ildəki 24%-dən 2018-ci ildə 75%-ə yüksəlmişdir.

Azərbaycanda ali təhsil sektoru 51 təhsil müəssisəsindən təşkil olunmuşdur (2017-ci ildə olan vəziyyət). İyirmi ali təhsil müəssisəsi dövlətə məxsusdur və Təhsil Nazirliyinə tabedir; 13 ali məktəb özəldir və Təhsil Nazirliyi tərəfindən nəzarət olunur; və 18 ali məktəb dövlətə məxsus olsa da, müxtəlif

nazirliklər tərəfindən nəzarət olunur. Onların əksəriyyəti ixtisaslaşmış universitetlərdir (məsələn, altısı hərbi təlim yönümlüdür) və 15-i geniş təhsil proqramları olan ümumi ali məktəblərdir. Azərbaycan universitetlərinin əksəriyyəti paytaxt Bakı şəhərində cəmləşmişdir. Belə ki, ölkənin bütün ali təhsil müəssisələrinin 82%-i məhz Bakıda yerləşir. 2016-cı ildə Azərbaycanın ali məktəblərində təqribən 164000 tələbə təhsil almış, onların 88%-i dövlət ali məktəblərinə daxil olmuşlar. Azərbaycanın ali təhsil sistemi həm beynəlxalq miqyasda, həm də yaxın qonşuları ilə müqayisədə aşağı ali təhsil səviyyələri ilə xarakterizə olunmaqda davam edir. 2016-cı ildə Azərbaycanda ali təhsil müəssisələrinə ümumi qəbul səviyyəsi 27,2% (peşə təhsili üzrə 4%, ali təhsil üzrə 23%), qonşu Gürcüstandan (51,8%) və Ermənistandan (51,2%) aşağı olmuşdur. Ali təhsil almaq imkanları şəhər yerlərində və Bakı şəhərində yaşayan ən zəngin ailələr arasında 40%, yoxsul ailələrdə və kənd yerlərində isə cəmi 11% təşkil etməklə ailələrin gəlirlərinə uyğun olaraq balanslaşdırılmamış şəkildə paylanmışdır (Dünya Bankı, 2018b) .

## Şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramın (PISA, 2018) və Oxu bacarıqları nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq araşdırmanın (PIRLS, 2016) nəticələri

Şagirdlərin tədrisin sonrakı mərhələlərində və həyat boyu uğurları onların ümumi əsas təhsil göstəricilərindən çox asılıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2000-ci ildən etibarən hər üç ildən bir təşkil olunan Şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramı (PISA) 15 yaşlı məktəblilərin oxu, riyaziyyat və elm sahələri üzrə səviyyələrini yoxlayır. Azərbaycan 2018-ci ilin aprel-may aylarında baş tutan “PISA 2018” araşdırmasında iştirak etmiş, Bakıdan 6872 məktəbli həmin beynəlxalq araşdırmaya qatılmışdır.

“PISA” sorğusu göstərmişdir ki, Bakı (Azərbaycan) şagirdlərinin səviyyəsi bütün əsas fənlər üzrə İƏİT (OECD) üzrə orta səviyyədən aşağıdadır. Tələbələrin yalnız 2%-i riyaziyyat fənni üzrə 5 bal və daha yüksək nəticə göstərmişdir (OECD: 11%). Altı Asiya ölkəsi və iqtisadiyyatı Səviyyə 5 və daha yüksək bal toplayan tələbələrin ən çox payına sahibdir: Pekin, Şanxay, Syansu və Çjeszyan (Çin) (44%), Sinqapur (37%), Honkonq (Çin) (29%), Makao (Çin) (28%), Çin Taipei (23%) və Koreya (21%). Bu tələbələr mürəkkəb vəziyyətləri riyazi şəkildə modelləşdirə və onlarla əlaqəli problemlərin həll edilməsi üçün uyğun strategiyaları seçib müqayisə edə və qiymətləndirə bilirlər (OECD, 2019b; Avvisati və digərləri, 2019). Postsovet məkanında Azərbaycanın göstəriciləri yalnız Gürcüstan və Qazaxıstana nisbətən cüzi yaxşıdır. Test nəticələri elm sahəsində də eynilə ürəkaçan olmamış, Azərbaycanın bu sahə üzrə nəticəsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) üzrə orta 489 baldan kifayət qədər aşağı olmaqla 398 bal təşkil etmişdir. Araşdırma yalnız Bakı şəhərində keçirilmişdir; nəticələr təhsil keyfiyyətinin xeyli dərəcədə aşağı olduğu bölgələri əhatə etsəydi daha zəif olardı. Ayrı-ayrılıqda yayımlanan ölkəyə aid məlumatlarda Şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə Beynəlxalq Proqramın (PISA) nəticələri də kreativ düşünmək bacarıqlarının olmadığını və məktəb intizamının zəif olduğunu göstərir (Qulıyev, 2020).

Daha geniş miqyasda, 2016-cı ilin aprel-may aylarında Oxu bacarıqları nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq araşdırmanın (PIRLS) əsas mərhələsi ümumtəhsil müəssisələrində keçirilmiş, 170 ümumi təhsil müəssisəsi təsadüfi seçim yolu ilə müəyyən edilmişdir. Oxu bacarıqları nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq araşdırmanın (PIRLS) nəticələrinə əsasən, “aşağı” səviyyədən daha az nəticə göstərmiş şagirdlərin oxuduqlarını anlamaq üzrə göstəriciləri 27% təşkil etmişdir (Təhsil Nazirliyinin illik hesabatı 2017, 2018).

## Təhsil, araşdırma və PTT-nin maliyyələşdirilməsi

2018-ci ildə Azərbaycanın təhsilə dövlət xərcləri ÜDM-in 2,5% səviyyəsində qalmışdır. Ümumiyyətlə, bu rəqəm digər Şərqi Avropa ölkələrindəki orta göstəricidən (4,5%) və daha yüksək orta gəlirli ölkələrin orta göstəricilərindən xeyli aşağıdır. Bununla belə, 2019-cu ildə təhsilə ayrılan büdcə vəsaitlərində nəzərəçarpacaq dərəcədə artım baş vermişdir (təxminən 13%) ki, bu da hökumətin ölkənin insan kapitalının inkişafını davam etdirməyə sadiq olduğunu təsdiqləyir. Ümumiyyətlə, ümumi təhsil xərclərində PTT təhsili xərclərinin payı çox aşağıdır və son beş ildə 2,1%-dən 1,4%-ə enmişdir. 2019-cu ildə ilkin peşə təhsili və təliminə təxminən 39,6 milyon manat ayrılmışdır ki, bu da 2018-ci ilə nisbətən 11,7 milyon manat çoxdur.

Elmi tədqiqat və inkişaf işlərinə (R&D) sərf olunan vəsaitlər 2000-ci ildən bəri mütləq mənada artırılsa da, ümumi xərclər ÜDM-də pay olaraq az olmaqda davam edir. 2018-ci ildə dövlət büdcəsindən elmə ayrılan 118 milyon manat vəsait ÜDM-in 0,2%-dən azını təşkil etmişdir. Bu cür investisiya səviyyələri hər hansı ölkənin innovasiya imkanlarını inkişaf etdirmək baxımından əhəmiyyətli təsirə nail olmaq üçün kifayət deyil. Avstriya və İsveç kimi oxşar ölçülü innovativ iqtisadiyyatlar elmi işlərinə ÜDM-in təxminən 3%-ni sərf edirlər, İƏİT (OECD) ölkələrində isə bu göstərici 2,5%-dir. Azərbaycan elmi tədqiqat və inkişafa (R&D) yatırdığı investisiya səviyyəsinə görə Gürcüstan, Ermənistan, Belarus, Ukrayna və Rusiya Federasiyasından geri qalır və həmin investisiyaların aşağı olmasına görə isə Qazaxıstan və Özbəkistanla müqayisə oluna bilər (Dünya Bankı, 2018b).

Azərbaycanda ali təhsil sahəsində elmi-tədqiqat işlərinin dövlət tərəfindən maliyyələşdirilməsi nisbətən azdır. 2018-ci ildə təhsilə ayrılmış 2 001,5 milyon manat dövlət vəsaitinin (ÜDM-in 3%-i) təxminən 200 milyon manatı (ümumi təhsil büdcəsinin 10%-i, ÜDM-in 0.3%-dən az) ali təhsil sahəsinə yönəldilmişdir. Həmin məbləğdən 160 milyon manatı hər tələbəyə görə ödənişlər şəklində ali məktəblərə ayrılmış, 42,7 milyon manatı isə büdcədən maliyyələşən bir neçə universitetin xərclərinə (əsasən maliyyələşdirilən infrastruktur xərclərinə) sərf olunmuşdur. Bu, universitetlərin əksəriyyətinin həddən artıq təhsil haqlarından asılı olmasına, onların mühüm tədqiqat fəaliyyətləri üçün özünü-maliyyələşdirmə imkanlarının məhdudlaşmasına səbəb olur. Azərbaycanda qlobal elmi nəticələrin əldə olunmasına və yayılmasına əhəmiyyətli dərəcədə təsir göstərən elmi-tədqiqatlar nisbətən azdır. “H-indeksi”nə əsasən, Azərbaycan aparılan tədqiqatların keyfiyyətinə (təsirinə) görə dünyada 113-cü yerdədir. Bu göstəriciyə görə ölkə Belarus (73-cü yer), Gürcüstan (77-ci yer) və Moldova (101-ci yer) (Dünya Bankı, 2018b) kimi oxşar və ya daha kiçik ərazisi olan regional dövlətlərdən geri qalır.

## İcmal

Son bir neçə onillikdə Azərbaycanda əhali strukturunun dəyişməsi və yeni iş yerlərinə tələbat, böyük şəhərlərdə, xüsusilə Bakıda kütləvi urbanizasiya və müxtəlif formalarda miqrasiya tendensiyaları kimi əhəmiyyətli demoqrafik dəyişikliklər baş vermişdir. İş yerlərinin açılması və sosial və regional bərabərsizliklərin azaldılması ilə bağlı ciddi problemlərin həllini mümkün edə biləcək yeni iqtisadi artım modelinə tədricən keçid ölkədə insan kapitalının təkmilləşdirilməsi və düzəlişlər edilməsini tələb edəcəkdir. Yetkin şəxslər bu tendensiyalardan daha çox təsirlənirlər və onların insan kapitalına və ixtisas uyğunsuzluğuna təsiri böyükdür.

Bir çox gənclər uzun müddət işsiz qalırlar. Bu, onların bacarıqlarının artırılması, gələcəkdə işə qəbul və qazanc əldə etmək imkanları üçün maneədir. Uzun müddət davam edən işsizlik, xüsusilə ilk dəfə iş axtaran gənc qadınlar və kişilər arasında olmaqla gənclərin əmək bazarının təcrid olunma riskini yaradır. Əmək bazarının transformasiyası davamlı prosesdir və müəssisələrə ehtiyac duyduqları ixtisaslarla bağlı məsələlərin öhdəsindən gəlməkdə ciddi problemlər yaradır. Mövcud avadanlıqların

çatışmaması və ya köhnəlmiş olması səbəbindən PTT müəssisələri şəbəkəsi ümumilikdə peşəkar PTT sahələrində etibarlı keyfiyyət səviyyələrinə nail ola bilmirlər. Peşə təhsili və təlimi (PTT) Şərq Tərəfdaşlığı (EaP) ölkələrində ən aşağı iştirak payına malik olmaqla iştirak payı defisiti ilə üzləşir.

Strateji Yol Xəritələrində göstərilən iddialı məqsədə çatmaq üçün Azərbaycan hökuməti insan kapitalının inkişafını əsas prioritetlərdən biri kimi müəyyənləşdirir və vətəndaşların yeni bacarıq və ixtisas göstəricilərinin artırılması islahat gündəliyində xüsusi yer tutur. Əsas diqqət gənclər arasında işsizlik səbəbindən insan kapitalı itkiləri, peşə təhsili və təlimi (PTT) proqramlarında iştirakın aşağı olması ilə əlaqədar ixtisas çatışmazlığı və böyüklər üçün insan kapitalının inkişafı üçün məhdud imkanlar kimi əsas problemlərin həllinə yönəlmiş siyasət həyata keçirməkdir. Boşluqları aradan qaldırmaq, vətəndaşları gələcəyə hazırlamaq və insanların həyatı boyu ixtisaslarını artıra biləcəklərinə əmin olmaq üçün insan kapitalını necə idarə etmək və təhsil və təlim sistemlərinin modernləşdirilməsi barədə yenidən düşünmək tələb olunur.

# 3. AKTUAL MƏSƏLƏLƏRİN VƏ SİYASƏT TƏDBIRLƏRININ QIYMƏTLƏNDIRILMƏSI

Bu fəsildə üç əsas məsələyə diqqət yetirilir: i. PTT sahəsinə marağın az olması səbəbindən ixtisas çatışmazlığı probleminin həlli; ii. gənclər arasında işsizlik  səbəbindən insan kapitalı itkilərinin qarşısının alınması; və iii. böyüklər üçün insan kapitalının inkişafı imkanlarının genişləndirilməsi. Bu məsələlərin hər biri insan kapitalının inkişaf məsələlərinin təsviri və müvafiq siyasət və təcrübələrin təsviri və qiymətləndirilməsi ilə bağlıdır. Nəticələrə uyğun olan və Azərbaycanda müəyyən edilmiş hər mühüm problemi necə həll etməyi təklif edən konkret tövsiyələr verilir.

İnsan kapitalı ilə bağlı problemlərin təhlili, müvafiq siyasət tədbirləri və siyasət boşluqları, həmçinin tövsiyələrin müəyyənləşdirilməsi, mərkəzi və yerli dövlət qurumlarını təmsil edən geniş milli maraqlı tərəflərlə, həmçinin özəl sektor və beynəlxalq təşkilatlarla 2019-cu ilin noyabr ayında Bakıda keçirilmiş görüşdə müzakirə olunmuş və müvafiq düzəlişlər edilmişdir. Avropa Təhsil Fondu (ETF) hesab edir ki, Azərbaycanda ixtisasartırma sistemi ixtisas çatışmazlığı və itkilərini aradan qaldırmaqla milli iqtisadi şaxələndirmə prioritetini daha yaxşı dəstəkləməli və həyat boyu öyrənmə (LLL) perspektivində böyüklər üçün təhsil imkanlarını yaxşılaşdırmalıdır. İnsan kapitalının inkişafının milli prioritet elan edilməsinin zəruriliyinə dair yekdil fikir mövcuddur.

## 3.1 PTT-yə marağın az olması səbəbindən ixtisas çatışmazlığı probleminin həlli

### 3.1.1 Mühüm məsələlərin araşdırılması

PTT-yə marağın az olmasının səbəbləri kontekstdən və ölkədən asılı olaraq dəyişir. Məsələ PTT-nin cəlbediciliyi və imici, eyni zamanda fərqli vətəndaş qruplarının yanaşması ilə bağlıdır. Bu həm də ümumtəhsil məktəblərinin yuxarı siniflərinə nə dərəcədə əhəmiyyət verilməsindən asılıdır. Fikirlər və qavrayışlar cəlbediciliyə təsir göstərə bilər; həmin fikirlər təkcə gənclərlə bağlı deyildir. Aİ-yə Üzv Dövlətlərdə aparılmış müxtəlif araşdırmaların nəticələri göstərir ki, valideynlər və ailələr, müəllimlər, iş adamları və internet/sosial media tələbələrin potensial qərarlarına təsir göstərən mühüm amillər ola bilər və buna görə də onların fikirləri vacibdir. PTT-yə marağa əmək bazarına uyğun tələb və təklif amili də çox təsir edir.

PTT-yə marağın az olmasının səbəblərini anlamaq üçün bir neçə parametr təhlil olunmalıdır. Miras qalmış sistem mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın PTT sistemi Sovet İttifaqından, mərkəzləşdirilmiş şəkildə planlaşdırılan iqtisadiyyatın ehtiyaclarını ödəmək məqsədilə yaradılmış sistemdən miras qalmışdır. Sərbəst bazara keçid dövründə PTT sistemi resursların azalması və aydın PTT siyasəti prioritetlərinin olmaması səbəbindən çətin dövrdən keçmişdir. PTT müəssisələrinin sayı kəskin şəkildə azalmış, bir çox dövlət müəssisələrinin dağılması nəticəsində müəssisələrlə əlaqələr kəsilmiş və PTT təhsili alanların sayı 1990-cı ildə 55000 nəfər təşkil etməsinə rəğmən 2005-ci ildə azalaraq 11000-ə düşmüşdü. Son 10 ildə məzunların sayı 15000 ətrafında dəyişmişdir.

Ümumilikdə, orta peşə təhsili və təliminə maraq Aİ səviyyəsindən çox aşağıdır və Şərq Tərəfdaşlığı (EaP) regionunda ən aşağı yerlərdən birini tutur: bu göstərici Moldova və Belarusda təxminən 40%, Ukrayna və Ermənistanda təxminən 30%, Azərbaycanda isə 14.5% təşkil edir; regionda yalnız Gürcüstan ən aşağı səviyyədədir, 8.8%. Səbəbləri dərindən araşdırmadan, bir neçə məsələyə ötəri nəzər salmaq son bir neçə onillikdə PTT sahəsinin unudulduğunu və bu sahəyə laqeyd münasibət göstərildiyini təsdiqləyir. PTT-də iştirak səviyyəsinin aşağı olmasına təsir edən danılmaz və mühüm

problemlərdən biri PTT sisteminə qəbulla bağlıdır. PTT təminatının əhatə dairəsi infrastrukturun və adekvat müəllim heyətinin olmaması səbəbindən bir qədər məhduddur. 2015/2016 və 2017/2018-ci tədris illəri arasında PTT-lərə qəbulu planlaşdırılan tələbələrin sayında artım müşahidə olunurdu; lakin, 2018/2019-cu tədris ilində qəbul sayı azaldıldı. Həm də dövlət tərəfindən maliyyələşdirilən tələbələrin payı azalmağa başladı.

Aşağı təhsil nömrələri ilə göstərilən PTT-ə maraq azdır. Bunu həmin sahəyə qəbul olunmuş şəxslərin sayının az olması da göstərir. 2018/2019-cu tədris ilində dövlət tərəfindən maliyyələşdirilən 329 yer müəyyən proqramların cəlbedici olmaması və ya yaradılmış yeni ixtisaslar haqqında məlumatlandırma işinin qeyri-qənaətbəxş olması səbəbindən boş qalmışdı. Müsbət tendensiya odur ki, ödənişli proqramlar üçün yerlərin yarıdan çoxu dolmuşdu. Digər müsbət tendensiya keyfiyyət göstəricilərinin yaxşılaşmasıdır. Belə ki, peşə təhsili müəssisələrinə qəbul olanların 20%-i orta məktəb şəhadətnamələrində orta hesabla dörddən yuxarı qiymət almışdılar. Ümumiyyətlə, orta məktəb şəhadətnaməsində qiymətləri 4 və 5 olan abituriyentlərin sayı son iki ildə üç dəfədən çox artmışdır (Təhsil Nazirliyi, 2017). Bununla belə, istedadlı gəncləri peşə təhsilinə cəlb etmək hələ də problemli məsələ olaraq qalır. PTT müəssisələrində oxuyan tələbələrin əksəriyyəti aztəminatlı ailələrin uşaqları, aşağı qiymət almış şagirdlər və kənd və ucqar yerlərin sakinləridirlər. Qəbul qaydaları əvvəlki biliklərin qiymətləndirilməsini tələb etmədiyindən, siniflər müxtəlif bacarıq səviyyələrinə malik tələbələrdən təşkil olunur və bu da tədris prosesinə mənfi təsir göstərir.

PTT-də iştirak səviyyəsinin aşağı olmasına infrastrukturun zəif olması çox təsir edir. PTT müəssisələrinin mövcud şəbəkəsi, ümumiyyətlə, xərcləri yüksək olan PTT sahələrində yüksək keyfiyyəti təmin edə bilmir, çünki avadanlıqlar (qaynaq, avtomobil çilingərliyi, elektronika və s.) çatışmır və ya tamamilə köhnəlmişdir (Avropa Təhsil Fondu (ETF), 2014). PTT Yol Xəritəsinin strateji hədəflərindən biri də PTT müəssisələrinin şəbəkəsinin optimallaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılmasıdır. Optimallaşdırma prosesinə 2017-ci ildə Bakı və Gəncədə yerləşən təhsil müəssisələrinin birləşdirilməsi ilə start verilmişdir. 2016-cı ildə 114 dövlət PTT müəssisəsi var idisə, 2019-cu ildə onların sayı 76-ya endirilmişdir. 55 peşə məktəbi və lisey əsasında iyirmi dörd yeni peşə təhsili mərkəzi yaradılmışdır. Hal-hazırda həmin mərkəzlərdə 168 peşə proqramı üzrə təhsil təklif olunur, onlardan 33-ü yenidir. Yeni yaradılan bir çox mərkəz köhnə peşə məktəblərinin obyektlərində yerləşdiyindən, həmin obyektlərin yenidən qurulmasına başlanılmışdır. Bölgələrdəki peşə müəssisələrinin əksəriyyətində yataqxanalar yoxdur və bəzi məktəblərin yataqxanalarından hələ də qaçqınlar, məcburi köçkünlər və sakinlər istifadə edirlər. İşləyən yataqxanaların olmaması o deməkdir ki, məktəblər yalnız yerli tələbə və işçi heyətini cəlb edə bilərlər və bu, müəyyən qrup tələbələrə həmin məktəblərdə təhsil imkanlarından yararlanmağa maneə olur.

Hökumət PTT sahəsində hazırkı qiymətləndirmə zamanı ÜDM-in 0,05%-ni təşkil edən və ümumi təhsil xərclərinin yalnız 1.5%-ni təşkil edən xərcləri olduğu səviyyədə saxlayarsa, vəziyyətin dəyişməsi ehtimalı yoxdur. Üstəlik, PTT büdcəsi Peşə Təhsili üzrə Dövlət Agentliyi və PTT müəssisələri tərəfindən məlumat verilən və təklif olunan maliyyələşdirmə tələbatlarının nəzərə alınmadığı proses vasitəsilə təhsil büdcəsinin bir hissəsi kimi Təhsil Nazirliyinə ayrılır. Məktəblərin ölçüsü, qeydiyyat və əməliyyat xərcləri kimi keçmişdə müəyyən edilmiş qiymətlərə və amillərə əsaslanan maliyyə bölgüsü mexanizmi kapital xərcləri, yeni infrastrukturun saxlanması və kadrların peşə hazırlığı ilə bağlı ehtiyacları nəzərə almır.

Maraqlı tərəflərin PTT idarəçiliyi və təminatında iştirak üsulu PTT-də iştiraka əhəmiyyətli təsir göstərir. Azərbaycanda, digər təhsil formalarında olduğu kimi, PTT sistemində də hökumət dominant rol oynayır və istənilən dəyişiklikləri həyata keçirmək üçün yuxarıdan aşağıya yanaşması tətbiq olunmaqla PTT sistemi olduqca mərkəzləşmişdir. PTT Təhsil Nazirliyi və 2016-cı ildə yaradılmış Peşə

Təhsili üzrə Dövlət Agentliyi tərəfindən idarə olunur, lakin əsas söz sahibi Təhsil Nazirliyidir. Əslində isə, təhsil və təlimin bu alt seqmentinin idarə edilməsi və tənzimlənməsi müxtəlif nazirliklər arasında bölüşdürülmüşdür ki, bu da siyasətlərin uzlaşmasına mane olur və məsuliyyətin üst-üstə düşməsinə və təkrarlanmasına səbəb olur. Məsələn, Təhsil Nazirliyi təhsil standartlarının, kurikulumların, qiymətləndirmə standartlarının, akkreditasiya standartlarının və ixtisasların keyfiyyətinin təmin edilməsinə cavabdeh olsa da, əmək bazarındakı tendensiyaların, habelə peşə və ixtisas standartlarının hazırlanması və tətbiqi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən əlaqələndirilir. Balanslarında olan təhsil müəssisələrinə rəhbərlik edən müxtəlif ixtisaslaşmış nazirliklər təhsil və ixtisas standartları ilə bağlı təkliflər verə bilərlər və müvafiq ixtisasların keyfiyyətinə nəzarət təmin edirlər. Həmçinin ƏƏSMN qısamüddətli əlavə peşə hazırlığı kursları vasitəsilə iş axtaranlar və işsizlər üçün təlimlərin keçirilməsinə nəzarət edir.

PTT-nin keyfiyyəti PTT-də iştiraka təsir edən mühüm parametrlərdən biridir. Burada kurikulumunun əhəmiyyətli olması ilə yanaşı, müəllimlərin və məktəb personalının, təhsil siyasətlərinin də əhəmiyyəti böyükdür. Azərbaycanda müəllim hazırlığına dair yeni siyasət aşağıdakı sahələrdə bəzi problemlərlə üzləşir: müəllimlərin seçim prosesləri; işə qəbul; müəllimlərin saxlanılması; müəllimlərin statusu; müəllimlərin ixtisasları; vəzifə təsnifatları; əməkhaqqı sistemi. Müəllimlərin təkmilləşdirilməsi üçün diaqnostik testlərin həyata keçirilməsində bəzi məhdudiyyətlər və çatışmazlıqlar vardır; bu kimi meyarlar tədrisin əhəmiyyətini anlamağa kömək edə bilər. Bütün bu amillər adekvat müəllim hazırlığını təkmilləşdirməyə xidmət edir və Azərbaycan cəmiyyətində müəllim hazırlığı siyasətinə artan maraq və artan müsbət münasibət müşahidə olunmaqdadır. Valideynlərin və cəmiyyət üzvlərinin əksəriyyəti təhsilli, ixtisaslı və müsbət praktik təcrübəyə sahib olan müəllimləri məktəblərdə görmək istəyirlər. Yetərli müəllim hazırlığı müxtəlif sahələrdəki problemlərin həllinə əhəmiyyətli dərəcədə təsir göstərir və peşəkar tədris və təlimi təmin edə bilər. Lakin hökumət və sistem səviyyəsində dəyişikliklər olmadan müəllimlər lazımi dəyişiklikləri həyata keçirmək üçün səlahiyyət və səriştəyə malik deyillər (Hüseynova, 2019).

PTT sahəsində kompleks müəllim hazırlığı siyasəti hələ də hazırlanmamışdır və bu, PTT sisteminin keyfiyyətinə mənfi təsir göstərir. Əmək bazarına məhdud çıxış imkanları, müəllimlərin səriştələrinin müasir tələblərə cavab verməməsi və peşəkar inkişaf və təlim imkanlarının olmaması tədrisin keyfiyyətinə təsir edən əsas amillərdir. Müəllimlər və ustalarla bağlı minimum keyfiyyət göstəriciləri PTT haqqında Qanun və dövlət PTT standartlarında göstərilsə də, PTT personalının keyfiyyəti aşağıdır. Son on ildə müəllim və təlimçilər yavaş-yavaş azalır və qocalır və müəllimlərin 70%-i qadın olduğundan ciddi gender boşluğu mövcuddur. Əmək bazarına çıxış imkanlarının məhdud olması səbəbindən bir çox müəllimlərin praktik bilik və bacarıqları yoxdur. Problemlər sənaye, tikinti, İKT və emal da daxil olmaqla yüksək ixtisaslı şəxslərin tələb olunduğu peşələrdə xüsusilə kəskindir. Müəllimlərlə bağlı problemlərin digər bir cəhəti onların qeyri-standart şərtlərlə işə cəlb olunmasıdır və bu, PTT sahəsinə uyğun ixtisaslı şəxslərin cəlb edilməsinə və gənc müəllimlərin saxlanılmasına mane olur.

PTT-yə dair Yol Xəritəsində işəgötürənlərlə tərəfdaşlığın Azərbaycanın peşə təhsili sistemini aparıcı səviyyəyə çatdırmağın vacib şərtlərindən biri olduğu qeyd edilir və 2025-ci ilədək işəgötürənlərin təhsil kurikulumlarının hazırlanmasından maliyyələşdirmə məsələlərinədək PTT sisteminə tam inteqrasiya olunacağı nəzərdə tutulur. Bununla belə, biznes sektorunun PTT təminatında iştirakı hələ də bir qədər məhduddur. Mübadilə və əməkdaşlıq üçün funksional və institusional platformalar, habelə işəgötürənlərin peşə hazırlığına cəlb olunmalarını artırmağa stimul verəcək maliyyə mexanizmləri mövcud deyil. PTT hələ də əsasən məktəblərdədir. Tədris proqramlarında şagird və tələbələrin təcrübə toplaya biləcəkləri yerlərdə təşkil edilməli olan istehsalat təcrübəsi nəzərdə tutulsa da,

dərslərin əksəriyyəti məktəblərdə və ya şagird və tələbələrin minimal praktik təcrübə qazandıqları şirkətlərdə keçirilir. Ölkənin hər yerində çox sayda KOM-ların olması nəzərə alınarsa, onlar PTT məktəblərinin məzunları üçün ən çox ehtimal olunan iş yerləridir. Lakin həmin KOM-ların əksəriyyəti keyfiyyətli praktik təlim vermək üçün lazımi potensiala və resurslara malik deyillər. Buna baxmayaraq, son Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ)) son araşdırmasına əsasən, əmək bazarının tələbləri ilə işçi qüvvəsinin mövcud ixtisasları arasındakı boşluğu aradan qaldırmağa dəstək vermək məqsədilə Azərbaycanda xüsusilə yüksək məşğulluq imkanları olan sektorlarda, yeni turizm və kənd təsərrüfatında istehsalatdan ayrılmadan təhsili (WBL) təşviq etmək üçün böyük potensial mövcuddur (GIZ, 2016).

Məşğulluq haqqında Qanunda həmkarlar ittifaqları və işəgötürənlərin peşə standartlarının hazırlanması ilə bağlı öhdəlikləri müəyyən edilmiş və ƏƏSMN sahə orqanlarına mühüm əhəmiyyət verən və özəl sektorun təhsil islahatlarına cəlb olunmasına təkan verə biləcək əlavə qanunvericilik aktı hazırlamışdır. Bununla belə, təcrübədə özəl sektorun iştirakına işəgötürənlər arasında sektor səviyyəsində koordinasiyanın olmaması mane olur. KOM-lar lazımi səviyyədə təmsil olunmurlar, çünki işəgötürənlərin təmsilçiliyi işəgötürənlərin birlikləri vasitəsilə təmin olunur və KOB-lər nadir hallarda bu cür birliklərin üzvləridirlər. Onların sənaye birliklərində iştirak səviyyəsinin aşağı olması mövcud çətinliklərdən və onların VET sahəsinə cəlb olunma imkanlarını artırmaq üçün ilkin şərtlərdən biridir. Ümumiyyətlə, işəgötürənlər PTT-ni prioritet məsələ kimi qəbul etmirlər və çox vaxt bu məsələyə vaxt ayırmağa laqeyd yanaşırlar. Həmkarlar ittifaqları əmək münasibətləri ilə məşğul olur və hələ də özlərinin PTT sistemində vacib rol oynadıqlarını qəbul etmirlər. Digər bir problem maraqlı tərəflərin məktəb idarəçiliyinə cəlb edilməsidir. PTT müəssisələrinin yerli bələdiyyələrlə sıx əlaqələri olsa da, işəgötürənlərlə möhkəm əlaqələr qura bilmirlər. PTT müəssisələri təkmilləşdirmə işinə marağın və ya potensialın olmaması səbəbindən PTT islahatlarının həyata keçirilməsində minimal rol oynayırlar. Nəticə etibarilə, Təhsil Nazirliyində başlayan islahatlar heç də həmişə PTT sistemində lazımi dəyişikliklərə gətirib çıxarmır.

### 3.1.2 Müxtəlif siyasət tədbirləri

PTT sistemində çoxsaylı problemlər olsa da, nəzərdə tutulan ümummilli islahatlar çərçivəsində ölkənin ümumi iqtisadiyyatında müşahidə olunan tendensiyalar PTT sisteminə dair yeni tələbləri ortaya çıxarmışdır. İqtisadiyyatın şaxələndirilməsi və neft və qaz sənayesi ilə yanaşı yüksək dəyər təmin edən qeyri-neft sektorlarının inkişafı istiqamətində görülən tədbirlər rəqabətyönümlü və peşəkar işçi qüvvəsinə tələbatı artırmışdır. Bu baxımdan, PTT-nin artan və dinamik dəyişən tələbatı ödəmək üçün işçi qüvvəsi üçün qabaqcıl təhsil imkanları təmin edəcəyi gözlənilir.

**Normativ-hüquqi bazanın yenilənməsi və infrastruktura investisiya qoyuluşu**

2018-ci ilin aprel ayında ölkə tarixində ilk dəfə olaraq peşə təhsili haqqında qanun qəbul edildi. Bu qanun peşə təhsili sahəsində dövlət siyasəti prinsiplərini və PTT sisteminin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyənləşdirir. Qanunvericilikdə PTT-in üç səviyyəsi nəzərdə tutulmuşdur: ilkin, texniki və ali texniki peşə təhsili. Hal hazırda hökumət peşə standartlarının işlənib hazırlanması, peşə təhsili müəssisələrinə qəbul qaydaları, tələbələrin qiymətləndirilməsi və müxtəlif təhsil səviyyələrindən keçid kimi peşə ixtisaslarının müxtəlif aspektlərini əhatə edən normativ aktların hazırlanması üzərində fəal iş aparır.

Aİ və BMTİP Gəncədə Regional Sənaye PTT Mərkəzinin və Cəlilabadda kənd təsərrüfatı və sənaye (istehsalat) sahələrinə aid ixtisaslar üzrə Regional PTT Mərkəzinin yaradılmasına dəstək verirlər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11 oktyabr 2016-cı il tarixli qərarı ilə və Koreyanın İqtisadi İnkişaf və Əməkdaşlıq Fondunun dəstəyi ilə yaradılmış Sənaye və İnnovasiyalar üzrə Bakı

Dövlət Peşə Təhsil Mərkəzi 2019-cu ilin sentyabr ayında fəaliyyətə başlamışdır. Bakıdakı yeni mərkəz ən müasir maddi-texniki baza ilə təchiz olunmuşdur və burada səkkiz istiqamət (İKT, avtomobil, mexanika, sənayedə quraşdırma işləri, elektronika, elektrik mühəndisliyi, avtomatlaşdırma və tikinti) üzrə 1000-dən çox tələbə təhsil alır. Bu mərkəzlərin hamısı sənaye müəssisələri ilə uğurla əməkdaşlıq edirlər.

PTT üzrə Yol Xəritəsi, həmçinin, əmək bazarında yüksək tələbat olan prioritet ixtisaslar üzrə təhsil verəcək 10 modernləşdirilmiş PTT mərkəzinin yaradılmasını nəzərdə tutur. Bu mərkəzlərdə müasir infrastruktur, materiallar, texniki və təlim bazaları və dövlət-özəl tərəfdaşlığa əsaslanan idarəetmə strukturu təchiz ediləcəkdir. 2019-cu ildə iki yeni PTT mərkəzinin inşasına başlanılmış və 2020-ci ildə daha 5 PTT mərkəzinin inşası nəzərdə tutulur. Modernləşdirilmiş PTT infrastrukturunun PTT-nin imicini yaxşılaşdıracağı və onu şagird  və tələbələr, həmçinin valideynlər üçün daha cəlbedici edəcəkdir. Halbuki, reallıqda bir çox dövlət PTT müəssisələri hələ də zəif infrastruktura malikdirlər və tədris üçün maddi baza və avadanlıqlar yoxdur.

### PTT kurikulumlarının təhlili və müəllim və personal hazırlığı siyasətlərinin tələblərinin yerinə yetirilməsi

Peşə Təhsili üzrə Dövlət Agentliyi köhnə kurikulumlara dəyişikliklər etməyə başlamış və yeni proqramların hazırlanmasını təklif etmişdir. Aİ-nin PTT sahəsində islahat layihəsi tərəfindən yeni kurikulum şablonu hazırlanmış və sınaqdan keçirilmişdir, lakin kurikulumların hazırlanması üçün formal prosesin başlanmasına ehtiyac vardır. İndiyədək 81 modul strukturlu təhsil proqramı (kurikulum), 51 modul, 55 yeni dərslik və 78 modul dərslik hazırlanmışdır. Turin Prosesi üzrə milli hesabata görə, PTT müəssisələrindəki 168 proqramdan yalnız 36-sı səriştə əsaslı müasir kurikulumlardır. Peşə təhsilinin müasir məzmununa keçid davam edir və 2020-ci ilədək başa çatdırılması planlaşdırılır.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında ixtisaslı müəllim və rəhbər işçilərin cəlb olunması ilə bağlı məsələlər tədricən həll olunur. Azərbaycanda tədris və təhsil mühitinin yaxşılaşdırılması həm Təhsil Strategiyasında, həm də PTT üzrə Yol Xəritəsində prioritet məqsəd kimi müəyyən edilmişdir. Bu çərçivədə son illərdə müəllimlik peşəsinin nüfuzunu, müəllimlərin peşəkarlığını artırmaq və istedadlı insanları cəlb etmək istiqamətində müəyyən addımlar atılmışdır. Yüksək ixtisaslı mütəxəssisləri cəlb etmək və tədrisə başladıqdan sonra onları saxlamaqla bağlı çətinliklər PTT sistemi üçün də mövcud olan çətinliklərdən biridir. 2019-cu ildə müəllimlərin maaşları 2018-ci ilin əmək haqqı səviyyəsinə nisbətən iki dəfədən çox artırılmışdır. Bu artımın yüksək ixtisaslı mütəxəssisləri cəlb etmək üçün yetərli olub-olmayacağı sual olaraq qalır. Məlumdur ki, təhsilli və bacarıqlı şəxsin formalaşması müəllimlərin akademik bacarıqlarından, müəllimlik təcrübəsindən və peşəkarlığından asılıdır. 2017-ci ildən etibarən Təhsil Nazirliyi PTT müəssisələrində müəllim heyətinin diaqnostik qiymətləndirilməsini həyata keçirir. Pedaqoji kadrların seçilməsi üçün xüsusi şərt və meyarların, o cümlədən praktik təcrübəsi olan mütəxəssislərin cəlb edilməsinə ehtiyac duyulan ixtisasların müəyyənləşdirilməsi istiqamətində planlar işlənib hazırlanır.

Peşə Təhsili üzrə Dövlət Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə birlikdə, PTT müəllimləri və rəhbər işçiləri üçün təlim proqramı hazırlamışdır. Lakin, son vaxtlara qədər müəllim və təlimçilərin ixtisasartırma kurslarında, seminarlarda və ya təlimlərdə iştirakı çox məhdud olmuş və nəzəri biliklərə yönəldilmişdir. Peşə hazırlığı müəllimləri üçün ixtisasartırma kurslarının keçirilməsi üçün imkanların olmaması və müəssisələrin müəllim hazırlığı sahəsində PTT müəssisələri ilə əməkdaşlığa o qədər də maraq göstərməməsi müəllimlərin ixtisasartırma işinə mənfi təsir göstərir. Eləcə də, PTT müəllimlərinin ixtisasının artırılmasının dəstəklənməsi təşəbbüslərinin əksəriyyəti beynəlxalq layihələr tərəfindən maliyyələşdirilmiş və təşkil edilmişdir.

## Hamı üçün imkan və iştirakın təşviq edilməsi

Əlilliyi olan şəxslər, valideynləri olmayan uşaqlar və digərləri kimi bəzi həssas qruplar üçün PTT imkanlarını artırmaq üçün bir neçə yeni təşəbbüsün tətbiqinə başlanılmışdır. Onlar qəbul imtahanları olmadan PTT müəssisələrinə qəbul edilirlər, pulsuz təhsil alırlar və aylıq 50 manat təqaüd alırlar. Bundan əlavə, inklüziv peşə təhsili prinsiplərinin tətbiqi Texniki və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində sınaqdan keçirilir. Peşə təhsili müəssisələrinə qəbulda şəffaflığı daha yaxşı təmin etmək üçün 2016-cı ildə “ASAN” xidmət Bakı və Gəncədə onlayn qəbul prosedurunu sınaqdan keçirmişdir. 2018-ci ildən etibarən isə PTT müəssisələrinə qəbul prosesi bütün ölkə üzrə “ASAN” xidmət mərkəzləri vasitəsilə təşkil olunur. 2018/2019-cu tədris ilində PTT müəssisələrinə elektron ərizə sistemi vasitəsilə 16 mindən çox müraciət daxil olmuşdur.

Eyni zamanda, Təhsil Nazirliyi dərslik və digər materialların elektron versiyalarının yerləşdirildiyi rəqəmsal tədris materialları platforması yaratmışdır. Kurikulum idarəetmə məlumat sistemi də yaradılmış və “online” resurslarla təchiz edilmişdir. 2018-ci ilin noyabr ayından etibarən PTT tədris materialları da həmin platformaya daxil edilmiş və hər kəs üçün əlçatandır. Təhsil Nazirliyi orta təhsil məktəblərində kurikulumun bir hissəsi olaraq kodlaşdırma və proqramlaşdırma dillərini tanıtmağı hədəfləyən ixtisalar üzrə rəqəmsal pilot proqramının da icrasına başlamışdır. PTT müəssisələri də bütün ixtisas kurikulumları üçün İKT modulunu tətbiq edirlər. Bundan əlavə, rəqəmsal transformasiyanı asanlaşdırmaq məqsədilə hökumət şirkətlərin cəlb edilməsi əsasında texnologiyaların tədrisinin modernləşdirilməsini prioritet məsələ olaraq müəyyən etmişdir.

## Koordinasiya mexanizmlərini gücləndirmək üçün siyasət tədbirləri

Təhsil sisteminin inkişafında müxtəlif maraqlı tərəflərin cəlb edilməsini təşviq etmək məqsədilə Təhsil Nazirliyi yanında dörd daimi şura yaradılmışdır: təhsil və məşğulluq üzrə daimi şura, təhsil və İKT üzrə daimi şura, təhsilin məzmunu və dərsliklər üzrə daimi şura, tələbə və gənclər üzrə daimi şura. Həmin şuralara dövlət qurumlarının, özəl sektorun nümayəndələri, təhsil mütəxəssisləri və digər müvafiq maraqlı tərəflərin nümayəndələri cəlb edilir və məşvərətçi qurum funksiyasını yerinə yetirirlər. Lakin, qeyd olunan daimi şuralarını uğuru müxtəlif maraqlı tərəflərin iştirak etmək istəklərindən və potensialından, həmçinin Təhsil Nazirliyinin prosesə rəhbərlik etmək qabiliyyətindən asılı olacaqdır.

Həm PTT üzrə Yol Xəritəsi, həm də PTT haqqında Qanun işəgötürənlərin PTT sisteminə inteqrasiyasını strateji hədəflərdən biri kimi müəyyənləşdirir və işəgötürənlərlə tərəfdaşlıq ölkənin PTT sisteminin modernləşdirilməsinin əsas şərtlərindən biridir. Təhsil sistemi ilə biznes sektoru arasında daha yaxşı əməkdaşlığın qurulması istiqamətində müəyyən irəliləyişlər əldə edilmişdir. Təhsil Nazirliyi bir neçə iri müəssisə (məsələn, “Azərsun” və “Gilan Holdinq”) ilə əməkdaşlıq haqqında memorandum imzalamışdır. Peşə Təhsili üzrə Dövlət Agentliyi qurumlar, məktəblər və özəl sektor arasında əməkdaşlığa dair 100-dən çox müqavilə bağlasa da, onlar hüquqi öhdəlik yaratmayan müqavilələrdir. Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Alman Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən maliyyələşdirilən və gənclərin məşğulluğunun artırılması və əmək bazarının tələblərinə uyğun kadr hazırlığına dəstək vermək məqsədilə sahibkarlarla peşə təhsili müəssisələri arasında əməkdaşlığı gücləndirməyi hədəfləyən “Peşə təhsili sahəsində əməkdaşlıq layihəsi”ni həyata keçirir.

Donorların koordinasiya etdiyi layihələrin əksəriyyəti, o cümlədən Aİ-nin layihələri də daxil olmaqla donorlar tərəfindən koordinasiya olunan layihələrin əksəriyyəti yeni hazırlanmış kurikulumların bir hissəsi olaraq tədris materiallarının real istehsalat şəraitində mənimsənilməsi (WBL) təcrübəsini pilot fəaliyyət kimi sınaqdan keçirirlər. “British Council” təşkilatı Peşə Təhsili üzrə Dövlət Agentliyi və turizm sektoru ilə əməkdaşlıq etməklə, “Qonaqpərvərlik və şagirdlik” proqramının icrasını davam etdirir. 2018/2019-cu tədris ili ərzində proqram Bakıda, eləcə də Azərbaycanın digər bölgələrində (Qəbələ,

Gəncə, Qusar və İsmayıllı) üç ixtisas (aşpaz, oteldə konsyerj, təsərrüfat işləri üzrə nəzarətçi) üzrə həyata keçirilmişdir. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) "Qəbələ, İsmayıllı və Qax rayonlarında Turizm və Kənd Təsərrüfatı sahələrində duala-bənzər PTT pilotlarının yaradılması" layihəsini həyata keçirir. Qeyd olunan layihələrdən verilmiş məlumatlara əsasən, tədris materiallarının real istehsalat şəraitində mənimsənilməsi (WBL) komponentlərini özündə birləşdirən həmin təşəbbüslər uğurlu olmuşdur. Məzunların 60%-dən çoxu ya şirkətlərdə işçi kimi saxlanılmış və ya sözü gedən sektorda tam ştatlı iş tapmağa müvəffəq olmuşlar. 2025-ci ilədək işəgötürənlər təhsil kurikulumlarının hazırlanmasından maliyyələşmə məsələlərinədək PTT sisteminə tam inteqrasiya olunacaqlar. Bu, PTT üzrə Yol Xəritəsinin də hədəfidir.

**Maliyyə mexanizmlərinə dəyişikliklər etmək istiqamətində siyasət tədbirləri**

PTT müəssisələrinin müstəqilliyini artırmaq məqsədilə 2019-cu ilin fevral ayında Nazirlər Kabineti PTT müəssisələrinin publik hüquqi şəxslərə çevrilməsini və peşə təhsili müəssisələrinə xidmət göstərmək, habelə maliyyə vəsaitlərini idarə etmək baxımından daha çox sərbəstlik verən PTT müəssisələri üçün yeni əsasnaməni təsdiq etmişdir. Müəssisələrin publik hüquqi şəxslərinə çevrilməsi davamlı prosesdir və PTT haqqında Qanuna və yeni əsasnamələrə uyğun tədbirlərin görülməsi üçün vaxt lazımdır. Ümumiyyətlə, PTT müəssisələri fiziki və hüquqi şəxslərə müxtəlif pullu təhsil xidmətləri göstərə və ianə ala bilsələr də, müxtəlif qanuni proseduralar səbəbindən maliyyə qaynaqlarını idarə etmək baxımından məhdud sərbəstliyə malikdirlər. İnfrastrukturun zəif və müəllimlərin bacarıqlarının az olması dövlət PTT müəssisələrinin keyfiyyətli təhsil vermək və əlavə gəlirlər əldə etmək imkanlarını məhdudlaşdırır.

PTT üzrə Yol Xəritəsində vəsaitlərdən səmərəli istifadəni təmin etmək məqsədilə PTT müəssisələri və müəllim heyəti üçün fəaliyyətə əsaslanan müavinətlər verməyi nəzərdə tutan nəticə əsaslı güclü maliyyələşdirmə sistemi yaratmaq məqsəd kimi qarşıya qoyulmuşdur. Nazirlər Kabineti Azərbaycanda fəaliyyət göstərən dövlət PTT müəssisələrinin cari fəaliyyətləri ilə əlaqədar vahid büdcə təsnifatına uyğun olaraq büdcə vəsaitləri ilə bağlı tələbləri müəyyənləşdirən dövlət PTT müəssisələrinin maliyyələşdirilməsinə dair yeni qaydalar təsdiq etmişdir. Aİ-nin Texniki Dəstək layihəsi çərçivəsində, büdcənin formalaşdırılması, maliyyə mənbələrinin müəyyənləşdirilməsi, vəsaitlərin bölgüsü və onların idarə olunması üçün təlimat və metodlar hazırlanmışdır. Bundan əlavə, PTT haqqında Qanunda vəsaitləri şəffaf şəkildə idarə edəcək və PTT müəssisələri arasında bölüşdürəcək Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması nəzərdə tutulur. Fond publik hüquqi şəxs kimi Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərəcək və fəaliyyətlərinə həm özəl, həm də dövlət sektorunun iştirakçılarından ibarət idarəetmə orqanı tərəfindən nəzarət ediləcəkdir. Peşə Təhsili üzrə Dövlət Agentliyi fondun yaradılması üçün layihə variantı hazırlamışdır.

### 3.1.3 Tövsiyələr

**Tövsiyə 1 - İnsan kapitalının inkişafına yönəlik bütün investisiyalarda PTT-ni prioritetləşdirməklə onun cəlbediciliyini artırmaq**

Azərbaycan hökuməti PTT-nin maliyyələşdirməsində islahatların aparılmasının zəruriliyini anlayır və vəsaitlərdən səmərəli istifadəni təmin etmək məqsədilə PTT müəssisələri və müəllim heyəti üçün fəaliyyətə əsaslanan müavinətlər verməyi nəzərdə tutan nəticə əsaslı güclü maliyyələşdirmə sistemi yaratmaq məqsəd kimi qarşıya qoyulmuşdur. İlk addım maliyyə mənbələrini artırmaq və onlardan istifadəni optimallaşdırmaq ola bilər.

Avropa Təhsil Fondu (ETF) resursları şaxələndirməklə, xərclərə əsaslanan yanaşma tətbiq etməklə və vəsaitlərin bölgüsünü, onların idarə edilməsini və monitorinqini yaxşılaşdırmaqla PTT-ni maliyyələşdirmə sisteminə yenidən baxmağı tövsiyə edir.

a) İqtisadi şaxələndirməyə dair iddialı milli planları dəstəkləmək məqsədilə maliyyə mənbələrini şaxələndirməklə qeyri-dövlət resurslarının payını artırmaq. İdeya dövlət siyasətlərindən faydalananların da onlara töhfə verməsidir. Bu töhfə təhsil vergisi və ya məktəblərin mənfəət əldə etməsi kimi bir sıra formalarda ola bilər. İlk variant işəgötürənləri PTT İnkişaf Fondunun yaradılması barədə Peşə Təhsili üzrə Dövlət Agentliyinin təklifinə razı salmaqdan ibarət ola bilərdi. PTT resurslarını artırmağın digər əlavə və operativ yolu tədris materiallarının real istehsalat şəraitində mənimsənilməsi (WBL) təcrübəsinin daha prioritet ixtisaslara tətbiqindən ibarət ola bilərdi. Azərbaycanda praktiki olaraq mövcud olmayan özəl PTT təcrübəsi də inkişaf etdirilməli və prioritet təşkil edən sektorlarda ixtisas boşluğunu aradan qaldırmaq üçün milli səylərə töhfə verilməlidir.

b) Resursların bölgüsü ilə əlaqədar daha çox fəaliyyətyönümlü yanaşmaya keçmək. Hal-hazırda büdcə əvvəlki ilin büdcəsinə nisbətən sadə artım (və ya azalma) ilə təyin olunur (tarixi kvota yanaşması) və bu zaman təhsilverənlərin fəaliyyəti və PTT siyasəti məqsədlərinə çatmaq amili nəzərə alınmır. Siyasətçilər fəaliyyət və siyasət prioritetlərinə (məsələn, qəbul, məzunluq, işədüzəlmə, təhsilin davam etdirilməsi və tədris materiallarının real istehsalat şəraitində mənimsənilməsi (WBL)) əsaslanan maliyyə bölgüsü üçün əsas meyarların müəyyənləşdirilməsi məsələsini nəzərdən keçirməlidirlər. Buraya büdcənin dəqiq və dayanıqlı formalaşdırılmasını və icrasını təmin edən xərclərin hesablanma metodologiyası da aid edilməlidir. Nəticələrin və fəaliyyətlərin xərclərinin müəyyənləşdirilməsi təkcə mənbələrdən istifadəni optimallaşdırmayacaq, həm də siyasət variantlarının şəffaflığını, hesabatlılığını və etibarlılığını artıracaqdır.

c) Yerli əmək bazarı ehtiyaclarına daha yaxşı cavab vermək, innovasiyaları təşviq etmək, resursları optimallaşdırmaq və bununla da cəlbediciliyi artırmaq məqsədilə peşə təhsili müəssisələrinə daha çox maliyyə sərbəstliyi vermək. Bu, məktəblərin idarəçilik potensialının artırılması və müəyyən edilmiş prioritetlər və razılaşdırılmış məqsədlər əsasında hesabatlılıq qaydalarının yenidən nəzərdən keçirilməsi ilə birgə təmin edilməlidir. Bu sərbəstlik resursların maliyyə şaxələndirilməsini də artıracaqdır, belə ki, məktəblər mümkün olduqda xidmət göstərməklə və məhsul təmin etməklə gəlir əldə edə biləcəklər. Aİ-nin qrantları ilə hal-hazırda Gəncə və Cəlilabadda həyata keçirilən peşə təhsili konsepsiyası genişləndirilə biləcək modelə çevrilə bilər.

Nəhayət, Avropa Təhsil Fondu (ETF) Aİ-nin Texniki Yardım layihəsi çərçivəsində hazırlanmış büdcənin formalaşdırılması, maliyyə resurslarının müəyyənləşdirilməsi və vəsaitlərin bölüşdürülməsi və onların idarə olunması qaydaları və metodlarını əsas götürərək bu yeni maliyyələşdirmə mexanizminin həyata keçirilməsini sürətləndirməyi tövsiyə edir. Buraya vəsaitləri idarə edəcək və PTT müəssisələri arasında şəffaf şəkildə bölüşdürəcək Peşə Təhsilinin İnkişafı Fondunun tez bir zamanda yaradılması daxildir. Nəhayət, strategiyalarla faktiki nailiyyətlər arasındakı mövcud boşluğu aradan qaldırmaq, daha çox açıqlığı və şəffaflığı təmin etmək və PTT siyasətinin daha etibarlı olmasını təmin etmək üçün planlaşdırma zamanı həm dövlət, həm də özəl olan (özəl PTT müəssisələrinin və donorların töhfələri də daxil olmaqla) müxtəlif maliyyələşdirmə resursları nəzərə alınmalıdır.

### Tövsiyə 2 - Özəl sektorun iştirakını artırmaqla PTT-nin insan kapitalının inkişafı baxımından uyğunluğunu artırmaq

PTT üzrə Yol Xəritəsində işəgötürənlərlə tərəfdaşlığın Azərbaycanın PTT sisteminin müasir səviyyəyə qaldırılmasının əsas şərtlərindən biri olduğu vurğulanır və 2025-ci ilədək işəgötürənlərin təhsil kurikulumlarının hazırlanmasından maliyyələşmə məsələlərinədək PTT sisteminə tam inteqrasiya olunacağı nəzərdə tutulur. Turin Prosesi üzrə milli hesabatda da qeyd edildiyi kimi, mövcud mərkəzləşdirilmiş idarəetmə Azərbaycanda PTT-nin səmərəliliyinə mane olan əsas amillərdən biridir.

Avropa Təhsil Fondu (ETF) real sosial-iqtisadi ehtiyaclara səmərəli cavab vermək və gənclər və müəssisələr üçün cəlbediciliyi artırmaq üçün potensialın yaxşılaşdırılmasını təmin edən çox səviyyəli və çoxtərəfli idarəetmə ekosisteminə şərait yaratmaqla bu məsələnin həllinə hərtərəfli və ardıcıl yanaşmanı tövsiyə edir. Milli qurumlar işəgötürənlərin PTT siyasət siklinə cəlb edilməsi üçün motivasiyaedici tədbirlər və spesifik siyasət mexanizmləri müəyyənləşdirməlidirlər. Bu, siyasətin planlaşdırılmasından həyata keçirilməsinə və monitorinqinə, o cümlədən əmək bazarının real ehtiyaclarına uyğun peşə standartları və kurikulumların işlənib hazırlanmasına, eləcə də PTT sisteminin idarə olunmasında fəal iştirakadək geniş olmalıdır.

Bunun üçün təkcə milli səviyyədə deyil, həm də sektor və yerli səviyyədə ayrı-ayrı iştirakçılar arasında sıx əməkdaşlıq və koordinasiya tələb olunur. Bu idarəetmə mexanizmləri bir çox formada ola bilər:

a) Milli səviyyədə: Peşə təhsilinə dair siyasətlərin koordinasiyasını təkmilləşdirmək üçün PTT müəssisəsi, işəgötürənlər və işçilərin nümayəndələrindən ibarət yüksək səviyyəli, üçtərəfli milli PTT qurumu/şurası yaratmaq tələb olunur. Onun səlahiyyətləri və funksiyaları PTT siyasətini birgə əməkdaşlıq əsasında müəyyənləşdirmək, monitorinq etmək və qiymətləndirmək məqsədilə müzakirə olunmalı və razılaşdırılmalıdır. Avropa Təhsil Fondu (ETF) PTT sistemində pay sahibi olan dövlət qurumları arasında əməkdaşlığı yaxşılaşdırmaq və siyasət ayrılıqlarının və toqquşmalarının qarşısını almaq məqsədilə ümumi PTT sistemini idarə etmək səlahiyyəti olan vahid, milli PTT qurumu yaratmağı tövsiyə edir. Həmin qurum strateji istiqamətlilik baxımından PTT ali şurası tərəfindən dəstəklənə bilərdi.

b) Sektor səviyyəsində: İxtisaslar üzrə sektor şuraları işəgötürənlərin siyasətlərin işlənib hazırlanmasına cəlb edilməsinin səmərəli üsuludur. İxtisaslar üzrə sektor şuraları prioritet iqtisadi sektorlarda müstəqil işəgötürənlərin rəhbərlik etdiyi təşkilatlar kimi tədricən qurulmalıdır. İxtisaslarla bağlı gözləntilər, ixtisas boşluqları və çatışmazlıqlarının azaldılması və peşə standartlarının hazırlanması və idarə olunması ilə bağlı funksiyaları ilə yanaşı, ixtisaslar üzrə sektor şuraları işəgötürənin tələbi ilə idarə olunan ixtisas sistemi qurmağa səy göstərəcəklər. ƏƏSMN-nin 2018–25-ci illər üçün Peşə Standartları üzrə Fəaliyyət Planı bu təşəbbüsün həyata keçirilməsi üçün əsas ola bilər. Həmin planda ixtisaslar üzrə sektor şuraları üçün daha aktiv funksiyalar nəzərdə tutulur.

c) Yerli səviyyədə: Bir müddət əvvəl milli hökumət orqanları tərəfindən hazırlanmış və təsdiqlənmiş (Aİ-nin qrant proqramı çərçivəsində) Gəncə və Cəlilabadda təlim mərkəzlərinin əsasnamələrində həmin mərkəzlərə daha çox maliyyə və idarəetmə müstəqilliyi verilir və həm ilkin və davamlı təhsil baxımından, həm də informal və qeyri-formal təhsilin təsdiqlənməsi (VNFIL) baxımından işəgötürənlərin məktəblərin inkişafında fəal iştirakı nəzərdə tutulur. Həmin mərkəzlər ixtisas tələbatlarını daha yaxşı müəyyənləşdirmək və proqnozlaşdırmaq və informal və qeyri-formal təhsilin təsdiqlənməsini (VNFIL) daha çox təmin etmək məqsədilə regionlardakı bir sıra müəssisələrlə anlaşma memorandumu imzalamışlar. Bu təşəbbüslə əlaqədar yaranan dinamikanı dəstəkləmək və məktəb şəbəkələri və əməkdaşlıq yolu ilə digər məktəblərə də yaymaq lazımdır. Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi, xüsusilə hal-hazırda formalaşdırılmaqda olan dövlət-özəl tərəfdaşlıq mexanizmləri vasitəsilə davamlılığı və dayanıqlılığı daim təmin etməlidir.

Təhsil/şirkət tərəfdaşlıqları və əməkdaşlıq formatlarının əhəmiyyəti haqqında ümumi anlayış təhsil müəssisələri, işəgötürənlər, gənclər və geniş ictimaiyyət üçün maarifləndirmə kampaniyaları keçirmək, uğur hekayələri təqdim etmək və bu tərəfdaşlıqdan bütün tərəflərin əldə edə biləcəkləri faydaları vurğulamaqla yaxşılaşdırıla bilər. Yerli səviyyədə olduqca səmərəli dövlət-özəl tərəfdaşlıq təşəbbüsləri həyata keçirilmişdir (məsələn, Cəlilabad və Gəncədə) və onları daha da möhkəmləndirmək,

strukturlaşdırmaq və genişləndirmək tələb olunur. Eyni fikirləri özəl sektorla əməkdaşlığın konkret yolu kimi tədris materiallarının real istehsalat şəraitində mənimsənilməsi (WBL)) haqqında da söyləmək olar.

Beləliklə, Avropa Təhsil Fondu (ETF) milli hakimiyyət orqanlarına əmək bazarının real ehtiyaclarına uyğun olmaqla işəgötürənlərin və özəl sektorun PTT standartlarının, kurikulumların (yenidən) hazırlanması və icrasına cəlb edilməsi məqsədilə stimul və spesifik siyasət mexanizmləri yaratmağı tövsiyə edir. İnsan kapitalının uğurlu inkişaf siyasəti yalnız milli səviyyədə deyil, həm də regional və yerli səviyyələrdə, eləcə də müxtəlif maraqlı tərəflər arasında dövlət sektorunun şaquli koordinasiyasını tələb edir. İşəgötürənlərin PTT məzmunun hazırlanmasında və həyata keçirilməsində iştirakı, məsələn, bir sıra Aİ ölkələrində iqtisadiyyatın müxtəlif sahələrinin və sektorlarının tələbatlarına yönəlik PTT məzmununun hazırlanması üçün həlledici olmaqla, daha çox şirkəti, xüsusilə KOM-ları PTT məzmununun hazırlanması üçün həlledici olan sektor birliklərində iştirak etməyə həvəsləndirməklə artırıla bilər.

### Tövsiyə 3 – PTT sistemində çalışan peşəkar işçilər üçün şərtləri yaxşılaşdırmaqla ixtisasvermənin keyfiyyətini artırmaq

Turin Prosesi üzrə Milli Hesabatda PTT-də müəllim kadrlarının hazırlanmasına dair əhatəli siyasətin olmamasının PTT sisteminin keyfiyyətinə və beləliklə cəlbediciliyinə mənfi təsir göstərdiyi vurğulanmışdır. Həmçinin hesabatda qeyd olunur ki, peşə təhsili sahəsində yüksək nailiyyətlərə nail olmaq və məktəblərə daha çox müstəqillik vermək baxımından PTT üzrə məsul qurumlara dəstək olmaq üçün məktəb idarəçiliyi təkmilləşdirilməlidir.

Avropa Təhsil Fondu (ETF) PTT müəllimləri və ustaları üçün peşə standartlarının təkmilləşdirilməsini və optimallaşdırılmasını və PTT personalı üçün karyera və peşəkar inkişaf planları hazırlamağı tövsiyə edir. Söhbət daha yüksək peşə standartının təşviq edilməsi və müvafiq peşə bacarıqlarının formalaşdırılmasına xüsusi diqqət yetirməklə karyera inkişafı sxemlərinin tətbiqi baxımından müəllimlər və digər peşəkar işçilər üçün siyasət və tələblərin təkmilləşdirilməsi və optimallaşdırılmasından gedir. Eyni zamanda, Azərbaycan şirkət və müəssisələrin rəsmi müəllimlik ixtisası olmayan mütəxəssislərinin dərs keçməsinə imkan vermək barədə düşünə bilərdi. Bundan əlavə, müəllimlik peşəsinin nüfuzunu artırmaq, o cümlədən vəzifəyə yüksəlmə və karyera inkişafı sisteminin yaradılması istiqamətində tədbirlər görmək tələb olunur. Müəllim heyəti və şirkətlər arasında mütəxəssis biliklərinin və ən qabaqcıl təcrübələrin paylaşılması daha çox stimullaşdırılmalıdır.

Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi həm də müəllimlərin peşəkar inkişaf prosesini asanlaşdırmaq və daha yaxşı və müvafiq işə qəbul siyasətini həyata keçirmək üçün təlim mərkəzlərinin yaradılması işini sürətləndirməli və genişləndirməlidir. Peşə təhsili və təliminin inkişafına dair son vaxtlar qəbul edilmiş əsasnamələr tətbiq edilməlidir. Bunun üçün, xüsusən də potensialın artırılması və maarifləndirmə və məktəb rəhbərlərinin daha ciddi işə qəbul siyasəti vasitəsilə mövcud məktəb rəhbərliyinə investisiya lazımdır.

### Tövsiyə 4 - Daha məqsədyönlü ixtisas siyasətinin formalaşdırılması üçün faktlara əsaslanan siyasət prinsipləri hazırlamaq

Dövlət orqanlarının ixtisasvermə sahəsində siyasət sənədlərinin təhlili, hazırlanması, planlaşdırılması, monitorinqi və həyata keçirilməsi istiqamətində fakt toplamaq və onlardan istifadə etmək imkanlarının artırılması həmin siyasətlərin effektivliyini və səmərəliliyini qiymətləndirmək baxımından vacib şərtlərdən biridir.

Daha çox məqsədyönlü ixtisasvermə siyasətinin işlənib hazırlanması üçün PTT müəssisələri, proqramları və məzunları haqqında geniş məlumatlara ehtiyac duyulur. Məktəblərə qəbulla bağlı inzibati məlumatlar mövcud olsa da, sorğu məlumatları və PTT sahəsində uzunmüddətli təhlillər mövcud deyil. Daha məqsədyönlü siyasət yanaşması daha mürəkkəb planlaşdırma ilə əlaqədar məlumat təmin edən və təlimin əmək bazarına uyğun olub-olmadığını göstərən analitik vasitələrdən (məsələn, məzunlarla bağlı aparılan araşdırmalardan və işəgötürənlərlə sorğulardan) istifadə etmək tələb olunur.

Daha məqsədyönlü siyasətə keçid məlumatların toplanması və təhlili bacarıqlarının artırılmasını tələb edəcəkdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yeni yaradılmış Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya bu baxımdan mühüm addımlardandır və məlumatların təhlilinin dayanıqlığını və keyfiyyətini təmin etmək üçün həm maliyyə, həm də insan resursları ilə adekvat şəkildə təmin edilməlidir.

## 3.2 Gənclər arasında işsizlik səbəbindən insan kapitalı itkisinin qarşısının alınması

### 3.2.1 Mühüm məsələlərin araşdırılması

Beynəlxalq təcrübə göstərir ki, gənclər arasında işsizlik  və iş yerlərinin olmaması (xüsusilə də uzun müddət sürdükdə) bu cür çətinliklərdən keçən gənclərin məşğulluq və əmək perspektivlərinə uzunmüddətli mənfi təsirlərlə yanaşı, həm də cinayətkarlığın daha yüksək olması, ümumi psixoloji sarsıntılar və işsizliyin müddəti ilə qeyri-mütənasib şəkildə artan mənfi fiziki və psixoloji sağlamlıq nəticələri ilə müşayiət olunur. Uzun müddətli işsizlik həm də gənc işçilərin bacarıqlarını korlayır, iş qabiliyyətliliyini azaldır, uzunmüddətli insan kapitalı itkisinə səbəb olur və işsizliyin dayanıqlı olmasına səbəb olur (O'Higgins, 2010).

Hökumət gənclər arasında işsizliyin artmasının əmək bazarında müşahidə olunan əsas problemlərdən biri olduğunu etiraf edir (Məşğulluq Strategiyası 2019–2030). Son illərdə gənclər arasında işsizlik durmadan azalsa da, yenə də ümumi işsizlik səviyyəsi ilə müqayisədə qat-qat yüksəkdir. Gənclər arasında işsizlik nisbəti 2010-cu ildəki 14,9%-dən 2018-ci ildə 12,7%-ə enmişdir ki, bu da ümumi işsizlik səviyyəsindən 2,6 dəfə çoxdur. Gənc qadınlar arasında işsizlik gənc kişilərə nisbətən daha yüksəkdir (2018-ci ildə müvafiq olaraq 14,7% və 11%). Təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan (NEETs) gənclərin də faizi yüksəkdir və 2017-ci ildə 23%-ə çatmışdır. Təhsil almamaq, işləməmək və ya peşə təliminə cəlb olunmamaq qadınlar arasında daha çoxdur.

Ümumiyyətlə, gənc kişilərə nisbətən gənc qadınların əmək bazarında vəziyyəti daha həssasdır. Buna gənc qadınlar üçün peşə məşğulluğunun əhəmiyyətinə kölgə salan və onları işəgötürənlərin nəzərində etibarsız və "ikinci dərəcəli" vəziyyətə gətirən cəmiyyətdəki gender rolları ilə bağlı fikirlər daha çox təsir edir. Nəticədə iş axtaran gənc qadınlar ikiqat ayrı-seçkiliyə məruz qalırlar: cinsinə və yaşına görə (Baskakova, 2012). Digər bir mühüm amil, qızlar, adətən, daha məhdud təhsil sahələrinə maraq göstərdikləri üçün ixtisas seçimi və peşə təhsilində ixtisasların tələbələr arasında qadın və kişi peşələri kimi bölgüsüdür. Bu sonradan onların özəl sektorda məşğulluq imkanlarını məhdudlaşdırır və yeni, yüksək maaşlı işlərə qəbul imkanlarını məhdudlaşdırır. Valideynlər ümumiyyətlə qızların peşə və ya ali təhsil arasında seçim eyməsində güclü, həlledici rol oynayırlar. Qızlar bəzən valideynlər tərəfindən birincisi, "qadınlara uyğun olan" ("müəllimlik" ən çox uyğun görülən peşədir), ikincisi, ailə məsuliyyətlərini tam şəkildə həyata keçirməyə imkan verən "uyğun" iş məhdudiyyətlərinə əsaslanan sahə seçməyə təşviq olunurlar. (BMTİP, 2018).

İş axtararkən gənclər böyüklərlə müqayisədə daha çox çətinliklərlə üzləşirlər. Karyeralarının başlanğıcında, onların çox vaxt həm iş təcrübəsi, həm də iş axtarmaq təcrübəsi olmur. Ümumiyyətlə, orta təhsildən sonra universitetə qəbul ola bilməyən gənclər (əsasən oğlanlar) iş axtarmağa başlayırlar. Bununla belə, onların çoxu bacarıqlara sahib olmurlar və işəgötürənlər tərəfindən tələb olunan praktik təcrübələri az olur və ya ümumiyyətlə olmur, həm də nisbətən yüksək əməkhaqqı gözləntiləri olur (Hacıyev, 2017). Beləliklə, bir çox gənc çox vaxt iş təcrübəsi olmadan işə düzəlməyin və işəgötürənlər tərəfindən iş təcrübəsi olmadan işə götürülmədikdə praktiki təcrübə qazanmağın çətin olduğu çıxılmaz vəziyyətə düşür. Onlar, həmçinin öz ixtisaslarına uyğun və yaşayış yerlərinə yaxın iş tapmaqda çətinliklərlə üzləşirlər.

Karyera və peşə məsləhəti xidmətinin olmaması uzun müddət iş axtarışlarına səbəb olur. Bundan əlavə, işə qəbul təcrübələri qərəzlidir və qohumlar və ya tanışlar işə götürülür. Dövlət Statistika Komitəsinin 2016-cı ildə apardığı İşçi Qüvvəsinin Təhlilinə əsasən, Azərbaycanda gənclərin əksəriyyəti dostlar və qohumlar (35,4%) və ictimai elanlar (29,4%) vasitəsilə iş tapırlar. Daha az hallarda gənclər dövlət məşğulluq xidmətlərindən və özəl məşğulluq agentliklərindən istifadə edirlər. Təhsil müəssisələri və dövlət məşğulluq xidmətləri tərəfindən iş axtarışına dəstək olduqca məhduddur (müvafiq olaraq 8,9% və 8,4%) (Avropa Təhsil Fondu (ETF), 2018). Bu vəziyyət qismən cəmiyyətə mövcud olan etimad paradiqmasını əks etdirir, çünki insanlar dövlət qurumlarından çox, ailələrinə və dostlarına güvənirlər.

Beləliklə, xeyli sayda gənc qismən məşğul, işsiz, iş axtaran və ya şəxsi və peşə hazırlığı imkanları olmadan iş axtarışındadırlar. Bundan əlavə, gənclərin əldə etdikləri işlərin keyfiyyəti narahatlığa səbəb olaraq qalır, çünki qeyri-rəsmi, az maaşlı və aşağı ixtisaslı işlərdə həddən artıq çalışırlar, yəni sosial təminat imkanlarından, əsas əmək hüquqlarından istifadə etmirlər və karyera yüksəlişinə nail olmaq perspektivləri yoxdur. Bu dövrlərdə layiqli əmək olmadan gənclərin tələbə olarkən qazandıqları bacarıqlar itir və iqtisadi dəyərdən düşür.

Eyni zamanda, gənclər yaşlı əhaliyə nisbətən daha çevik və daha təhsillidirlər. Onlar özünüməşğulluq və sahibkarlıq təşəbbüsləri də daxil olmaqla, əmək bazarında daha mobildirlər və iş aləmində baş verən dəyişikliklərə uyğunlaşmaq və yeni vəziyyətlərə və texnologiyalara uyğun bacarıqlar qazanmaq baxımından daha böyük qabiliyyət nümayiş etdirirlər.

Bir tərəfdən, texnoloji nailiyyətlər və işlərin mahiyyətinin dəyişməsi yeni məşğulluq və sahibkarlıq imkanları yaratsa da, digər tərəfdən isə, bir çox ənənəvi iş yerləri riskə məruz qalır və əmək bazarında rəqabətə tab gətirmək üçün bacarıqların davamlı şəkildə artırılmasına daha çox ehtiyac yaranır. Bununla belə, qabaqcıl texnologiyalardan və müvafiq təlimlərdən bəhrələnmək imkanları qeyri-bərabər olduğundan, nəticədə həssas gənclərin kənarda qalmasına səbəb olur. Bu isə gənclərdə məktəbdən işə keçid mərhələsində müvafiq bacarıqlar aşılamaq üçün siyasət tədbirləri görməyi tələb edir.

Avropa Təhsil Fondu (ETF) tərəfindən gənclərlə bağlı siyasət sənədlərini təhlili gənclərin hədəf qruplarının həmin sənədlərdən bəhrələnməsi baxımından məhdudiyyətlərin olduğunu göstərmişdir (Avropa Təhsil Fondu (ETF), 2018). Gənclərin keçidini birbaşa dəstəkləyən tədbirlərin sayı kifayət qədər məhduddur. Üstəlik, gənclərlə əlaqəli mövcud proqramların benefisiarlarının sayı çox azdır və bu həmi proqramların əhatəliliyinin az olmasını və əmək bazarına təsirinin məhdud olduğunu göstərir. Məsələn, 2018-ci ildə Dövlət Məşğulluq Xidməti tərəfindən 2559 nəfər peşə təlimi kurslarına cəlb edilmişdir ki, onların da yarısı gənclərdir. Bununla belə, gənclərin real təlim ehtiyaclarını nəzərə aldıqda bu rəqəm olduqca az görünür. Onlar peşə təlimlərinə cəlb olunmaq üçün uzun müddət gözləmək məcburiyyətindədirlər və bunun da əlavə mənfi təsiri vardır.

### 3.2.2 Yerlərdə həyata keçirilən müxtəlif siyasət tədbirləri

**Təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan şəxslərin (NEETs) payını azaltmağa yönəlik milli hədəflər və siyasətlər**

Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə imzalanmış 2016–2020-ci illər üzrə Layiqli İş Proqramına uyğun olaraq gənclərin məşğulluğunun artırılması istiqamətində mühüm addımlar atılır. "Azərbaycan Gəncliyi 2016–2021-ci illərdə" dövlət proqramı gənclərin təhsilinə və məşğulluğuna yönəlmişdir və ixtisasartırma, karyera məsləhəti və sahibkarlıq mövzularını əhatə edir. Lakin, sənəd çərçivə sənədi olduğundan konkret fəaliyyət və ya göstəricilər sənəddə yer almamışdır. İrəliyə atılmış mühüm addım konkret milli hədəflərin müəyyənləşdirildiyi yeni Məşğulluq Strategiyasıdır. 2018-ci ildə qəbul edilmiş Məşğulluq Strategiyasında gənclərlə bağlı mühüm hədəflər müəyyənləşdirilmişdir ki, bu da 2030-cu ilədək təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan (NEETs) gənclərin, yəni 15 yaşdan 24 yaşadək olan şəxslərin payını 15%-ə endirməyi nəzərdə tutur. 2017-ci ildə bu rəqəm 23% təşkil etmişdir.

Məşğulluq haqqında Qanunla (2018) məşğulluğun təşviqi sahəsində dövlət siyasətinin iqtisadi və təşkilati əsasları təsbit edilmiş və gənclərin əmək bazarına inteqrasiyası fəal əmək bazarı proqramlarının (ALMP) məqsədlərindən biri kimi müəyyən edilmişdir. ƏƏSMN qanunun səmərəli icrasını təmin etmək üçün ikinci dərəcəli qanunvericiliyin hazırlanması üzərində fəal iş aparır. Hazırda ƏƏSMN-nin nəzdində fəaliyyət göstərən Dövlət məşğulluq Xidməti 80 məşğulluq mərkəzi və üç regional peşə təlimi mərkəzi (Bakı, Naxçıvan və Göyçayda) vasitəsilə fəal əmək bazarı proqramlarını (ALMP) həyata keçirir. Dövlət məşğulluq Xidməti işsizlərin qeydiyyatını aparır və iş axtaranlara məşğulluq xidmətləri təmin edir. 2018-ci ildə iş tapmaqda kömək üçün ümumilikdə 119230 iş axtaran məşğulluq idarələrinə müraciət etmiş, onlardan 51774 nəfəri işlə təmin olunmuşdur. Bununla belə məşğulluq mərkəzlərində qeydiyyat göstəricisi aşağıdır və xidmətlərdən istifadə imkanları məhduddur. Dövlət məşğulluq Xidməti potensial benefisiarların az bir hissəsini əhatə edir, çünki bir çox gənc, məsələn, təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan (NEETs) gənclər və kənd yerlərində yaşayan gənclər adətən bu xidmətdə qeydiyyatdan keçmirlər. "Yaxşı mütəxəssis məşğulluq mərkəzlərinə müraciət etməz" kimi konkret stereotip hökm sürür. Beləliklə, məşğulluq mərkəzləri adətən aşağı bacarıq səviyyəsi olan gənclərə, yəni ümumtəhsil məktəblərinin məzunlarına xidmət göstərirlər.

2019-cu ildə ƏƏSMN daha şəffaf və əlçatan məşğulluq xidmətlərini təşviq etmək məqsədilə özünün mərkəzləşdirilmiş elektron informasiya sisteminin bir hissəsi olaraq yeni məşğulluq alt-sistemini istifadəyə vermişdir. Alt-sistem məşğulluq mərkəzinə müraciət etmədən məşğulluqla əlaqədar xidmətləri elektron şəkildə təqdim etməyə imkan verir. Alt-sistem yeni iş yerləri üçün elektron məlumat mənbəyi olaraq vakansiya bankı da yaratmışdır. Sistem iş axtaranlar üçün məşğulluq imkanları haqqında məlumatlar da daxil olmaqla məşğulluq xidmətləri haqqında məlumatlara real vaxt rejimində çıxış təmin edir.

**Gənclər üçün karyera məsləhəti mühüm siyasət tədbirlərindən biri kimi**

Gənclərin Məşğulluq Proqramı və ƏƏSMN-nin Gənclər Fondu 2019-cu ilin aprel ayında fəaliyyətə başlamışdır. Məqsəd gənclərə uğurlu karyera qurmaqda (iş tapmaqda) kömək etmək, əlavə iş yerlərinin yaradılması (xüsusilə bölgələrdə) və əmək bazarında rəqabətin artırılmasıdır. Proqramda peşə və ali təhsil müəssisələrinin 29 yaşadək məzunları iştirak edə biləcəklər. Onlarla minimum bir illik əmək müqaviləsi bağlanacaq və müəyyən müddət ərzində Gənclər Fondu tərəfindən maliyyələşdiriləcəklər. Karyera planlaşdırma fəaliyyətlərində və peşə təhsilində iştirak etmək imkanları da yaradılacaqdır. Sosial həssas qruplardan (əlillər, məcburi köçkünlər və s.) olan gənclərə, bölgələrdə yaşayan və iş təcrübəsi olmayanlara üstünlük veriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu gənclər siyasəti ilə əlaqədar elm, təhsil, mədəniyyət və digər sosial sahələrdə fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır. Fond dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, QHT və beynəlxalq təşkilatlarla əməkdaşlıq əsasında fəaliyyət göstərir. Fond 16-29 yaş arası gənclərlə işləyən, onların beynəlxalq konfrans və tədbirlərdə iştirakını dəstəkləyən yerli QHT-lər üçün qrant ayırır. Sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı gənclər də təhsil xərclərini ödəmək üçün Fonddan maliyyə dəstəyi alacaqlar. Əsas meyarlar gənc tələbənin dərsə davamiyyəti, təhsil göstəriciləri və həssas qrupla əlaqəsinin olmasıdır. Bu cür vəsaitləri almaq üçün 16-29 yaş arası və PTT müəssisələrinə qəbul olmuş şagird və tələbələr də müraciət edə bilər.

Gənclər şəxsi və peşə inkişafı ilə bağlı müxtəlif mövzularda təlim alması üçün Gənclər Fondu tərəfindən Bakıda və bölgələrdə Gənclərin İnkişafı və Karyera Mərkəzləri yaradılmışdır. Bu mərkəzlərdən bəziləri, xüsusən də bölgələrdə yerləşən mərkəzlərdə də peşə ixtisaslarına dair təlimlər keçiləcəkdir. Prezident İlham Əliyev Gənclər Fondunun fəaliyyətlərini dəstəkləmək məqsədilə əlavə tədbirlər haqqında fərman imzalamış və ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər Fonduna 4.0 (dörd) milyon manat vəsait ayırmışdır. Fond, 2020-ci ilin aprel ayınadək bütün ölkədə 50-yə yaxın Gənclərin İnkişaf və Karyera Mərkəzi yaratmağı planlaşdırır.

Xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə 2019-cu ilin iyununda Nazirlər Kabineti peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi haqqında yeni qaydaları təsdiqləmişdir. Qaydalarda mövcud iş və texniki-peşə təhsili ilə bağlı təlim imkanları barədə məlumat və dəstək vermək, gənclərin (təhsil müəssisələrinin tələbələri və şagirdlərinin), işləyən və işsiz şəxslərin maraq və sosial-psixoloji xüsusiyyətləri, peşə, bilik, bacarıq və səriştələri, sağlamlıq vəziyyəti nəzərə alınaraq, əmək bazarının tələbatı əsasında onlara iş yeri və peşə seçimində köməklik göstərmək məqsədilə peşəyönümünə dair məsləhət xidmətlərinin əhatə dairəsi və prosedurları müəyyən edilmişdir. Təhsilini davam etdirən gənclərə peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi işinə Dövlət Məşğulluq Xidməti də cəlb edilmişdir. Məsələn, Dövlət Məşğulluq Xidməti gənclərə işəgötürənlərlə ilkin əlaqə qurmağa və onların əmək bazarına inteqrasiyasına kömək etmək məqsədilə "karyeranızda ilk addım" şüarı altında tələbə və məzunlar üçün aparıcı universitetlərdə keçirilən tədbirlər daxil olmaqla əmək yarmarkaları təşkil edir. Dövlət Məşğulluq Xidməti, demək olar ki, bütün şəhər və rayon ümumtəhsil məktəblərində peşəkar psixoloqların və peşəyönümünə dair məsləhət xidməti mütəxəssislərinin iştirakı ilə uşaqlarının peşə seçməsində valideynlərin roluna dair interaktiv seminarlar təşkil edir. 2018-ci ildə ümumilikdə 118138 gənc peşəyönümünə dair məsləhətlərdən bəhrələnmişdir. Ümumiyyətlə isə, peşəyönümünə dair məsləhət xidmətləri məhduddur və daha uzunmüddətli karyera inkişafına və karyera planlaşdırmasına deyil, daha çox qısamüddətli məşğulluq imkanlarına yönəlmişdir.

Peşə Təhsili üzrə Dövlət Agentliyi orta məktəblərdə PTT müəssisələri ilə əlaqə yaratmaq üçün məsul işçilər təyin etmişdir. Həmçinin, PTT müəssisələri orta məktəb şagirdləri və ailələri üçün peşə proqramları və müvafiq ixtisaslar barədə məlumat vermək üçün açıq günlər təşkil edirlər. Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq şöbəsi beynəlxalq əməkdaşlıq proqramları hazırlayır, PTT-in səmərəliliyini artırmaq üçün işəgötürənlərlə əməkdaşlıq edir və PTT-ni təşviq edir və PTT ilə -lə bağlı maarifləndirmə tədbirləri həyata keçirir.

**Gənclərin ali təhsil proqramlarında iştirakının yaxşılaşdırmaq məqsədi daşıyan siyasətlər**

Ali təhsil imkanları gənc insanlara gəldikdə insan kapitalının inkişafı siyasətinin olduqca mühüm elementlərindən biridir. 2005-ci ildə Bolonya Prosesinə qoşulduqdan sonra Azərbaycan ali təhsil sektorunu Avropa standartlarına uyğun yenidən qurmaq üçün bir sıra islahatlar həyata keçirmişdir. Bu islahatların bəziləri özəl qurumlar üçün faydalı olmuşdur. Məsələn, ilk dəfə 2010-cu ildə özəl universitetlər dövlət tərəfindən maliyyələşdirilən vauçer proqramına qoşulmaq imkanı əldə etmişlər. Burada yüksək nailiyyətli tələbə özəl universitetləri seçib təhsilinin dövlət tərəfindən maliyyələşdirilməsinə nail ola bilər. 2015-ci ildə qəbul edilmiş Təhsilin İnkişafına dair Dövlət Strategiyasının həyata keçirilməsinə dair Fəaliyyət Planında qeyd olunduğu kimi, hökumət dövlət tərəfindən idarə olunan ali təhsil sistemindən ali təhsilə tələb-təklifin tələbələr və ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirildiyi ali təhsil özünüidarə prinsipinə keçməyi hədəfləyir. ABŞ-da SAT kimi Təhsil Test Xidməti tərəfindən idarə olunan oxşar qəbul imtahanlarının ödənişli olması ali təhsilin liberallaşdırılması hərəkatının tərkib hissəsi kimi nəzərdən keçirilir (Abbasov və Cəfərli, 2018).

Hazırda nəzərə çarpan müəyyən irəliləyişlər əldə olunmuşdur. Ali və orta peşə təhsili müəssisələrinə ümumi qəbul göstəricisi 27%-ə yüksəlsə də (peşə təhsili üzrə 4% və ali təhsil üzrə 23%), bu göstərici qonşu Gürcüstandan (51,8%) və Ermənistandan (51,2%) hələ də kifayət qədər aşağıdır (UNESCO-nun Statistika İnstitutu (UIS), 2016). Ümumiyyətlə, ali və orta peşə təhsili sistemini modernləşdirmək və şaxələndirmək cəhdlərinə baxmayaraq, hər ali təhsil ocağında yerlərin dəqiq sayı Nazirlər Kabineti tərəfindən illik olaraq təsdiqlənsə belə, hələ də əsasən dövlət tərəfindən idarə olunur. Bu səbəbdən, ayrı-ayrı ali təhsil müəssisələri ilə yanaşı bir sıra aparıcı maraqlı tərəflərin - Nazirlər Kabinetinin, Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin cəlb olunduğunu nəzərə alsaq, ali təhsil sahəsində yeni islahatların aparılması və dəyişikliklərin edilməsinin çətin iş olduğunu söyləmək olar (Abbasov və Caraflı, 2018).

### 3.2.3 Tövsiyələr

**Tövsiyə 5 - Daha çox gənclərin tələbatları nəzərə alınmaqla əmək bazarında iştirakı dəstəkləyən xidmətlər və təlim imkanları yaratmaq**

Gənclər arasında işsizlik Azərbaycanda mövcud olan problemli məsələlərdən biridir. Gənclər müxtəlif həssas qruplardan, o cümlədən gənc qadınlar, aşağı ixtisaslı gənclər, məktəbi yarımçıq buraxanlar, iş təcrübəsinin olmaması səbəbindən əmək bazarına girməkdə çətinlik çəkənlər, kənd yerlərində yaşayanlar və məcburi köçkünlərdən ibarətdirlər.

Ölkənin gənclərin iştirakını dəstəkləyən səylərinə uyğun olaraq (BƏT ilə 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı, “Azərbaycan Gəncliyi 2016–2021-ci illərdə” dövlət proqramı, fəal əmək bazarı proqramları (ALMP), özünüməşğulluq təşəbbüsləri və s.), Avropa Təhsil Fondu (ETF) gənclərə diqqəti ölkənin əsas əmək bazarı siyasətinin tərkib hissəsinə çevirməklə və daha çox gənclərin mənafeyinə uyğun və cəlbedici olan xidmətlər və təlim təkliflərini əhatə etməklə gənclərin məşğulluq siyasətlərini daha da təkmilləşdirməyi və uyğunlaşdırmağı tövsiyə edir.

Xüsusilə, Avropa Təhsil Fondu (ETF) gənclərə dəstək tədbirlərini müxtəlif qrupların, xüsusilə də əlilliyi olan gənclərin spesifik ehtiyaclarına uyğunlaşdırmaqla təkmilləşdirməyi tövsiyə edir. Avropa Təhsil Fondu (ETF) həmçinin hədəf qruplarının əhatə olunması və müxtəlif ehtiyac və gözləntilərin təmin edilməsi ilə əlaqədar çətin işlərin öhdəsindən gəlmək üçün Dövlət Məşğulluq Xidməti əməkdaşlarının peşəkar inkişafına investisiya qoymağı tövsiyə edir.

**Tövsiyə 6 - Orta təhsildə, xüsusilə də PTT sahəsində erkən karyera oriyentasiyasının keyfiyyətini və aktuallığını artırmaq**

Turin Prosesinə dair Milli hesabatda qeyd edildiyi kimi, PTT məzunlarının əmək bazarına daxil olmasını əngəlləyən amillərdən biri də ixtisas seçimidir. Dövlət proqramlarında sənaye, inşaat, nəqliyyat, İKT-nin və digər sahələrin inkişafı təşviq edilsə də, ya həmin sahələrə aid ixtisaslarda oxuyan tələbələrin, ya da məzun olduqdan sonra onların praktiki bilik və ya məşğulluq imkanları əldə edə biləcəkləri müəssisələrin sayı az olur.

Bir çox gənc, xüsusilə də yoxsul və imkansız ailələrin uşaqları və kənd yerlərindən olan gənclər əmək bazarı barədə məsləhət və məlumat ala bilmədikləri üçün layiqli iş tapmaq üçün mübarizə aparırlar. Gənclərə əmək bazarının perspektivləri haqqında yüksək keyfiyyətli məlumatlara əsaslanan peşəyönümünə dair məsləhətlər vermək onlara təhsil və peşəkar karyera yollarını seçməyə kömək edir və bacarıq və səriştələri, habelə arzularını daha yaxşı uyğunlaşmağa dəstək olur.

Avropa Təhsil Fondu (ETF) ümumtəhsil və PTT müəssisələrində erkən peşəyönümünə dair məsləhət xidmətlərinin keyfiyyətini və effektivliyini, o cümlədən karyera qurmaqla bağlı maarifləndirmə tədbirlərini kurikulumlara daxil etməyi, tələbələrin ümumi inkişafı ilə əlaqələndirməyi təklif edir. İşəgötürənlər və QHT-lər (Peşə Təhsili üzrə Dövlət Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə yanaşı) peşələrin müəyyənləşdirilməsi və PTT və peşə oriyentasiyasının təşviqi ilə məşğul olmalıdırlar. Beləliklə, peşə oriyentasiyası gənclərin əmək bazarındakı nəticələrini yaxşılaşdırmaq üçün profilaktik tədbir kimi istifadə edilə bilər.

## 3.3 Böyüklər üçün insan kapitalını inkişaf etdirmək imkanlarını artırmaq

### 3.3.1 Mühüm məsələlərin araşdırılması

Yetkinlərin oxuması heç vaxt indiki qədər vacib və aktual olmamışdır. Ona daim dəyişən iş dünyası ilə ayaqlaşmaq üçün təlimə və təkmilləşdirməyə ehtiyacı olan yetkin şəxslərin tələbatı vardır və adətən yaş, cins, təhsil səviyyəsi, məşğulluq vəziyyəti və vəzifə funksiyaları əsasında təsvir olunur.

Hazırda yetkinlərin öyrənməsi üçün imkanlar məhduddur. Bu məsələdə problemlər xüsusilə böyük şəhər mərkəzlərindən kənarda yetkinlər üçün müvafiq təlim imkanlarının və təkliflərinin olmamasından qaynaqlanır. Milli səviyyədə tanınan şəhadətnamələrin verilməsi ilə nəticələnən qeyri-formal təhsil və təlim bir neçə nazirliyin (məsələn ƏƏSMN, İqtisadiyyat Nazirliyi) nəzdində fəaliyyət göstərən məhdud sayda tədris mərkəzləri, bir neçə böyük şirkət (məsələn, SOCAR, Azərsun), peşəkar birliklər (məsələn, Banklar Assosiasiyası) və ixtisaslaşdırılmış müstəqil təlim mərkəzləri tərəfindən təşkil edilir. Mövcud qanunvericiliyə əsasən, şəhadətnamələrin verilməsi ilə nəticələnən bütün təlim proqramlarının Təhsil Nazirliyi tərəfindən təsdiqlənməsi lazımdır (GIZ, 2016). Azərbaycanda yetkinlərin təhsili məsələsi kifayət qədər həll edilməmişdir.

### 3.3.2 Yerlərdə müxtəlif siyasət tədbirləri

**Özünüməşğulluq üçün bacarıqlar lazımdır**

Azərbaycanın məşğulluq siyasətinin mühüm məqsədi passiv yardım sistemindən aztəminatlı insanların asılılığının qarşısını alan və sahibkarlıq fəaliyyətini stimullaşdıran özünüməşğulluq sisteminə tədricən keçidi təşviq etməkdir. Bu, xüsusilə aztəminatlı ailələri müxtəlif aktivlərlə (mallar, materiallar və mal-qara) təmin etmək, habelə onlara sahibkarlıqla bağlı təlimlər təşkil etməklə işsizlərə kiçik bizneslərini açmaq üçün imkanlar yaratmağa yönəlmiş genişmiqyaslı özünüməşğulluq proqramı həyata keçirməklə təmin edilir. 2018-ci ildə proqramda cəmi 7267 nəfər işsiz, o cümlədən 1174 gənc iştirak etmişdir.

Hazırda özünüməşğulluq proqramı vasitəsilə yaradılan bizneslərin təxminən 75%-i kənd təsərrüfatı sahəsinə aiddir.

Proqrama maraq çox yüksək olduğundan (2019-cu ilin birinci yarısında proqrama təxminən 45000 müraciət daxil olmuşdur), 2019-cu ildə genişləndirilərək həssas qruplara, o cümlədən gənclərə xüsusi diqqət yetirilməklə 8500 nəfərdən çox insanın iştirakı təmin edilmişdir. 2019-cu ilin iyun ayında ƏƏSMN, Dövlət Məşğulluq Xidməti və BMTİP əlilliyi olan şəxslər üçün özünüməşğulluq proqramına start verildiyini elan etmişlər. Məqsəd öz bizneslərini qurmaq istəyən və bununla əlaqədar ideyaları olan 500 əlilliyi olan işsizə dəstək olmaqdır. Məqsəd Dünya Bankının “Azərbaycanda Məşğulluğa Dəstək” adlı yeni Layihəsinin dəstəyi ilə ortamüddətli dövrdən daha uzunmüddətli dövrədək biznes qurmaq ehtimalını yaxşılaşdırmaq üçün məqsədyönlülüyü və əlavə dəstək xidmətləri tətbiq etməklə özünüməşğulluq proqramının effektivliyini artırmaqdır.

Özünüməşğulluq proqramının ümumi icrası uğurlu hesab olunsa da, 2016-cı ildən başlandığı vaxtdan indiyədək xeyli genişlənsə də, onun hərtərəfli qiymətləndirilməsi və xərc-mənfəət qiymətləndirməsi hələ də aparılmamışdır. Göstərilən xidmətlərdən sonra benefisiarları izləmək üçün etibarlı sistemin olmaması Dövlət Məşğulluq Xidməti tərəfindən dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlı ümumi zəif cəhətdir. Bu, monitorinq və qiymətləndirmə ənənəsinin zəif olması ilə bağlı ola bilər. Mövcud monitorinq fəaliyyətləri keyfiyyətə az diqqət yetirilməklə təlim proqramlarında iştirakın ölçülməsi ilə məhdudlaşır. Xüsusilə təlim tədbirlərinin əhəmiyyət kəsb etdiyi proqramlara diqqət yetirməklə Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən fərqli məşğulluq proqramlarının gedişatını qiymətləndirmək üçün əsas göstəricilərin (həm sərf olunan resurslar, həm də əldə olunan nəticələr) müntəzəm monitorinqinə ehtiyac vardır.

### Davamlı PTT və yetkinlərinin təhsilinin təşviqi

2019-cu ilin iyununda Nazirlər Kabineti Dövlət Məşğulluq Xidmətinin sifarişi ilə kənar təchizatçılar tərəfindən təmin edilən təlimlərə PTT müəssisələrinin cəlb edilməsinə əsas verən iş axtaran və işsiz insanlar üçün peşə hazırlığının təşkili ilə bağlı yeni qaydaları təsdiq etmişdir. Dövlət Məşğulluq Xidməti və Peşə Təhsili üzrə Dövlət Agentliyi arasında əldə olunmuş razılığa əsasən, Təhsil Nazirliyinə tabe olan peşə məktəbləri və PTT müəssisələri də 2019-cu ilin may ayından etibarən qısamüddətli kurslar təşkil etməyə başlamışlar. İlk addım PTT müəssisələrinə altı ayadək qısamüddətli kurslar təşkil etmək imkanı verməklə PTT-nin davamlı peşə təhsilindəki rolunu artırmaq üçün hüquqi bazanı formalaşdıran PTT haqqında Qanunu qəbul etmək idi. Bu kurslar şirkətlərin müraciəti ilə ödənilən təhsil haqqı əsasında da təşkil edilə bilər.

Texnoloji dəyişikliklər hansı spesifik ixtisasların inkişaf edəcəyini və hansıların gələcəkdə köhnələcəyini təxmin etməyi çətinləşdirir. Belə ki, tez uyğunlaşmaq qabiliyyəti əmək bazarı tərəfindən getdikcə daha çox qiymətləndirilir. Hal-hazırda əmək bazarının ixtisaslar baxımından təhlili müvafiq PTT siyasətləri və xüsusilə də davamlı PTT tələbatları barədə məlumat əldə etmək üçün kifayət qədər yaxşı aparılmır. Əmək bazarı tələbatlarının təhlilinin əhəmiyyəti iki təlim mərkəzinin (Cəlilabad və Gəncə) müsbət təcrübəsi sayəsində təsdiq edilmişdir. 2017-ci ildə aparılmış əmək bazarı sorğusuna əsasən, hər iki mərkəz əmək bazarının tələblərinə uyğun olaraq altı yeni ixtisas üzrə kurslar təklif edir. Şərabçılıq, çay və çiyələk istehsalı kimi inkişaf etməkdə olan sahələri əhatə edən yeni kurslar yeni tələbələrin marağına səbəb olur. Qəbul göstəriciləri Cəlilabadda 22%, Gəncədə isə 9,5% artmışdır (BMT, 2019). Bu tip kurslar yetkin öyrənənlər üçün xüsusilə uyğun ola bilər.

2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin yanında QHT-lərə Dövlət Dəstəyi Şurası təsis edilmişdir. Hər il Şura QHT-lər üçün müxtəlif mühüm sosial, mədəni və ictimai mövzularda qrant ayırmaq məqsədilə konkurs keçirir. Şura yerli QHT-lərə Bakıda və bölgələrdə müxtəlif qruplar arasında

PTT sahəsi ilə bağlı məlumatlılığı artırmaqla bağlı layihələrə müraciət etməyə və layihələr həyata keçirməyə imkan verəcək gələcək qrant ayırmaları üçün peşə təhsili mövzularının siyahısına PTT sahəsini də daxil etməyi planlaşdırır.

### İnformal və qeyri-formal təhsil yolu ilə əldə edilmiş bacarıqların təsdiqlənməsinə yönəlik tədbirlər

Hazırda işin mürəkkəbliyindən asılı olaraq işə qəbul üçün ümumi orta, orta ixtisas və ya ali təhsil haqqında sənəd tələb olunsa da, peşə hazırlığı üzrə ixtisas diplomu tələb olunmur. Bu, əmək bazarında fəal iştirak edən insanların əksəriyyətinin ixtisaslarını təsdiq edən sənədlərinin olmaması ilə nəticələnmişdir. PTT üzrə Yol Xəritəsində keyfiyyəti təsdiq edən əsas göstərici olan peşə hazırlığı üzrə ixtisas diplomunun əsas keyfiyyət təsdiqləyici göstərici olmaqla peşə təhsilinə münasibəti dəyişdirəcək və əməyin təhlükəsizliyinə müsbət təsir göstərəcək və əmək məhsuldarlığını və rəqabət qabiliyyətini artıracaq əsas islahatlardan biri olduğunu qeyd edilmişdir. Sənəddə 2025-ci ildən sonra işə qəbul üçün peşə ixtisasının məcburi ola biləcəyini təmin etmək üçün strateji hədəf müəyyənləşdirilmişdir.

Təhsil Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2015) informal və qeyri-formal təhsil yolu ilə əldə edilmiş səriştələrin təsdiqlənməsi üçün yeni sistem tətbiq etmək vəzifəsini qarşıya qoyur. Bu yaxınlarda qəbul edilmiş Məşğulluq Strategiyasında informal və qeyri-formal təhsilin təsdiqlənmə (VNFIL) mexanizmlərinin işlənib hazırlanması və işçi qüvvəsinin sertifikatlaşdırma sisteminin yaradılması prioritet məsələ kimi qeyd olunmuşdur. Həmçinin Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsi (AzNQF) sənədi də informal və qeyri-formal təhsilin (VNFIL) inkişafı üçün əsas verir. Lakin Təhsil haqqında Qanuna görə, informal və qeyri-formal təhsil (VNFIL) yalnız texniki-peşə təhsili üçün nəzərdə tutulmuşdur. Peşə Təhsili üzrə Dövlət Agentliyi informal və qeyri-formal təhsil (VNFIL) və onun hüquqi bazasının formalaşdırılmasına görə cavabdehdir. Agentlik bunu ƏƏSMN ilə birlikdə həyata keçirir. BMTİP hüquqi bazanın hazırlanmasına dəstək verir və Aİ-nin qrant layihəsi çərçivəsində Gəncə PTT Mərkəzində əvvəlki təhsilin tanınması üçün yeni mexanizmlərin pilot tətbiqini həyata keçirir. Son zamanlarda informal və qeyri-formal təhsillə (VNFIL) bağlı daha çox şəffaflıq müşahidə olunur və bir sıra yüksək səviyyəli tədbirlər və mətbuatda yer alan yazılarla əlaqədar ictimai müzakirələrə maraq artmaqdadır.

2019-cu ilin iyul ayında Azərbaycan Prezidenti ƏƏSMN-nin nəzdində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın (bəzi sənədlərdə "Əmək Bazarı Observatoriyası" adlandırılır) yaradılması haqqında fərman imzalamışdır. Observatoriyanın tələbələrə və iş axtaranlara təhsil sahələrini seçməkdə və məşğulluq və əmək haqqı perspektivlərini artırmaq üçün ixtisaslara pul xərcləməkdə kömək edəcək peşə və ixtisaslara olan tələb-təklif haqqında məlumat toplayacağı, onları təhlil və dərc edəcəyi nəzərdə tutulur. İxtisas hazırlığında əsas rol iqtisadi transformasiyaya imkan verən və işçiləri aşağı məhsuldarlıqlı sektorlardan çıxarmağa imkan verəcək stimullaşdırıcı sektorlar üçün ixtisas tələbatlarını ödəmək olduğundan, gələcək ixtisas tələbatlarını, xüsusilə də robot texnikası, süni intellekt və nanotexnologiya da daxil olmaqla kompüter elmləri, təbiət elmləri və mühəndislik kimi innovativ məzmunun tətbiqi baxımından anlamaq üçün perspektivli yanaşmaya ehtiyac vardır.

### AzNQF və peşə standartları

Son vaxtlar əldə olunmuş digər mühüm nailiyyət Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin (AzNQF) (2018) qəbul olunmasıdır. Bu addım Azərbaycanın Avropa ali təhsil məkanı ilə yaxınlaşmasını dəstəkləyir və Həyat Boyu Öyrənməyə (LLL) dair Avropa kvalifikasiya çərçivəsinə uyğundur. Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsi (AzNQF) digər siyasət təşəbbüsləri, o cümlədən informal məşğulluğun azaldılması, məşğulluğun təşviqi və əmək mobilliyi ilə sıx bağlıdır. Lakin Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsini (AzNQF) tam şəkildə həyata keçirmək üçün daha sistemli yanaşma tələb olunur. 2018-ci ildən etibarən peşə standartlarına əsaslanan yeni proqramlar tərtib

etmək və işəgötürənləri kurikulumların hazırlanması prosesinə cəlb etməklə müasir kurikulumlara keçidə start verilmişdir. Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsi (AzNQF) haqqında fərman, PTT haqqında Qanun, 2019–2030-cu illər üzrə Məşğulluq Strategiyası və İşsizlikdən Sığorta Fondunun 2019-cu il üzrə büdcəsindən istifadə haqqında qanunla peşə standartlarının hüquqi statusu möhkəmləndirilmişdir. Standartların hazırlanması üçün yeni iş prosesi təmin etmək məqsədilə normativ aktlar hazırlanmış və qəbul edilmişdir.

İndiyədək ƏƏSMN şirkətlərin və sosial tərəfdaşların nümayəndələri ilə birlikdə prioritet peşələr üçün 289 peşə və 63 ixtisas standartı hazırlamışdır. Kənd təsərrüfatı, energetika, tikinti, istehsal, turizm, ticarət, biznes və fərdi xidmətlər, ekologiya, nəqliyyat, maliyyə və sığorta sahələri üçün peşə standartları hazırlanmışdır. İşsizlikdən Sığorta Fondundan ayrılan vəsaitlərin Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinə (AzNQF) uyğun olaraq mövcud peşəkar standartların təkmilləşdirilməsi, eləcə də iqtisadi prioritet hesab olunan digər yeni peşə və ixtisas standartlarının hazırlanması üçün istifadəsi nəzərdə tutulur. Peşə standartları ümumiyyətlə dövlət təhsil standartlarının hazırlanması üçün yeni başlanğıc nöqtə hesab edilsə də, hazırda onlardan sistemli şəkildə istifadə olunmur.

Avropa Təhsil Fondu (ETF) 2018-ci ildə peşə standartlarından istifadəyə dair qiymətləndirmə aparmışdır. Peşə və ali təhsil standartlarının yenilənməsinə daha çox iş dünyasının nümayəndələrini cəlb etmək üçün fərqli yanaşmalar sınaqdan keçirilsə də, indiyədək daha çox konsolidasiya edilmiş yeni yanaşmanın tətbiqinə Aİ-nin və donor layihələrinin dəstəyi ilə yavaş-yavaş indi başlanılır. Donorların dəstəyi bu tədbirlərin bəzilərini sürətləndirə bilər, lakin nəticədə çox şey ölkənin institusional imkanlarından asılıdır. Koordinasiya mexanizmlərini aydınlaşdırmaq və standartların və kurikulumun hazırlanmasında sektorların və təhsil verənlərin daha fəal rol oynamağa başlaması üçün onların imkanlarını artırmaq tələb olunur.

### Sahibkarlıq bacarıqlarını artırmağa yönəlik siyasətlər

Azərbaycan KOM-ların inkişafına təkan verən sahibkarlıq bacarıqlarının mühüm rolunu qəbul edir. Sahibkarlıq düşüncə tərzini stimullaşdırmaq və sahibkarlığı təşviq etmək strateji yol xəritələrində göstərilən prioritet məqsədlərdir. KOM-lar üzrə yol xəritəsində də sahibkarlığı təşviq etmək üçün bir sıra siyasət tədbirlərini müəyyən edilmişdir. İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş 2018–2020-ci illər üçün Tədbirlər Planına əsasən, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) duala-bənzər PTT konsepsiyasına uyğun olaraq peşə təhsili müəssisələrində sahibkarlıq təfəkkürünün inkişaf etdirilməsi, istehsalat təliminin və istehsalat təcrübələrinin təşkilinin dəstəklənməsi məqsədilə KOM-ların iştirakı ilə xüsusi təlim təşkil edəcəkdir. 2018-ci ildə hökumət və qeyri-hökumət subyektlərinin sahibkarlıq üzrə təlim fəaliyyətlərini əlaqələndirmək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Həyat boyu öyrənmə Komissiyasının rəhbərliyi ilə strukturlaşdırılmış siyasət tərəfdaşlığı yaradılmışdır.

PTT sahəsində sahibkarlıqla bağlı öyrənməni təşviq etmək məqsədilə 2018-ci ildə bütün PTT səviyyələrində icbari modul kimi sahibkarlıq modulu tətbiq olundu. Lakin bu modul ümumtəhsil sahəsində tətbiq olunmur. Materiallar, təlimat kitabçaları və onlayn resurslar maliyyə və iqtisadi savadlılıq, (biznes) planlaşdırma, ideyaların formalaşdırılması, bazar təhlili və hüquqi aspektlərlə bağlıdır. Praktiki sahibkarlıq təcrübəsi seçilmiş PTT məktəblərində icbaridir, bəzi ixtisaslar üzrə orta peşə məktəbi proqramlarına 14 həftəlik sahibkarlıq təcrübəsi daxil edilmişdir. Həmçinin Peşə Təhsili üzrə Dövlət Agentliyi digər maraqlı tərəflər və qeyri-hökumət qurumları ilə birlikdə PTT müəssisələrinin tələbələrində sahibkarlığı təşviq etmək məqsədilə tədbirlər, seminarlar, müsabiqələr və sahə səfərləri təşkil edir. Agentlik həmçinin peşə təhsili verənlərdə sahibkarlıq və sahibkarlıq təfəkkürü formalaşdırmaq bacarıqlarını artırmaq məqsədilə yeni mentorluq proqramına start vermişdir.

### 3.3.3 Tövsiyələr

Yeni hüquqi baza yetkinlərin öyrənməsi üçün daha çox imkanlar yaratmaq baxımından müsbət addımdır. Bununla belə, davamlı peşə təhsili formalarının və metodlarının məzmun və tədris metodları, onların əmək bazarının tələbləri ilə uyğunluq və daha mühümü böyüklər üçün uyğun olmaq baxımından daha da təkmilləşdirilməsinə ehtiyac vardır. İnteraktiv və iştirak əsaslı metodlar gənclərin təhsilə və bacarıqların inkişafına marağını cəlb etmək baxımından xüsusilə aktualdır. Ayrıca, yeni texnologiyaların istifadəsi - distant təhsildən rəqəmsallaşdırılmış təlim-tədris materiallarınadək - daha çox sayda yetkin və gənc şəxsləri cəlb etmək potensialına malikdir.

**Tövsiyə 7 - Yetkinlərin təhsil imkanlarının artırılmasını və yetkinlərin təhsildə iştirakına dair faktların toplanmasını prioritetləşdirmək**

Təhsil Strategiyasında həyat boyu öyrənmə (LLL) prioritet kimi müəyyən edilmişdir. Təhsil haqqında Qanunda qeyri-formal və informal təhsil və yetkinlərin təhsili üçün geniş spektrli ixtisaslara istinad edilmişdir. Bundan başqa, PTT üzrə Yol Xəritəsində və PTT haqqında Qanunda yetkinlərin təhsili və peşə təhsili müəssisələrində ixtisasartırma kurslarının təşkili üçün müvafiq hüquqi bazanın formalaşdırılması üçün prioritet istiqamətlər və formal, qeyri-formal və informal peşə təhsili anlayışları müəyyən edilmişdir. Bu qanunvericilik bazasının formalaşdırılması davam etdirilir.

Yuxarıda göstərilənlərə uyğun olaraq, Avropa Təhsil Fondu (ETF) böyüklər üçün təhsil imkanlarının genişləndirilməsini, həyat boyu təhsil (LLL) perspektivi baxımından prioritetləşdirilməsini və məşğulluğun yaxşılaşdırılması, uyğunsuzluqların aradan qaldırılması və daha çox bərabərliyin təmin edilməsi üçün iştirak haqqında faktlar sübutların toplanılmasını tövsiyə edir. Bu təkmilləşdirmə təhsilin məzmun və metodlarını, həmçinin onların əmək bazarının tələblərinə uyğunluğunu əhatə etməlidir.

Buraya dövlət təhsilverənlərinin yetkinlərin təhsilində iştirakının artırılması və özəl təhsilverənlərin daha yaxşı əlaqələndirilməsi aid edilə bilər. İnteraktiv və iştirak əsaslı metodların işlənib hazırlanması gənclərin təhsilə və ixtisasverməyə marağının artması baxımından məqsədəuyğun olardı. Ayrıca, yeni texnologiyaların (distant təhsildən rəqəmsallaşdırılmış təlim-tədris materiallarınadək) istifadəsi daha çox potensial benefisiar cəlb etmək imkanına malikdir.

# 4. NƏTİCƏLƏR

Son bir neçə onillikdə Azərbaycanda bir neçə istiqamətdə özünü büruzə verən əhəmiyyətli demoqrafik dəyişikliklər baş vermişdir: əhalinin strukturunda dəyişikliklərin baş verməsi və yeni iş yerlərinə tələbat, böyük şəhərlərin kütləvi şəkildə şəhərləşməsi və müxtəlif formalarda miqrasiya.

İş yerlərinin yaradılması və sosial və regional bərabərsizliyin azaldılması ilə bağlı ən böyük problemlərin həllinə imkan verən yeni iqtisadi artım modelinə tədricən keçid ölkədə insan kapitalının təkmilləşdirilməsi və düzəlişlərin edilməsini tələb edəcəkdir. Əsl çətinlik davamlı təkamüllərə uyğunlaşmağa hazır olan insan kapitalı yaratmaqdır.

İnsan kapitalına olan hazırkı ehtiyacların təmin edilməsi və qlobal tendensiyaların və hərəkətverici amillərin bütün insanlar üçün faydalı olmasını təmin edəcək siyasətlərin planlaşdırılması çətin məsələlərdən biridir. Azərbaycanda bir çox gənc uzun müddət işsizlik qalır ki, bu da onların bacarıqlarının inkişafına, gələcək məşğulluq imkanlarına və qazanc əldə etmək imkanlarına mane ola bilər. Uzun müddət davam edən işsizlik, xüsusilə ilk dəfə iş axtaran gənc qadınlar və kişilər arasında gənclərin əmək bazarının parçalanma risklərini artırır. İş dünyasının transformasiyası davamlı prosesdir və şirkətlərə ehtiyac duyduqları ixtisaslı kadr problemlərini həll etmək baxımından ciddi maneələr yaradır. Bu boşluğu aradan qaldırmaq, gəncləri gələcəyə hazırlamaq və insanları həyat boyu təhsil sayəsində ixtisaslarını artıra biləcəklərinə əmin etmək üçün insan kapitalı məsələsinə necə yanaşmaq və təhsil və təlim sistemlərinin modernləşdirilməsi barədə düşünmək tələb olunur.

Azərbaycan hökuməti insan kapitalının formalaşdırılmasını əsas prioritet məsələ kimi irəli sürmüş və vətəndaşların yeni bacarıq və qabiliyyətlərini inkişaf etdirmək aktualdır. Əsas diqqət həm ilkin, həm də davamlı təhsil və təlim sahəsində bütün səviyyələrdə keyfiyyət və inklüzivliyə dair dayanıqlı siyasət tədbirləri sayəsində struktur və sistem dəyişikliyinə nail olmaqdır.

İqtisadiyyatın şaxələndirilməsi və neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorlarında yüksək dəyər yaradan fəaliyyətlərin inkişafı istiqamətində görülən tədbirlər rəqabətqabiliyyətli və peşəkar işçi qüvvəsinə tələbatı artırmışdır. Bu baxımdan, PTT sektorunun böyüyən və dəyişən əmək bazarının tələbatını ödəmək üçün peşəkar kadr hazırlığı təmin edəcəyi güman olunur.

İxtisasartırma sistemi ixtisaslı kadrların çatışmazlığı və itkilərini aradan qaldırmaqla iqtisadi şaxələndirməyə dair milli prioritetə daha yaxşı dəstək verməli və həyat boyu öyrənmə (LLL) perspektivi baxımından yetkinlər üçün təhsil imkanlarını daha da artırmalıdır. Daha məqsədyönlü siyasət aparılmasına keçid üçün etibarlı məlumatlar və kifayət qədər məlumat təhlili tələb olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yeni yaradılan Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya bu istiqamətdə atılmış mühüm addımdır və lazımi resurslarla təmin olunmalıdır.

PTT üzrə Yol Xəritəsində işəgötürənlərlə tərəfdaşlığın peşə təhsili sistemini qabaqcıl səviyyəyə qaldırmağın vacib şərtlərindən biri olduğu vurğulanır və 2025-ci ilədək işəgötürənlərin tədris kurikulumlarının hazırlanmasından maliyyələşdirmə məsələlərinədək PTT sisteminə tam inteqrasiya olunacağı gözlənilir. PTT üzrə Yol Xəritəsinə əsasən ölkə daxilində əmək bazarında yüksək tələbat yaradan prioritet ixtisaslar üzrə təhsil verəcək 10 modern PTT mərkəzinin yaradılması nəzərdə tutulur. Özəl sektorun iştirakını yaxşılaşdırmaqla PTT-nin insan kapitalının inkişafı baxımından əhəmiyyətinin artacağı gözlənilir. Azərbaycanda xüsusilə yüksək məşğulluq imkanları olan sektorlarda, yəni turizm və

kənd təsərrüfatında istehsalatdan ayrılmadan təhsili (WBL) təşviq etmək üçün böyük potensial mövcuddur.

# ƏLAVƏ 1. TÖVSIYƏLƏRİN QISA İCMALI

| İnsan kapitalının inkişafı və istifadəsi problemi | Tövsiyələr | |
|---|---|---|
| | **Tövsiyə** | **Təsviri** |
| **Peşə Təhsili və Təlimi (VET) sahəsində aşağı iştirak səbəbindən ixtisas çatışmazlığı probleminin həlli** | Tövsiyə 1 - İnsan kapitalının inkişafına yönəlik bütün investisiyalarda PTT-ni prioritetləşdirməklə onun cəlbediciliyini artırmaq | Resursları şaxələndirmək, xərc smetası yanaşmasını inkişaf etdirmək və vəsaitlərin bölüşdürülməsini, onların idarə edilməsi və monitorinqini yaxşılaşdırmaqla PTT maliyyələşdirmə sistemini nəzərdən keçirmək.<br>Buraya peşə təhsilinin inkişafı fondunun yaradılması daxildir. Fond vəsaitləri idarə edəcək və PTT müəssisələri arasında şəffaf qaydada bölüşdürəcəkdir. Planlaşdırma zamanı strategiyalarla faktiki nailiyyətlər arasındakı mövcud boşluğu aradan qaldırmaq, daha çox aydınlığı və şəffaflığı təmin etmək və siyasəti daha etibarlı etmək məqsədilə həm dövlət, həm də özəl maliyyələşmə mənbələri (o cümlədən müxtəlif PTT təminatçılarının və donorların töhfələri) nəzərə alınmalıdır. |
| | Tövsiyə 2 - Özəl sektorun iştirakını artırmaqla PTT-nin insan kapitalının inkişafı baxımından uyğunluğunu artırmaq | Faktiki sosial-iqtisadi tələbatları səmərəli şəkildə təmin etmək və gənclər və şirkətlər üçün cəlbediciliyi artırmaq məqsədilə ixtisas artımını təmin edən çox səviyyəli və çoxtərəfli idarəetmə ekosisteminə şərait yaratmaqla bu məsələnin həllinə hərtərəfli və uyğun yanaşma tətbiq etmək.<br>Milli qurumlar işəgötürənlərin PTT siyasəti siklinə cəlb edilməsi üçün stimul və spesifik 0siyasət mexanizmləri yaratmalıdırlar. Bu, siyasətin planlaşdırılmasından həyata keçirilməsinə və monitorinqinə, o cümlədən əmək bazarının real tələbatlarına uyğun peşə standartlarının və tədris planlarının işlənib hazırlanmasına, PTT sisteminin idarə olunmasında fəal iştirakadək geniş əhatəli olmalıdır. |
| | Tövsiyə 3 – PTT sistemində çalışan peşəkar işçilər üçün şərtləri yaxşılaşdırmaqla ixtisasvermənin keyfiyyətini artırmaq | PTT müəllimləri və ustaları üçün peşə standartlarını təkmilləşdirmək və optimallaşdırmaq və PTT kadrları üçün karyera və peşəkar inkişaf planları tətbiq etmək.<br>Azərbaycan şirkət və müəssisələrin rəsmi müəllimlik ixtisası olmayan mütəxəssislərinin dərs keçməsinə imkan vermək barədə düşünə bilərdi. Bundan əlavə, müəllimlik peşəsinin nüfuzunu artırmaq, o cümlədən vəzifəyə yüksəlmə və karyera inkişafı sisteminin yaradılması istiqamətində tədbirlər görmək tövsiyə olunur. Müəllim heyəti və şirkətlər arasında mütəxəssis biliklərinin və ən qabaqcıl təcrübələrin paylaşılması daha çox stimullaşdırılmalıdır. |
| | Tövsiyə 4 - Daha məqsədyönlü ixtisas siyasətinin formalaşdırılması üçün faktlara əsaslanan siyasət prinsipləri hazırlamaq | Daha etibarlı planlaşdırma üçün məlumat əldə etməyə imkan verən və təhsilin əmək bazarına uyğun olub-olmadığını göstərən məzunlarla aparılan araşdırmalar və işəgötürənlərlə sorğular kimi analitik vasitələrdən müntəzəm şəkildə istifadə etmək tövsiyə olunur.<br>Daha məqsədyönlü siyasət aparılmasına keçid üçün məlumatların toplanması və təhlili ilə əlaqədar potensialın artırılması tələb olunur. |
| **Gənclər arasında işsizlik səbəbindən insan kapitalı itkisinin** | Tövsiyə 5 - Daha çox gənclərin tələbatları nəzərə alınmaqla əmək bazarında iştirakı dəstəkləyən xidmətlər və təlim imkanları | Gənclərə istifadəçilər üçün daha rahat və cəlbedici xidmətlər və təhsil təklifləri təmin edən və beləliklə gənclərə diqqəti ölkənin əsas əmək bazarı siyasətinin tərkib hissəsinə çevirən gənclərin məşğulluq siyasətini daha çox əlaqələndirmək və müvafiq düzəlişlər etmək. |

| | | |
|---|---|---|
| **qarşısının alınması** | yaratmaq | Xüsusilə, gənclərə dəstək tədbirlərini müxtəlif qrupların, xüsusən də əlilliyi olan gənclərin xüsusi ehtiyaclarına uyğunlaşdıraraq yaxşılaşdırmaq. Bundan əlavə, dövlət məşğulluq xidmətinin əməkdaşlarının peşəkar inkişafına investisiya qoymaq, onları hədəf qrupla əlaqə yaratmaq və tələbat və gözləntiləri şaxələndirməklə bağlı mürəkkəb tədbirlərə hazırlamaq. |
| | Tövsiyə 6 - Orta təhsildə, xüsusilə də PTT sahəsində erkən karyera oriyentasiyasının keyfiyyətini və aktuallığını artırmaq | Ümumtəhsil və peşə təhsili və təlimi (PTT) müəssisələrində erkən karyera oriyentasiyası və məsləhət xidmətlərinin keyfiyyətini və səmərəliliyini artırmaq, o cümlədən karyera oriyentasiyasını kurikulumlara daxil etmək, tələbələrin ümumi müvəffəqiyyət göstəriciləri ilə əlaqələndirmək və orta məktəblərdə karyera planlaşdırması ilə bağlı istiqamət vermək. İşəgötürənlər və qeyri-hökumət təşkilatları (Peşə Təhsili üzrə Dövlət Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə yanaşı) peşələrin yaradılması və PTT-nin təbliği və karyera oriyentasiyasında iştirak etməlidirlər. |
| **Yetkinlər üçün insan kapitalının inkişafı imkanlarının artırılması** | Tövsiyə 7 - Yetkinlərin təhsil imkanlarının artırılmasını və yetkinlərin təhsildə iştirakına dair faktların toplanmasını prioritetləşdirmək | Həyat boyu təhsil baxımından yetkinlərin təhsil imkanlarının genişləndirilməsini və məşğulluq imkanlarını yaxşılaşdırmaq, boşluqları aradan qaldırmaq və daha çox bərabərliyi təmin etmək məqsədilə iştirakla bağlı faktların toplanmasını prioritetləşdirmək. Bu təkmilləşdirmə təhsilin məzmun və metodlarını, həmçinin onların əmək bazarının tələblərinə uyğunluğunu əhatə etməlidir.<br>Buraya dövlət təhsil müəssisələrinin yetkinlərin təhsili işinə cəlb edilməsinin intensivləşdirilməsi və özəl təhsil müəssisələrinin cəlb olunmasının daha yaxşı əlaqələndirilməsi aid edilə bilər. İnteraktiv və iştirak əsaslı metodların hazırlanması, xüsusən gənclərin təhsilə və ixtisaslara marağının artması baxımından məqsədəuyğun olardı. |

# ƏLAVƏ 2. AZƏRBAYCANIN TƏHSİL VƏ TƏLİM SİSTEMİ

Təhsil haqqında Qanun Azərbaycanın təhsil sisteminin mərhələ və səviyyələrini müəyyənləşdirmişdir. Azərbaycanın təhsil sistemi beş mərhələdən ibarətdir: məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil. Orta peşə təhsili iki mərhələdə təmin edilir: peşə təhsili və orta ixtisas təhsili.

## ŞƏKİL A1: AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNDƏ PEŞƏ TƏHSİLİ VƏ TƏLIMİ



**Peşə təhsili** müxtəlif ixtisaslar üzrə ixtisaslı işçilərin peşə hazırlığını təmin edir. Peşə təhsilinin üç səviyyəsi vardır: ilkin, texniki və ali texniki peşə təhsili. Formal PTT dövlət və özəl peşə təhsili müəssisələri tərəfindən təmin edilir. "AKÇ" ilə Avropa Kvalifikasiya Çərçivəsi[11] nəzərdə tutulur. Üç növ peşə təhsili müəssisəsi mövcuddur: peşə məktəbi, peşə liseyi və peşə təhsili mərkəzi. Hazırda 76 PTT müəssisəsi fəaliyyət göstərir: 24 peşə təhsili mərkəzi, 16 peşə liseyi, 23 peşə məktəbi, həbsxanalarda yerləşən doqquz peşə məktəbi, iki özəl peşə məktəbi, 1 xüsusi peşə təhsili mərkəzi və bir davamlı peşə təhsili mərkəzi. Həmin məktəblərdə 1167 ümumtəhsil fənləri müəllimi, 634 peşə fənləri müəllimi və 1266 peşə təhsili ustası vardır.

**Orta ixtisas təhsili** tam orta təhsil ilə paralel olaraq müxtəlif peşələr üzrə mütəxəssislərin peşə hazırlığını təmin edir. Orta ixtisas təhsili əsasən kolleclərdə və ali təhsil müəssisələrinin müvafiq fakültələrində aparılır və təhsilin sonunda sub-bakalavr dərəcəsi verilir.

**Ali təhsil** akademik təhsili və yüksək ixtisaslı mütəxəssislərin və elmi və elmi-pedaqoji kadrların hazırlanmasını təmin edir. Ali təhsil pilləsinə qəbul Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təşkil olunan Milli Qəbul İmtahanları əsasında aparılır. İmtahanda tam orta təhsil haqqında şəhadətnamə almış şəxslər iştirak edə bilərlər. 2018-ci ildə qəbul qaydalarına dəyişiklik edilmiş və orta ixtisas təhsili müəssisələrinin məzunlarına orta ixtisas təhsili haqqında şəhadətnamə əsasında qəbul imtahanı vermədən ali təhsil almaq imkanı verilmişdir. Məzunların (sub-bakalavrların) qazandıqları kreditlər müvafiq ali təhsil proqramlarında nəzərə alınır.

---

[11] Avropa Kvalifikasiya Çərçivəsi (EQF) müxtəlif ölkələrdə və fərqli təhsil və təlim sistemləri tərəfindən verilən ixtisasları anlamağa və müqayisə etməyə kömək edən vasitədir. Onun səkkiz səviyyəsi təlim nəticələri baxımından təsvir olunur: bilik, bacarıq və səriştələr.

# AKRONİMLƏR

| | |
|---|---|
| AİB | Asiya İnkişaf Bankı |
| ALMP | Aktiv Əmək Bazarı Proqramı |
| ASAN | Dövlət Xidməti Agentliyi |
| AZN | Azərbaycan manatı (valyuta) |
| AzNQF | Azərbaycan Milli Kvalifikasiyalar Çərçivəsi |
| EaP | Şərq Tərəfdaşlığı |
| ETF | Avropa Təhsil Fondu |
| Aİ | Avropa Birliyi |
| EUR | Avro |
| ÜDM | Ümumi Daxili Məhsul |
| ATM | Ali təhsil müəssisələri |
| İKT | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| IDPs | Məcburi köçkünlər |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| ISCED | Beynəlxalq Təhsil Standartı Təsnifatı |
| LLL | Həyat Boyu Öyrənmə |
| LMO | Əmək Bazarı Observatoriyası |
| TN | Təhsil Nazirliyi |
| ƏƏSMN | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| NEET | Təhsil almayan, işləməyən və ya peşə təliminə cəlb olunmayan şəxs |
| QHT | Qeyri-Hökumət Təşkilatı |
| İƏİT | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| PIRLS | Oxu bacarıqları nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq araşdırma |
| PISA | Şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə Beynəlxalq Proqram |
| R&D | Elmi tədqiqat və inkişaf |
| SABER | Təhsil nəticələrinin yaxşılaşdırılmasına sistemli yanaşma |
| SAVE | Peşə Təhsili üzrə Dövlət Agentliyi |
| DMX | Dövlət Məşğulluq Xidməti |
| KOM | Kiçik və Orta Müəssisə |
| DSX | Dövlət Statistika Komitəsi |
| UIS | UNESCO-nun Statistika İnstitutu |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| UNESCO | BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| PTT | Peşə Təhsili və Təlimi |

| | |
|---|---|
| VNFIL | İnformal və qeyri-formal təhsilin təsdiqlənməsi |
| WBL | İstehsalatdan ayrılmadan təhsil |
| WEF | Dünya İqtisadi Forumu |

# İSTİNADLAR

Abbasov, A. və Caraflı, A., Oxşar, lakin fərqli: Azərbaycan və İsrailin ali təhsil sistemləri və onların ali təhsildə əldə etmək imkanlarına fərqli təsiri, “Dövlət Siyasəti Məsələləri üzrə silsilə tədqiqatlar, Avrasiya Əməkdaşlıq Fondu və Qafqaz Tədqiqat Resurs Mərkəzləri, Bakı, 2018.

Ələkbərov, R., Konstruktivizm nəzəriyyəsi Azərbaycanda kənddən şəhərə miqrasiya tendensiyasını necə izah edir?

Əliyev, Z., Çərkəzov, A., Wolf, S., Fontaine, S. və Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH, Ermənistan, Azərbaycan və Gürcüstanda gələcəkyönümlü dual peşə ixtisasları: Azərbaycanda dual peşə təhsili və təlimi imkanları, GIZ, Bakı, 2016, https://psd-tvet.de/wp/wp-content/uploads/AZ_SFF-Study_Dual-Vocational-Education-and-Training_Azerbaijan.docx.pdf, baxış tarixi: 20 fevral 2020.

Asiya İnkişaf Bankı (AİB), Azərbaycan: ölkənin rəqəmsal inkişafına baxış, Ölkə Diaqnostikası, Yanvar 2019, https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf, baxış tarixi: 5 fevral 2020.

Avvisati, F., Echazarra, A., Givord, P. and Schwabe, M., Ölkəyə dair qeydlər, Beynəlxalq Tələbə Qiymətləndirmə Proqramı (PISA), PISA 2018, İƏİT, 2019, https://www.oecd.org/pisa/publications/PISA2018_CN_QAZ.pdf, baxış tarixi: 5 fevral 2020.

Baskakova, M., Azərbaycan gəncləri: təhsildən layiqli əməyə keçidin gender aspekti, Beynəlxalq Əmək Təşkilatı (BƏT), Moskva, 2012.

Bayramlı, N., Məmmədova, G. və Alman-Azərbaycan Ticarət Palatası (AHK), “Aİ-nin biznes mühiti hesabatı: Azərbaycan 2019”, Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin təsəvvürləri, iyun 2019, https://eeas.europa.eu/sites/eeas/files/eu_business_climate_report_2019.pdf, baxış tarixi: 5 mart 2020.

Breban, D., Muxtarov, E., Cəfərov, J. və İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM), 2019-cu ilin dövlət büdcəsi layihəsinin İSİM tərəfindən qiymətləndirilməsi, noyabr 2018, İSİM, Bakı, http://cesd.az/new/wp-content/uploads/2018/11/CESD_Assessment_State-Budget_2019.pdf, baxış tarixi: 15 mart 2020.

Cisco, Cisco-nun Rəqəmsal əlçatanlıq indeksi 2019, “Cisco White Paper”, 2020, https://www.cisco.com/c/dam/en_us/about/csr/reports/global-digital-readiness-index.pdf, baxış tarixi: 5 mart 2020.

Avropa Təhsil Fondu (ETF), Azərbaycanda TPTT-nin inkişafına dair dövlət proqramının qiymətləndirilməsi, Avropa Təhsil Fondu (ETF), Turin, 2014.

Avropa Təhsil Fondu (ETF), Azərbaycanın Turin Prosesi üzrə hesabatı, Avropa Təhsil Fondu (ETF), Turin, 2017.

Avropa Təhsil Fondu (ETF), Şərq Tərəfdaşlığı ölkələrində işləmək üçün gənclərin əmək fəaliyyətinə keçidinin xəritələşdirilməsi: Azərbaycanın ölkə hesabatı, Avropa Təhsil Fondu (ETF), Turin, 2018 (nəşr edilməmişdir).

Avropa Təhsil Fondu (ETF), Azərbaycanda təhsil, təlim və məşğulluq tendensiyaları, Avropa Təhsil Fondu (ETF), Turin, 2019a.

Avropa Təhsil Fondu (ETF), Avropa Təhsil Fondu (ETF), Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukraynada gənclərin əmək fəaliyyətinə keçidini dəstəkləyən siyasətlər, 2019b., https://www.Avropa Təhsil Fondu (ETF).europa.eu/sites/default/files/2019-04/Youth%20transition%20EaP_0.pdf, baxış tarixi: 15 mart 2020.

Gulylev, F., Azərbaycan islahat vədlərini yerinə yetirə bilərmi?, Müharibə və Sülh Hesabatı İnstitutu, 22 Yanvar 2020, https://iwpr.net/global-voices/can-azerbaijan-deliver-reform-promises, baxış tarixi: 5 fevral 2020.

Hacıyev, S., Azərbaycanda əmək bazarının inkişaf tendensiyaları, Strateji Araşdırmalar Mərkəzi, Bakı, 2017.

Hüseynova, F., Hüseynova, F., Azərbaycanda müəllim hazırlığı sahəsində problemlər və yeni perspektivlər: İngilis dili müəllimlərinin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi, “Azərbaycan Təhsil Araşdırmaları Jurnalı”, № 3 (688), 23-37, 2019, DOI: http://dx.doi.org/10.29228/edu.28

Beynəlxalq Valyuta Fondunun (BVF) Ölkə Hesabatı № 19/301

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (ICMPD), Azərbaycanda miqrasiya ilə bağlı ilkin araşdırma, ICMPD, Vyana, 2018, https://www.pragueprocess.eu/documents/repo/157/Baseline_Study_on_Migration_in_Azerbaijan.pdf, baxış tarixi: 10 fevral 2020.

Daxili Yerdəyişmə üzrə Monitorinq Mərkəzi (IDMC), Daxili yerdəyişməyə dair qlobal hesabat (GRID 2018), Azərbaycan, 2018, http://www.internal-displacement.org/sites/default/files/2018-05/GRID%202018%20-%20Figure%20Analysis%20-%20AZERBAIJAN.pdf, baxış tarixi: 7 fevral 2020.

Beynəlxalq Əmək Təşkilatı (BƏT), Ləyaqətli əmək üzrə ölkə profili: Azərbaycan, BƏT, Cenevrə, 2012.

Kazımov, A. və Avropa Təhsil Fondu (ETF), Turin Prosesi 2018–2020, Azərbaycan, Milli Hesabat.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, İllik hesabat 2017, Bakı, 2017.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, İllik hesabat 2018, Bakı, 2018.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, İllik hesabat 2019, Bakı, 2019.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN), Məşğulluq Strategiyası: 2019–2030, Bakı, 2019.

O’Higgins, N., İqtisadi və maliyyə böhranının gənclərin məşğulluğuna təsiri: Avropa İttifaqı, Kanada və ABŞ-da əmək bazarının bərpasına yönəlik tədbirlər, Beynəlxalq Əmək Təşkilatı (BƏT), Cenevrə, 2010, http://www.ilo.org/wcmsp5/groups/public/---ed_emp/documents/publication/wcms_154365.pdf, baxış tarixi: 4 fevral 2020.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və Birləşmiş Şəhərlər və Yerli İdarəetmə Orqanları Təşkilatı (UCLG), Azərbaycan, unitar ölkə, 2016. https://www.oecd.org/regional/regional-policy/profile-Azerbaijan.pdf; baxış tarixi: 4 fevral 2020.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Azərbaycan: Sahibkarlığı inkişaf etdirməklə şaxələndirməni intensivləşdirmək, İƏİT-nin Nəşriyyatı, Paris, 2019a, http://www.oecd.org/eurasia/competitiveness-programme/eastern-partners/Azerbaijan-Driving-Diversification-through-Strengthened-Entrepreneurship.pdf, baxış tarixi: 21 yanvar 2020.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Beynəlxalq Tələbə Qiymətləndirmə Proqramının (PISA) (2018) nəticələri (I cild): tələbələrin bilik və bacarıqları, PISA, İƏİT-in nəşriyyatı, Paris, 2019b, https://doi.org/10.1787/5f07c754-en.

Rəşidova, A., Fəradov, T. və Səttarov, R., Azərbaycanda təhsildən əmək fəaliyyətin keçidin institusional məzmunu, TEW-CCA İşçi Sənədi №2., Bamberq Universiteti, 2019.

Salmanova, A., Əmək bazarında tələbin növbəti 8 ildə təklifi dəfələrlə üstələyəcəyi gözlənilir, Azernews, 20 dekabr 2017, https://www.azernews.az/nation/124292.html,baxış tarixi: 21 yanvar 2020.

Sadıqov, T., Mədəniyyətlərin toqquşması: kənd yerlərini tərk edən miqrantlar şəhər həyatına necə uyğunlaşırlar?, Qafqaz Analitik Daycesti, № 101, 26 yanvar 2018.

Schwab, K. və Ümumdünya İqtisadi Forumu (WEF), Qlobal rəqabət qabiliyyəti hesabatı 2019, Analitik Məruzə, Ümumdünya İqtisadi Forumu (WEF), Cenevrə, 2019, http://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf, baxış tarixi: 4 fevral 2020.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK), Azərbaycan rəqəmlərdə, DSK, Bakı, 2018.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK), Azərbaycanın demoqrafik göstəriciləri, "İllik Statistika Məcmuəsi", DSK, Bakı, 2019a.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK), Azərbaycanda təhsil, elm və mədəniyyət, "İllik Statistika Məcmuəsi", DSK, Bakı, 2019b.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK), Əmək bazarı, "İllik Statistika Məcmuəsi", DSK, Bakı, 2019c.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi, Operativ hesabat, 2018, BMT, Bakı, 2019.

Birləşmiş Millətlər Təşkilatı, İqtisadi və Sosial Məsələlər üzrə Departament, Əhali Şöbəsi, Qlobal demoqrafik proqnozlar: 2015-ci il düzəlişi, əsas nəticələr və əvvəlcədən hazırlanmış cədvəllər, İşçi Sənəd № ESA/P/WP.241, 2015.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər, Gender qiymətləndirmə hesabatı, 2018.

Vəliyev, A. və Wallwork, L., Post-Sovet dövründə şəhərlərin yenilənməsi və uyğunsuzluqlar: Bakıda söküntü və renovasiya işləri, Şəhər Coğrafiyası, 40:10, s. 1506–1526, 2019, https://doi.org/10.1080/02723638.2019.1627147

Dünya İqtisadi Forumu (WEF), Qlobal rəqabətlilik hesabatı 2017–2018, WEF, Cenevrə, 2017, https://www.weforum.org/reports/the-global-competitiveness-report-2017-2018; baxış tarixi: 6 avqust 2019, baxış tarixi: 25 mart 2020.

Dünya Bankı, SABER: Məktəbəqədər yaşlarda uşaqların inkişafına dair ölkə hesabatı: Azərbaycan 2018 (ingilis dilində). Təhsil nəticələrinin yaxşılaşdırılmasına sistemli yanaşma (SABER) üzrə ölkə hesabatı: məktəbəqədər yaşlarda uşaqların inkişafı, Dünya Bankı Qrupu, Vaşinqton, D.C., 2018a, http://documents.worldbank.org/curated/en/696881543989240000/SABER-Early-Childhood-Development-Country-Report-Azerbaijan-2018, baxış tarixi: 5 mart 2020.

Dünya Bankı, Azərbaycan: İnnovasiyada ali təhsilin rolu (ingilis dilində), Dünya Bankı Qrupu, Vaşinqton, D.C., 2018b, http://documents.worldbank.org/curated/en/222451557427795620/Azerbaijan-The-Role-of-Higher-Education-in-Innovation, baxış tarixi: 15 mart 2020.

Dünya Bankı, "Doing Business" hesabatı (2019): islahatlar naminə təhsil - Azərbaycan (ingilis dilində). , "Doing Business" hesabatı (2019). Dünya Bankı Qrupu, Vaşinqton, D.C., 2018c, http://documents.worldbank.org/curated/en/646971541075679728/Doing-Business-2019-Training-for-Reform-Azerbaijan; baxış tarixi: 4 fevral 2020

**Yenilənmiş statistik məlumatlar üçün faydalı veb-səhifə mənbələri:**

Aİ Statistika İdarəsi (Eurostat): https://ec.europa.eu/eurostat/

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT): https://data.oecd.org/

UNESCO-nun Statistika İnstitutu: http://data.uis.unesco.org/

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Qlobal demoqrafik proqnozlar:

https://population.un.org/wpp/

Dünya Bankı, Dünyanın inkişaf göstəriciləri: http://info.worldbank.org/governance/wgi/#home

Dünya Bankı, Müəssisələrlə sorğular:

http://databank.worldbank.org/data/reports.aspx?Code=NY.GDP.MKTP.CD&id=1ff4a498&report_name=Popular-Indicators&populartype=series&ispopular=y#

Dünya Bankı, Müəssisələrlə sorğular: http://www.enterprisesurveys.org/

Dünya İqtisadi Forumu, Rəqabətlilik indeksi: http://reports.weforum.org/global-competitiveness-index-2017-2018/competitiveness-rankings/